HSS
Hasilat Sənayesində
Şəffaflıq üzrə Komissiya

# HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ ÜZRƏ ÜMUMİLƏŞDİRİLMİŞ

# HESABAT 2016

AZƏRBAYCAN



HSŞ
Hasilat Sənayesində
Şəffaflıq üzrə Komissiya

2018

# MÜNDƏRİCAT


İXTİSARLARIN SİYAHISI 6

ANLAYIŞLAR 9

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏTİNİN HASİLAT SƏNAYESİNDƏ ƏLDƏ ETDİYİ MƏCMU DAXİLOLMALARI BARƏDƏ HESABAT 12

2016-CI İLİ ƏHATƏ EDƏN HSŞ ÜZRƏ MÜSTƏQİL AUDİTORUN HESABATI 14

1.İCMAL **16**

1.1. Giriş 16
1.2. İşin məzmunu 18
1.3. Məlumatların məxfiliyi 18
1.4. Yanaşma və metodologiya 18
1.5. Mühasibatlıq siyasəti 19
1.6. Vətəndaş cəmiyyətinin iştirakı 20

2. HÜQUQİ VƏ FİSKAL REJİM **22**

2.1. Hasilat sənayesinin icmalı 22
2.2. Hüquqi və fiskal rejim 25
2.2.1. Hüquqi rejim 25
2.2.2. Fiskal rejim 31
2.2.3. Dövlət büdcəsinin strukturu 32
2.2.4. Müvafiq dövlət orqanlarının rolu və vəzifələri 37
2.2.5. Hasilat sənayesi üzrə əsas yeniliklər 43
2.2.6. Hasilat sənayesi üzrə mövcud islahatlar 44
2.3. Hasilat sənayesində lisenziyaların verilməsi 44
2.4. Hasilat sənayesində lisenziyaların reyestri 45
2.5. Müqavilələrin açıqlanması 47
2.6. Benefisiar sahiblik 47
2.7. Hasilat sənayesində dövlətin iştirakı 48
2.7.1. Ümumi məlumat 48
2.7.2. Dövlət müəssisələrinin müvafiq dövlət qurumları ilə münasibəti 49
2.7.3. Dövlət müəssisələri ilə dövlət arasında maliyyə axınları 54
2.7.4. Dövlət müəssisələrinin maliyyə göstəriciləri və hasilat məlumatları 55
2.7.5. Dövlət müəssisələrinin birgə, asılı və törəmə müəssisələri 58
2.7.6. Dövlət müəssisələrinə aid olan əməliyyatlar 63
2.7.7. Xarici bazarlarda fəaliyyətin genişləndirilməsi 64
2.7.8. Dövlət müəssisələri tərəfindən əldə olunan kreditlər və zəmanətlər 69

3. HASİLAT SƏNAYESİNƏ BAXIŞ **70**

3.1. Mədən sənayesinin icmalı 70
3.2. İstehsalın həcmi 77
3.3. İxracatda hasilat sənayesinin payı 80

4. HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ ÜZRƏ ÜMUMİLƏŞDİRİLMİŞ HESABATDA ƏHATƏ OLUNAN VERGİ VƏ GƏLİRLƏR **83**

4.1. Əhəmiyyətli sayılan ödənişlər 83
4.2. Dövlətə edilən ayırmalar, ödənişlər və onların təsviri 84
4.3. Üzləşmə prosesinin nəticələri 85
4.4. Hasilat sənayesi şirkətləri 94
4.5. Hasilatda dövlət payının satışı və digər natura şəklində gəlirlər 98
4.6. İnfrastruktur təchizi və barter razılaşmaları 99
4.7. Nəqletmə gəlirləri 100

4.8. Sub-milli köçürmələr 108
4.9. Fərdi hesabatlılıq 108
4.10. Məlumatların etibarlılığı, tamlığı və əminlik prosedurları 108

5. HASİLAT SƏNAYESİ GƏLİRLƏRİNİN VƏ XƏRCLƏRİNİN BÖLGÜSÜ **112**

5.1. Dövlət büdcəsi və ARDNF-in gəlir və xərclər bölgüsü 112
5.2. Gəlirlərin idarə edilməsi və xərclər 114

6. AZƏRBAYCAN İQTİSADİYYATINA HASİLAT SƏNAYESİNİN TÖHFƏSİ **116**

6.1. Sosial xərclər 117
6.2. Kvazi-fiskal xərclər 118
6.3. ÜDM–nin istehsal və sahə strukturları 119
6.4. Hasilat sənayesindən əldə edilən dövlət gəlirləri 121
6.5. Hasilat sənayesində məşğulluq 128
6.6. Ümumi hasilatın həcmi və cəmləşdiyi əsas rayonlar (ərazilər) 130
6.7. Digər məlumatlar 132

7. ÜZLƏŞDİRMƏ **134**

7.1. Gəlir növləri üzrə üzləşmə prosesi (xarici şirkətlər) 134
7.2. Hasilat sənayesi şirkətləri üzrə üzləşmə (xarici şirkətlər) 138
7.3. Hasilat sənayesi şirkətləri üzrə üzləşmə prosesi (yerli şirkətlər üzrə) 144
7.4. Gəlir növləri üzrə üzləşmə prosesi (yerli şirkətlər üzrə) 146
7.5. Hasilatın pay bölgüsü sazişləri üzrə dövlətə köçürülən gəlirlər 148
7.6. Düzəlişlər 150

8. XÜSUSİ YOXLAMA PROSEDURLARI **156**

9. TÖVSİYƏLƏR VƏ NƏTİCƏLƏR **158**

9.1. 2016-cı il üzrə hesabatın tərtibatı və üzləşmə prosesindən əldə olunmuş təcrübə 158

ƏLAVƏLƏR **160**

Əlavə 1. Azərbaycan Respublikası Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyanın bəyannaməsi 160
Əlavə 2. Hesabat şablonları 162
Əlavə 3. Hasilat sənayesi şirkətləri üzrə üzləşmə cədvəlləri 166
Əlavə 4. Hesabatın tərtibatı zamanı istifadə olunmuş ədəbiyyat 210

**AÇIQ HÖKUMƏTİN TƏŞVİQİNƏ DAİR HÖKUMƏT-VƏTƏNDAŞ CƏMİYYƏTİ DİALOQU PLATFORMASININ AZƏRBAYCAN RESPUBLİKASI HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ 2016-CI İL ÜZRƏ İLLİK HESABATINA RƏYİ** 213

**AZƏRBAYCAN RESPUBLİKASININ HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ ÜZRƏ 2016-CI İL HESABATINA VƏTƏNDAŞ CƏMİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN RƏYİ** 232

# İXTİSARLARIN SİYAHISI

| | |
|---|---|
| ABƏŞ | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti |
| ABŞ dolları | Amerika Birləşmiş Ştatları dolları |
| AÇG | Azəri–Çıraq–Günəşli |
| AQTŞ | Azərbaycan Qaz Təchizatı Şirkəti |
| ARDNF | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| ARMB | Azərbaycan Respublikası Mərkəzi Bankı |
| A.S | Aksjeselskap–Norveçdə aksiya və opsiyon tipli şirkətlər üçün termin |
| AZN | Azərbaycan manatı |
| BM | Birgə Müəssisə |
| BVF | Beynəlxalq Valyuta Fondu |
| BOTAŞ | Boru hatları ile petrol taşıma a.ş. |
| BTC | Bakı–Tbilisi–Ceyhan |
| CQBK | Cənubi Qafqaz boru kəməri |
| CQD | Cənub Qaz Dəhlizi |
| DSMF | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu |
| DM | Dövlət Müəssisəsi |

| | |
|---|---|
| **ƏDV** | Əlavə Dəyər Vergisi |
| **ƏİBK** | Əsas İxrac Boru Kəməri |
| **HPBS** | Hasilatın Pay Bölgüsü Sazişləri |
| **HSŞ** | Hasilat Sənayesində Şəffaflıq |
| **İN** | İqtisadiyyat Nazirliyi |
| **Komissiya** | Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya (HSŞ Komissiyası) |
| **Katiblik** | HSŞ Komissiyasının Katibliyi |
| **kq** | kiloqram |
| **QHT** | Qeyri-hökumət Təşkilatı |
| **QİBK** | Qərb İxrac Boru Kəməri |
| **QSC** | Qapalı Səhmdar Cəmiyyəti |
| **m** | metr |
| **$m^3$** | kub metr |
| **mln** | milyon |
| **mlrd** | milyard |
| **MMBT** | 1 milyon Britaniya istilik vahidi |



# İxtisarların Siyahısı (Davamı)

| | |
|---|---|
| **MMC** | Məhdud Məsuliyyətli Cəmiyyət |
| **nm³** | Normal kub metr |
| **ONŞ** | Ortaq Neft Şirkəti |
| **sm³** | Standart kub metr |
| **SOCAR** | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| **STYAŞ** | SOCAR Turkey Yatırım A.S |
| **Şirkətlər** | Hasilat sənayesi şirkətləri |
| **TAP** | Trans Adriatik Boru Kəməri |
| **TANAP** | Trans Anadolu Boru Kəməri |
| **TƏMÖHS** | Tranzit Əraziyə Malik Ölkə Hökuməti Sazişi |
| **TPAO** | Türkiyə Petrolleri Anonim Ortaqlığı |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **VÖEN** | Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi |

# ANLAYIŞLAR

**NEFT VƏ QAZ**

Bu hesabatda karbohidrogen ehtiyatları – neft, qaz, neft kondensat, qaz-kondensat nəzərdə tutulur.

**MÜSTƏQİL AUDİTOR**

Hasilat sənayesi şirkətlərinin və dövlətin HSŞ üzrə fərdi hesabatlarını üzləşdirən və HSŞ hesabatını hazırlayan müstəqil audit şirkəti.

**DÖVLƏT BÜDCƏSİ**

Müvafiq hakimiyyət orqanları vasitəsi ilə dövlətə məxsus funksiyaların yerinə yetirilməsini təmin etmək üçün lazım olan pul vəsaitinin qanunla müəyyən olunmuş qaydada yığılması və xərclənməsi formasıdır. [1]

**PODRATÇI ŞİRKƏTLƏR**

Azərbaycan Respublikasının qanunvericiliyi əsasında yaradılmış, Azərbaycan Respublikasında müvafiq ərazi, infrastruktur, texniki vasitələr, işçi qüvvəsi, zəruri texniki, texnoloji, inzibati və idarəetmə biliklərinə və təcrübəsinə, maliyyə ehtiyatlarına malik olan, ixrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikasının hüdudlarından kənarda bu cür layihələri həyata keçirən, xarici sifarişçi ilə birbaşa müqaviləsi olan hüquqi şəxslər, o cümlədən xarici sərmayəçilərin iştirakı ilə yaradılmış hüquqi şəxslər. [2]

[1] Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Normativ hüquqi aktların vahid internet elektron bazası http://www.e-qanun.az/framework/4756

[2] Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsi, İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında AR-nın qanunu http://www.taxes.gov.az/modul.php?name=qanun&news=287


1846-cı İLDƏ DÜNYADA İLK DƏFƏ OLARAQ
SƏNAYE ÜSULU İLƏ NEFT
MƏHZ BU QUYUDAN ÇIXARILMIŞDIR.
THE WORLD'S FIRST
INDUSTRIALLY DRILLED OIL WELL, 1846.

"Neft hasilatı hələ o demək deyil ki, ölkələr çiçəklənəcək, orada inkişaf olacaq. Neftlə zəngin olan bir çox ölkələrdə bu gün müşahidə edilən mənzərə bunun əksini deyir. Ona görə, bizim əsas vəzifəmiz ondan ibarət idi ki, neft gəlirlərini insan kapitalına çevirək və hər bir Azərbaycan vətəndaşı bu müsbət dəyişikliyi görsün."

**İLHAM ƏLİYEV**

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏTİNİN HASİLAT SƏNAYESİNDƏ ƏLDƏ ETDİYİ MƏCMU DAXİLOLMALARI BARƏDƏ HESABAT

| Daxilolmalar | Məbləği | | Miqdarı | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | mis konsentratında | |
| | milyon ABŞ dolları | milyon Azərbaycan manatı | neft (milyon barel) | qaz (min kub metr) | qızıl (min unsiya) | gümüş (min unsiya) | əlvan metallar (min ton) | qızıl (min unsiya) | gümüş (min unsiya) |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| **1. Dövlətə xarici şirkətlərdən daxilolmalar** | | | | | | | | | |
| 1.1 Neft | 24,460 | | 127,375 | | | | | | |
| 1.2. Təbii qaz | 64,416 | | | 18,949,473 | | | | | |
| 1.3. Səmt qaz | | | | 2,860,269,843 | | | | | |
| 1.4. Əlvan metallar (mis) | | | | | | | 0,198 | | |
| 1.5 Qızıl | | | | | 7,777 | | | | |
| 1.6 Gümüş | | | | | | 1,383 | | | |
| 1.7 Dövlətə digər ödənişlər, cəmi, o cümlədən: | | | | | | | | | |
| 1.7.1. mis konsentratında qızıl | | | | | | | | 0,439 | |
| 1.7.2. mis konsentratında gümüş | | | | | | | | | 16,321 |
| **2. Dövlətə yerli şirkətlərdən daxilolmalar. Yerli şirkətlərin hasilatında dövlətə məxsus pay** | | | | | | | | | |
| 2.1. Neft | | | | | | | | | |
| 2.2. Təbii qaz | | | | | | | | | |
| 2.3. Səmt qaz | | | | | | | | | |
| 2.4. Əsas metallar | | | | | | | | | |
| 2.5. Qızıl | | | | | | | | | |
| 2.6 Gümüş | | | | | | | | | |
| **3. Dövlətin xarici şirkətlərdən digər daxilolmaları (yerli dövlət şirkəti vasitəsilə toplanmış ödənişlər daxil olmaqla)** | | | | | | | | | |
| 3.1. Royalti (mədən vergisi) | | | | | | | | | |
| 3.2. Mənfəət vergisi | | 418,752 | | | | | | | |
| 3.3. Digər vergilər (fiziki şəxslərin gəlir vergisi, sosial və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla) | | | | | | | | | |
| 3.4. İmzalanma bonusları və digər bonuslar | 0,051 | | | | | | | | |
| 3.5. Lisenziya və konsessiya haqları | | | | | | | | | |
| 3.6. Dövlətə digər ödənişlər, cəmi, o cümlədən: | | | | | | | | | |
| 3.6.1. akrhesabı ödənişlər | 2,118 | | | | | | | | |

## HESABAT DÖVRÜ: 1 YANVAR – 31 DEKABR 2016-CI İL

| 1 | | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 3.6.2. tranzit haqqı | 11,258 | | | | | | | | |
| | 3.6.3. qazın satışı üzrə müqavilə qiymətində edilmiş dəyişiklik nəticəsində yaranmış fərqdən daxilolmalar | | | | | | | | | |
| **4. Dövlətə yerli şirkətlərdən digər daxilolmalar** | | | | | | | | | | |
| 4.1 | Vergilər: | | | | | | | | | |
| | 4.1.1. Royalti (mədən vergisi) | | 108,693 | | | | | | | |
| | 4.1.2. Mənfəət vergisi | | 5,118 | | | | | | | |
| | 4.1.3. Əlavə dəyər vergisi | | 68,370 | | | | | | | |
| | 4.1.4. Torpaq vergisi | | 31,116 | | | | | | | |
| | 4.1.5. Əmlak vergisi | | 73,847 | | | | | | | |
| | 4.1.6. Qiymət fərqi | | 104,909 | | | | | | | |
| | 4.1.7. Sair vergilər (fiziki şəxslərin gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla) | | 70,022 | | | | | | | |
| 4.2. | İmzalanma bonusları və digər bonuslar | | | | | | | | | |
| 4.3. | Lisenziya və konsessiya haqları | | | | | | | | | |
| 4.4. | Dövlətə digər ödənişlər, cəmi, o cümlədən: | | | | | | | | | |
| | | **ABŞ dolları (milyon)** | **Azərbaycan manatı (milyon)** | **neft (milyon barel)** | **qaz (min kub metr)** | **qızıl (min unsiya)** | **gümüş (min unsiya)** | **əlvan metallar (min ton)** | **mis konsentratında qızıl (min unsiya)** | **mis konsentratında gümüş (min unsiya)** |
| **CƏMİ:** | | **102,303** | **880,827** | **127,375** | **2,879,219,316** | **7,777** | **1,383** | **0,198** | **0,439** | **16,321** |

# 2016 Cİ İLİN ƏHATƏ EDƏN HSŞ ÜZRƏ MÜSTƏQİL AUDİTORUN HESABATI

## MÜSTƏQİL AUDİTORUN HESABATI

Azərbaycan Respublikası Hasilat Sənayesində Şəffaflıq (HSŞ) üzrə Komissiyaya:

Biz, 31 dekabr 2016–cı il tarixində başa çatan il üzrə Azərbaycan Respublikasında təbii ehtiyatların istismarı ilə əlaqədar dövlətin daxilolmalarının və hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərin ("Şirkətlər") ödənişlərinin (ayırmalarının) üzləşdirmə prosesini həyata keçirdik.

Biz yoxlamanı Əminlik Yoxlamaları üzrə Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparmışıq və müvafiq olaraq Komissiyanın Bəyannaməsini təsdiq edən sübutların test üsulu ilə yoxlamasını və bizim şərtlərdə vacib hesab etdiyimiz bu kimi başqa prosedurları həyata keçirmişik. İnanırıq ki, yoxlamamızın nəticələri rəyimizin əsasını təşkil etmək məqsədi üçün kifayətdir.

Bizim yoxlamamız dövlətin aldığı və Şirkətlərin etdiyi bütün ödənişləri/ayırmaları əhatə etmişdir.

**İcra olunmuş işin xülasəsi:**

Biz 31 dekabr 2016–cı il tarixində başa çatan il ərzində, hasilat sənayesi Şirkətləri tərəfindən təqdim olunmuş hesabatlarla dövlətin daxilolmaları məlumatları arasında üzləşmə aparmışıq. Yaranmış fərqlərin səbəblərini müəyyənləşdirmək üçün biz zəruri prosedurları həyata keçirdik. Biz, üzləşmə prosesinə cəlb olunan əməliyyatlar barədə əminlik əldə etmək üçün bir neçə hasilat şirkətlərində müəyyən xüsusi yoxlama və əminlik prosedurları həyata keçirdik.

**Müstəqil Auditorun rəyi**

31 dekabr 2016-cı il tarixində başa çatan il ərzində Şirkətlər tərəfindən ödənilmiş və Dövlət tərəfindən qəbul olunmuş bütün ödənişlərin (ayırmaların) üzləşməsini həyata keçirdik. Fikrimizcə, hesabatda öz əksini tapmış üzləşmə prosesinə dair bütün məlumatlar düzgün əks olunmuşdur.

8 dekabr 2017–ci il

# 1. İCMAL

## 1.1. GİRİŞ

**Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanına əsasən ölkənin hasilat sənayesində şəffaflıq və hesabatlılıq standartlarının tətbiqi aşağıda göstərilmiş beynəlxalq prinsiplər əsasında davam etdirilir:**

**1.** Təbii ehtiyatlardan əldə olunan gəlirlərin vətəndaşların rifahı və ölkənin milli maraqları naminə idarə olunması suveren dövlətlərin səlahiyyətlərinə aiddir;
**2.** Təbii ehtiyatlardan əldə olunan gəlirlərdən qənaətli istifadə yoxsulluğun azaldılmasına və davamlı iqtisadi inkişafa təkanverən mühüm vasitədir;
**3.** Dövlət orqanlarının fəaliyyətində, özəl sektorda və ictimai münasibətlərdə şəffaflıq və hesabatlılıq standartları təşviq edilməlidir;
**4.** Dövlət hasilat sənayesindən əldə olunan gəlirlərin idarə olunması ilə bağlı vətəndaşlar qarşısında hesabat verməlidir;
**5.** Şəffaflığın artırılmasına müvafiq müqavilə və qanunlara əməl etməklə nail olunmalıdır;
**6.** Hasilat sənayesində fəaliyyət göstərən dövlət və özəl şirkətlər tərəfindən şəffaflığın, o cümlədən dövlətin maliyyə idarəetməsinin və hesabatlılığın gücləndirilməsi təmin olunmalıdır;
**7.** Ölkənin maliyyə şəffaflıq standartları hasilat sənayesində fəaliyyət göstərən bütün şirkətlərə şamil edilməlidir;
**8.** Bu sahədə şəffaflığın tətbiqində dövlət orqanları, hasilat sənayesində fəaliyyət göstərən şirkətlər, beynəlxalq təşkilatlar, maliyyə qurumları, investorlar və qeyri-hökumət təşkilatları da daxil olmaqla, bütün maraqlı tərəflərin iştirakı təmin edilməlidir.

Sözügedən Fərmanın 2-ci bəndinə əsasən Azərbaycanın hasilat sənayesində şəffaflığın və hesabatlılığın təmin edilməsi məqsədilə Hasilat Sənayesində Şəffaflıq (HSŞ) üzrə Komissiya (bundan sonra – Komissiya) yaradılmışdır. [3] Komissiya öz fəaliyyətini illik Fəaliyyət Planı əsasında həyata keçirir.
Komissiya Hasilat Sənayesində Şəffaflıq üzrə ümumiləşdirilmiş hesabatların (bundan sonra - HSŞ hesabatı) müfəssəlliyinin və gəlirlər üzrə ictimai məlumatlılığın artırılması məqsədilə HSŞ-nin icra edilməsinin genişləndirilməsini təşviq edir və ictimai həyatda, dövlət əməliyyatlarında və biznes sahəsində yüksək şəffaflıq və hesabatlılıq standartlarının həyata keçirilməsini həvəsləndirir.
Fərmana əsasən Komissiyanın cari fəaliyyəti-

[3] Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanının tam mətni ilə http://www.president.az/articles/23288 keçidində tanış ola bilərsiniz.

nin təşkili məqsədilə Komissiyanın Katibliyi funksiyasını Azərbaycan Respublikasının Dövlət Neft Fondu həyata keçirir. [4]

Hasilat gəlirlərinin şəffaflığının təmin olunması, şirkətlərin dövlətə ödənişlərinin və dövlətin müvafiq gəlirlərinin açıqlanaraq üzləşdirilməsi üsulu ilə həyata keçirilir.

**Bu üsul 3 əsas elementdən ibarətdir:**

- **Şəffaflıq:** Neft, qaz və mədən sənayesində fəaliyyət göstərən şirkətlər dövlətə ödənişləri, dövlət isə qeyd edilən şirkətlərdən daxilolmaları və hasilat sənayesi ilə bağlı digər aidiyyatı məlumatları açıqlamalıdır. Açıqlanan rəqəmlər audit şirkəti tərəfindən üzləşdirilir və hasilat sənayesi ilə bağlı digər məlumatlarla birlikdə illik HSŞ hesabatlarında dərc olunur.

- **Hesabatlılıq:** Komissiya ölkənin hasilat sənayesində hesabatlılığın artırılmasını təmin edir və HSŞ hesabatının məlumatlarının yayılmasını, əhalinin hasilat gəlirləri barədə maarifləndirilməsini və təbliğatını həyata keçirir, eləcə də HSŞ-nin ölkədə həyata keçirilən daha geniş şəffaflıq səylərinə inteqrasiya edilməsini təşviq edir.

- **Etibarlılıq:** Etibarlılığın təmin edilməsi həm hesabatın keyfiyyətli hazırlanmasına, həm də vətəndaş cəmiyyəti təmsilçilərinin HSŞ prosesində iştirakına əsaslanır. Bu iştirakı təmin etmək məqsədilə HSŞ Komissiyası Azərbaycan Respublikası Prezidentinin 5 aprel 2017-ci il tarixli 1315 nömrəli “Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanında tapşırıldığı kimi hesabatlılığın təşkil olunmasının bütün mərhələlərində qeyri-hökumət təşkilatları, özəl sektorun nümayəndələri və müstəqil ekspertlər ilə əməkdaşlıq edir. Komissiya müvafiq elanla prosesdə maraqlı olan vətəndaş cəmiyyəti təmsilçilərini prosesdə iştirak etməyə dəvət etmiş və 42 nəfər vətəndaş cəmiyyəti təmsilçisi öz marağını ifadə edərək müvafiq qeydiyyatdan keçmiş və illik HSŞ Hesabatının hazırlanmasında iştirak etmişdir.

İndiyədək görülmüş işlər və hesabatlarla daha ətraflı www.eiti.az internet səhifəsində tanış olmaq mümkündür.

[4] Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli, 240 nömrəli “Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması haqqında” Fərmanına uyğun olaraq, Dövlət Neft Şirkəti (və ya Səlahiyyətli Hökumət Orqanı) və sərmayəçilər arasında imzalanmış neft/qaz yataqlarında kəşfiyyat və qazma işlərinin aparılmasına, habelə hasilat bölgüsünə dair sazişlərin həyata keçirilməsi, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda neft/qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsinə dair digər sazişlərin həyata keçirilməsindən əldə olunan vəsaitlərin səmərəli idarə edilməsini təmin etmək məqsədilə yaradılmışdır. www.oilfund.az internet səhifəsində daha ətraflı məlumatla tanış ola bilərsiniz.

## 1.2. İŞİN MƏZMUNU

2016-cı il üzrə HSŞ hesabatının tərtib olunması məqsədilə maraqlı tərəflərin iştrakı ilə HSŞ Komissiyası tərəfindən keçirilmiş "Müstəqil Auditor xidmətinin alınmasına dair Kotirovka Sorğusuna" əsasən Moore Stephens Azərbaycan şirkəti qalib elan edilmişdir. Müstəqil Auditorun gördüyü işlər Azərbaycanın hasilat sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərin dövlətə ödənişləri və dövlətin yerli və xarici şirkətlərdən daxilolmaları barədə 2016-cı ili əhatə edən hesabatların beynəlxalq mühasibat uçotu standartlarına uyğun üzləşdirilməsi və təhlili, Azərbaycanın hasilat sənayesi üzrə ümumi məlumatların toplanması və strukturlaşdırılmasından ibarətdir.

## 1.3. MƏLUMATLARIN MƏXFİLİYİ

Müstəqil Auditor 22 iyun 2017–cı il tarixində Azərbaycan Respublikası Dövlət Neft Fondu ("ARDNF") ilə imzalanmış 08-22 nömrəli müqaviləyə əsasən məxfilik haqqında müddəaya uyğun olaraq işlərin icrasını həyata keçirir.

Müstəqil Auditor imzalanmış müqaviləyə əsasən gördüyü işlərin məxfiliyinin qorunmasını təmin etməli və üzləşdirmə prosesi zamanı əldə olunan təsdiqedici sənədləri tərəflərin icazəsi olmadan, heç bir üçüncü tərəfə verməməli və onunla müzakirə etməməlidir.

## 1.4. YANAŞMA VƏ METODOLOGİYA

**Moore Stephens Azərbaycan şirkəti tərəfindən HSŞ hesabatının hazırlanması aşağıdakı mərhələlərdən ibarət olmuşdur:**

**Məlumatların toplanması:**

Bu mərhələdə Azərbaycanın hasilat sənayesində fəaliyyət göstərən şirkətlər və müvafiq dövlət qurumları Komissiya tərəfindən təsdiq olunmuş formalara uyğun hesabatlar təqdim edirlər (bax – "4.4. Hasilat sənayesi şirkətləri"). Hasilat sənayesində idarəetmə tədbirləri və vergi siyasəti, ilkin araşdırmanın nəticələri, əvvəlki illər üzrə hasilat sənayesində şəffaflıq üzrə hesabatların nəticələri və tövsiyələri daxil olmaqla müvafiq məlumatlar nəzərdən keçirilir. Ümumi məlumatlar açıq mənbələrdən istifadə edilərək toplanılır.

**İlkin üzləşdirmə, fərqlərin araşdırılması və ümumi məlumatların toplanması:**

Bu mərhələdə Müstəqil Auditorun məqsədi təqdim olunan hesabatların üzləşdirilərək fərqlərin aşkar olunması və yaranan fərqlərin araşdırılaraq lazımi düzəlişlərin edilməsidir. Üzləşdirmə prosesi zamanı yaranan fərqlərin izahını əldə etmək məqsədilə Müstəqil Auditor müvafiq şirkət və dövlət qurumları ilə əlaqə saxlayıb bu uyğunsuzluqların səbəbini müəyyənləşdirmək üçün təsdiqedici sənədlər tələb edir.

Eyni zamanda ümumi məlumatların mühüm hissəsinin toplanması və strukturlaşdırılması təşkil olunur. Həmin ümumi məlumatlar dövlət orqanları və şirkətlərin rəsmi internet səhifələrinə, açıq mənbələrə və rəsmi məktublara istinad edilərək hesabata daxil edilir.

**Layihə HSŞ hesabatının tərtib edilməsi:**

**Bu mərhələdə aşağıda qeyd olunan bütün məlumatlar hesabatda əks olunur:**

- Müstəqil Auditorun hesabatı;
- Üzləşdirmə üsulunun təsviri;
- Üzləşdirmə və xüsusi yoxlama prosedurları;
- Ümumi məlumatların açıqlanması.

**Yekun HSŞ hesabatının təqdim edilməsi:**

Bu mərhələdə HSŞ hesabatı bütün maraqlı tərəflərə təqdim edilir, Komissiya tərəfindən hesabata dair verilmiş göstərişlər yerinə yetirilir, gələcəkdə HSŞ hesabatlarının keyfiyyətinin artırılması məqsədilə növbəti hesabatlılıqlar üçün tövsiyələr, HSŞ hesabatı ilə birlikdə dərc edilə bilən və hesabatda əks olunmuş bütün cədvəllərin daxil olduğu elektron məlumat faylları hazırlanır və HSŞ Komissiyasının Katibliyinə ("Katiblik") təqdim edilir. Müstəqil Auditor hesabatlılıq dövrünün sonunda əldə edilmiş nəticələrə həsr olunmuş ictimai məlumatlandırma tədbirlərində iştirak edir.

## 1.5. MÜHASİBATLIQ SİYASƏTİ

2016–cı il üzrə hasilat sənayesi şirkətləri tərəfindən edilən ödənişlər və dövlətin daxilolmalarına dair üzləşdirmə prosesində mühasibat uçotunun kassa metodundan istifadə edilmişdir.

Xarici şirkətlər tərəfindən təqdim olunan hesabatlarda ödənişlər xarici valyuta ilə əks olunmuşdur. Yerli şirkətlərin təqdim etdiyi hesabatlarda isə ödənişlər milli valyuta ilə göstərilmişdir. Amerika Birləşmiş Ştatları dollarında (ABŞ dollarında) edilən ödənişlər Mərkəzi Bankın orta illik məzənnəsinə uyğun olaraq AZN-ə konvertasiya olunmuşdur. 31 dekabr 2016–cı il üzrə ABŞ dollarının orta illik məzənnəsi 1,5959 AZN olmuşdur. [5]

[5] Azərbaycan Respublikası Mərkəzi Bankı, "Statistik Bülleten № 12 (202) 12/2016", "Cədvəl 2.16. Manatın xarici valyutalara qarşı rəsmi orta məzənnəsi", https://www.cbar.az/assets/4267/STATISTIK_BULLETEN_2016_DEKABR.pdf

## 1.6. VƏTƏNDAŞ CƏMİYYƏTİNİN İŞTİRAKI

**İllik Hesabatın hazırlanması və açıqlanması prosesi əsasən aşağıdakı mərhələlərdən ibarət olur:**

- Hesabatlılığa cəlb ediləcək şirkətlərin əhatə dairəsinin müəyyən edilməsi;
- Müstəqil Auditorun seçilməsi;
- Müstəqil Auditor tərəfindən hesabat layihəsinin hazırlanması və müzakirəsi;
- Hesabatın HSŞ Komissiyası üzvlərindən, vətəndaş cəmiyyəti və hasilat şirkətlərinin nümayəndələrindən ibarət yaradılmış İşçi Qrup tərəfindən verilmiş tövsiyələr əsasında təkmilləşdirilməsi və yekunlaşdırılması;
- Hesabatın yekun versiyasının ictimai təqdimatı və müzakirəsi;
- Açıqlanmış hesabata dair vətəndaş cəmiyyəti nümayəndələri tərəfindən rəyin verilməsi.

Vətəndaş cəmiyyəti nümayəndələrinin yuxarıda sadalanan, yəni hesabatlılığın bütün mərhələlərində iştirakı Azərbaycan Respublikası Prezidentinin 5 aprel 2017-ci il tarixili 1315 nömrəli "Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına əsasən təmin edilir.



# 2. HÜQUQİ VƏ FİSKAL REJİM

## 2.1. HASİLAT SƏNAYESİNİN İCMALI

**Hasilat sənayesi əsas faydalı qazıntı yataqlarını kəşf edən, faydalı qazıntıları hasil və ilkin emal edən istehsal sahələrini özündə cəmləşdirir. Azərbaycan neft və qaz başda olmaqla müxtəlif mineral ehtiyatlarla zəngindir.**

- **Neft və qaz sənayesi –** neft və qaz yataqlarının kəşfiyyatını, neft-qaz quyularının qazılmasını, neft və qaz yataqlarının işlənməsi və istismarını, neft və qazın hasilatını, xam neft, neft məhsulları və qazın nəqlini əhatə edir;

- **Kəşfiyyat –** geoloji və geofiziki kəşfiyyat işlərinin aparılması, qazma üsullarının müəyyənləşdirilməsi, yatağın qiymətləndirilməsi və sənaye üsulu ilə istifadəyə hazırlanması kimi işləri əhatə edir;

- **Qazma –** yer qabığında süxurları qazma aləti ilə dağıtmaqla quyu, lağım və ya şaxta lüləsinin qazılması prosesindən ibarətdir;

- **Neft və qaz yataqlarının işlənməsi və istismarı –** neft-qaz quyularının işə salınması, dayanmış neft quyularının bərpası və istismara qaytarılmasını təmin etməkdir;

- **Neft və qaz hasilatı –** müxtəlif metodların tətbiqi ilə quruda və dənizdə neftin və qazın çıxarılması; və




TƏSVİR 1: NEFT VƏ QAZIN İSTEHSALATI PROSESİ [6]

[6] Təsvir 1 Moore Stephens Azərbaycan şirkəti tərəfindən hazırlanmışdır.

**Neft və qazın yığılması və nəqli** – xam neft-qazın borularla, tankerlərlə və müxtəlif vasitələrlə hasilat yerindən emal müəssisələrinə və ya digər məntəqələrə çatdırılmasıdır.

**Azərbaycan dünyanın ən qədim neft hasil edən ölkələrindən biri hesab edilir. Azərbaycanın əsas neft və qaz ehtiyatları Abşeron yarımadasında və Xəzər dənizində yerləşir. Azərbaycanda neft və qaz çıxarılmasının tarixinə dair faktlar:** [7]

XIV əsr səyyahı Marko Polo Azərbaycan neftindən müxtəlif məqsədlər üçün istifadə edilməsi və yaxın ölkələrə daşınması barədə yazmışdır;
Dünyada ilk dəfə olaraq 1847–ci ildə Bibiheybətdə, sonra isə Balaxanıda neft quyuları qazılmışdır;
1901–ci ildə Azərbaycan 11,5 mln ton neft hasil edərək dünyada birinci yerə sahib olmuşdur;
1941–ci ildə Azərbaycanda 23,5 mln ton neft çıxarılmışdır ki, bu da bütün Sovet İttifaqında hasil olunan neftin 71,4%–ni təşkil etmişdir;
Dənizdə neftin çıxarılması ilk dəfə olaraq Azərbaycanda başlamışdır. 1949–cu ildə, sonradan "Neft Daşları" adlandırılan yatağının aşkar edilməsi Azərbaycanı və Xəzəri bütün dünyada tanıtmışdır;
1970–ci illərin sonu 1980–ci illərin əvvəllərində dənizdə 80 metrdən 350 metr dərinliyi arası "Azəri", "Çıraq", "Kəpəz" və "Günəşli" kimi yataqlar aşkar edilmişdir. Hazırda SOCAR hasil etdiyi neftin 60%–dən çoxunu "Günəşli" yatağının hesabına əldə edir;
1994–cü ilin 20 sentyabr tarixində "Əsrin müqaviləsi" imzalanmışdır;
Bugünə qədər Azərbaycan hökuməti xarici şirkətlərlə bir sıra HPBS imzalamışdır. Daha ətraflı məlumat HSŞ hesabatının 3.1. Mədən sənayesinin icmalı bölməsində olan neft və qaz sənayesi, qızıl və gümüş hasilatı bəndlərində əks etdirilmişdir.

## QİYMƏTLİ METALLAR [8]

Azərbaycan davamlı və uzunmüddətli qızıl və gümüş hasilatı sənayesinin yaradılması üçün zəngin potensiala malikdir. Qızıl və gümüş yataqları əsasən Azərbaycanın cənub-qərbində Gədəbəy, Qoşa, Qızılbulaq, Çovdar, Dağkəsəmən, Vejnəli, Söyüdlü, Naxçıvan MR-da Ordubad qrupu (Ağyurd Piyazbaşı, Şəkərdərə, Kələki) yataqlarında cəmləşir.

Respublikanın mis ehtiyatları əsasən Balakən–Zaqatala, Gədəbəy, Qarabağ və Ordubad filiz rayonlarında cəmləşmişdir. Balakən-Zaqatala filiz rayonunda misin əsas ehtiyatları mis-kolçedan, kolçedan-polime-

[7] Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, http://new.socar.az/socar/az/company/about-socar/oil-history-in-azerbaijan.
[8] Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Azərbaycanın faydalı qazıntıları", http://eco.gov.az/az/148-faydali-qazintilari



tal tipli, Kiçik Qafqaz və Naxçıvan qırışıqlıq zonasının filiz rayonlarında isə əsasən mis–porfir, molibden–mis–porfir və qızıl–mis–kolçedan tipli yataq və təzahürlərdə cəmləşmişdir.

## 2.2. HÜQUQİ VƏ FİSKAL REJİM

### 2.2.1. HÜQUQİ REJİM

Azərbaycanın mədən sənayesində fəaliyyətin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından ibarət olan Azərbaycan Respublikasının qanunvericilik sistemi və o cümlədən Konstitusiyaya əsasən bu sistemin ayrılmaz tərkib hissəsi hesab edilən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

Azərbaycan Respublikasının qanunvericiliyində bütün yeraltı faydalı qazıntıların dövlətə məxsus olduğu mineral resurslardan istifadə sahəsində dövlət siyasətinin iqtisadi və sosial əsasları, habelə onun həyata keçirilmə mexanizminin əsas istiqamətləri müəyyən edilir. Bu sahədə dövlət ilə hüquqi və fiziki şəxslər arasında münasibətlər, Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində yer təkinin öyrənilməsi (axtarış, kəşfiyyat), onun səmərəli istifadəsi, mühafizəsi və görülən işlərin təhlükəsizliyi ilə əlaqədar münasibətlər, energetika materiallarının və məhsullarının (enerji resursları) kəşfiyyatı, işlənməsi, hasilatı, istehsalı, emalı, saxlanılması, nəqli, paylanması və istifadəsi üzrə münasibətlər, qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi ilə bağlı münasibətlər və digər məsələlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

Azərbaycanda hasilat sənayesində fəaliyyəti tənzimləyən mövcud qanunvericilik bazasına daxil olan və aşağıdakılarla məhdudlaşmayan normativ hüquqi aktlar dövlət tərəfindən yaradılmış və ictimaiyyət üçün açıq olan rəsmi internet səhifələrində dərc edilmişdir. [9]

[9] Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, "Normativ hüquqi aktların vahid internet elektron bazası", http://e-qanun.az, http://www.president.az/, http://www.meclis.gov.az/ və http://www.cabmin.gov.az/

◆ AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI;

◆ BEYNƏLXALQ MÜQAVİLƏLƏR

**"Neftlə çirkləndirmədən vurulan zərərə görə mülki məsuliyyət haqqında" 1969-cu il tarixli Beynəlxalq Konvensiya:**
Azərbaycan Respublikası bu Konvensiyaya 691-IIQ nömrəli Qanunla 18 iyun 2004-cü il tarixində qoşulmuşdur. Konvensiya müqavilə bağlanmış dövlətin ərazisində, ərazi suları daxil olmaqla, istisnasız olaraq çirklənmədən dəymiş ziyana və həmin ziyanın azaldılmasına və ya aradan qaldırılmasına yönəlmişdir.

**"Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" 1990-cı il tarixli Beynəlxalq Konvensiya:**
Azərbaycan Respublikası bu Konvensiyaya 690-IIQ nömrəli Qanunla 18 iyun 2004-cü il tarixində qoşulmuşdur. Konvensiyaya əsasən tərəflər neftlə çirklənməyə səbəb olan hadisələrə hazırlığı təmin etmək və bununla mübarizə üçün fərdi və yaxud birlikdə tədbir görmək məsuliyyətini öz üzərlərinə götürürlər.

**"Boru kəmərləri magistralları ilə neft və neft məhsullarının tranzit sahəsində razılaşdırılmış siyasətin aparılması haqqında" Saziş:**
1996-cı il aprelin 12-də Moskva şəhərində imzalanmış saziş 27 dekabr 1996-cı il tarixli 228-IQ nömrəli Qanunla təsdiq edilmişdir.

**"Dövlətlərarası neft və qaz nəqli sistemlərinin yaradılması üçün təşkilati prinsiplərə dair" Çərçivə Sazişi:**
1999-cu il iyulun 22-də Kiyev şəhərində Azərbaycan Respublikası tərəfindən qeyd-şərtlə imzalanmış "Dövlətlərarası neft və qaz nəqli sistemlərinin yaradılması üçün təşkilati prinsiplərə dair" Çərçivə Sazişi 24 oktyabr 2000-ci il tarixli 938-IQ nömrəli Qanunla təsdiq edilmişdir. Sazişə əsasən tərəflər mövcud neft və qaz nəqli sistem(lər)inin bərpası, müvafiq hallarda yeni dövlətlərarası neft və qaz nəqli sistem(lər)inin tikintisi və bu nəqletmə sistem(lər)inin əməliyyat və texniki xidməti vasitəsilə bir və ya daha çox dövlətlərarası neft və qaz nəqli sisteminin qarşılıqlı məqbul şərt və müddəaları əsasında yaradılması məqsədilə bu Saziş çərçivəsində birgə fəaliyyət həyata keçirirlər.

**"Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" 2003-cü il tarixli Çərçivə Konvensiyası:**
Bu Konvensiya 04 aprel 2006-cı il tarixli 89-IIIQ nömrəli Qanunla təsdiq edilmişdir. Konvensiyanın məqsədi Xəzər dənizinin dəniz ətraf mühitinin çirklənmədən qorunması, o cümlədən Xəzər dənizinin bioloji ehtiyatlarının qorunması, mühafizəsi, bərpası, davamlı və səmərəli istifadə edilməsindən ibarətdir.

**"Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyası"-nın Neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında" 2011-ci il tarixli Protokolu:**
Bu Protokol 21 dekabr 2012-ci il tarixli 508-IVQ nömrəli Qanunla təsdiq edilmişdir. Bu Protokolun məqsədi Xəzər dənizini dəniz dibindəki fəaliyyətin və gəmilərin fəaliyyətinin səbəb olduğu neftlə çirklənmələrdən və torpaq əsaslı mənbələrdən törəyən dəniz neft çirklənmələrindən qorumaq məqsədi ilə hazırlıq, cavab tədbirləri və əməkdaşlıq üçün regional tədbirlər görməkdir.

**"Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyası"-nın Xəzər dənizinin quruda yerləşən mənbələrdən və quruda həyata keçirilən fəaliyyət nəticəsində çirklənmədən mühafizəsi haqqında" 2012-ci il tarixli Protokolu:**
Bu Protokol 25 fevral 2014-cü il tarixli 911-IVQ nömrəli Qanunla təsdiq edilmişdir. Protokola əsasən, razılığa gələn tərəflər quruda yerləşən mənbələrdən və quruda həyata keçirilən fəaliyyət nəticəsində Xəzər dənizinin ətraf mühitini və sahilyanı ərazilərini çirklənmədən qorumaq, belə çirklənməyə nəzarət etmək, onu azaltmaq və mümkün olan maksimal həddə aradan qaldırmaq üçün Konvensiyanın müddəalarına əsasən fərdi və ya birgə bütün zəruri tədbirləri həyata keçirirlər. Tərəflər məlumat mübadiləsi aparacaq, ətraf mühitə təsirin qiymətləndirilməsi və monitorinqi istiqamətində birgə tədbirlər görəcəklər.

## ◆ MƏCƏLLƏLƏR

**28 dekabr 1999–cu il tarixli 779–IQ nömrəli Qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsi:**
Mülki Məcəllənin məqsədi üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığını onun iştirakçılarının bərabərliyi əsasında təmin etməkdir.

Eyni zamanda, Məcəllədə təbii ehtiyatlardan istifadə, ətraf mühitin mühafizəsi və əlaqədar hüquqlar ilə bağlı münasibətlər mülki qanunvericilik və başqa hüquqi aktlar ilə tənzimlənir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr Mülki Məcəllə ilə tənzimlənən mülki hüquq münasibətlərinə (beynəlxalq müqavilədən onun tətbiqi üçün dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi tələbinin irəli gəldiyi hallar istisna edilməklə) birbaşa tətbiq edilir.

**11 iyul 2000–ci il tarixli 905–IQ nömrəli Qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Vergi Məcəlləsi:**
Vergi Məcəlləsi Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını,

vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edir.

Qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü və əsas boru kəməri haqqında, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda bu Məcəllədə və vergilər haqqında digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin sazişlərin və ya qanunların müddəaları tətbiq edilir.

**26 dekabr 1997–ci il tarixli 418–IQ nömrəli Qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Su Məcəlləsi:**

Su Məcəlləsi Azərbaycan Respublikasında su obyektlərinin istifadəsi və mühafizəsi ilə bağlı hüquq münasibətlərini tənzimləyir.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində su obyektlərinin istifadəsi və mühafizəsi ilə əlaqədar müəyyən edilmiş qaydalar bu Məcəllədə nəzərdə tutulmuş qaydalara uyğun gəlmədikdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

**01 fevral 1999–cu il tarixli 618–IQ nömrəli Qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Əmək Məcəlləsi:**

Əmək Məcəlləsi müvafiq hüquq normaları ilə əmək münasibətlərində işçilərin və işəgötürənlərin əmək, sosial, iqtisadi hüquqları və bu hüquqlarla bağlı müvafiq təminatların minimum səviyyəsi və Azərbaycan Respublikası Konstitusiyasının ikinci bölməsində nəzərdə tutulan əmək, istirahət, təhlükəsiz və sağlam şəraitdə işləmək hüququnun, habelə digər əsas insan hüquqlarının və azadlıqlarının təmin edilməsi prinsipləri və qaydalarını təsbit edir.

**25 iyun 1999–cu il tarixli 695–IQ nömrəli Qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsi:**

Torpaq Məcəlləsi Azərbaycan Respublikasında torpaq üzərində mülkiyyətin müxtəlif növlərinin tətbiqi əsasında yaranan torpaq münasibətlərinin tənzimlənməsinə, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin torpaqla bağlı vəzifələrinin yerinə yetirilməsinə və torpaq üzərində hüquqlarının müdafiəsinə, torpaqlardan səmərəli istifadə və onların mühafizəsi üçün şərait yaradılmasına, torpağın münbitliyinin bərpasına və artırılmasına, texnogen çirklənmə və dağılmadan korlanmış torpaqların rekultivasiyasına, təbii mühitin qorunub saxlanmasına və yaxşılaşdırılmasına yönəlmişdir.

## ◆ QANUNLAR

**30 may 1996–cı il tarixli 94–IQ nömrəli "Enerji resurslarından istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu:**
Bu Qanun enerji resurslarından istifadə sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və sosial əsaslarını, habelə onun həyata keçirilmə mexanizminin əsas istiqamətlərini müəyyən edir, bu sahədə dövlət ilə hüquqi və fiziki şəxslər arasında münasibətləri tənzimləyir.

**02 fevral 2009–cu il tarixli 766–IIIQ nömrəli "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" Azərbaycan Respublikasının Qanunu:**
Bu Qanun Azərbaycan Respublikasının hüdudlarından, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsindən kənarda həyata keçirilən neft-qaz əməliyyatları ilə əlaqədar Azərbaycan Respublikasında ixrac məqsədli neft-qaz fəaliyyəti üçün xüsusi iqtisadi rejimin yaradılmasının və tətbiqinin əsaslarını müəyyən edir, bu sahədə dövlət, hüquqi və fiziki şəxslər arasında yaranan münasibətləri tənzimləyir.

**30 iyun 1998–ci il tarixli 513–IQ nömrəli "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanunu:**
Bu Qanun qaz və maye halında enerji daşıyıcısı kimi işlədilən təbii qazın və digər qaz növlərinin istehsalı, emalı, nəqli, saxlanması, paylanması, satılması və istifadəsi üzrə fəaliyyətləri tənzimləyir.

**13 fevral 1998–ci il tarixli 439-IQ nömrəli "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanunu:**
Bu Qanun Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində yer təkinin öyrənilməsi (axtarış, kəşfiyyat), onun səmərəli istifadəsi, mühafizəsi və görülən işlərin təhlükəsizliyi ilə əlaqədar münasibətləri tənzimləyir, yerin təkindən istifadədə dövlətin, yer təki istifadəçilərinin və vətəndaşların mənafelərinin qorunmasını təmin edir.

**10 iyun 2005–ci il tarixli 924–IIQ nömrəli "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanunu:**
Bu Qanun qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi ilə bağlı münasibətləri tənzimləyir.

**24 noyabr 1998–ci il tarixli Energetika haqqında Azərbaycan Respublikasının Qanunu:**
Bu Qanun energetikanın neft, qaz və elektroenergetika sahələrinin dövlət tənzimlənməsinin ən ümumi hüquqi əsaslarını özündə birləşdirir. Ayrı-ayrı sahələr üzrə qəbul edilmiş digər qanunlarda xüsusi qaydalar nəzərdə tutula bilər.

**2 noyabr 1999–ci il tarixli Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu:**
Bu qanun təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının hüquqi, iqtisadi və sosial əsaslarını müəyyənləşdirir, həmin obyektləri istismar edən hüquqi və fiziki şəxslərin bu obyektlərdə baş verə biləcək qəzaların qarşısını almağa və baş vermiş qəzaların nəticələrini aradan qaldırmağa yönələn fəaliyyətini tənzimləyir.

## ◆ FƏRMANLAR

**"İxrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2002-ci il tarixli 685 nömrəli Fərmanı:**
Fərmanla xam neftin ixracı ilə bağlı obyektlərlə yanaşı Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin və qaz ixrac kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə ixrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsi üzrə Komissiya yaradılmışdır.

**Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2004-cü il tarixli 128 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya":**
Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya 2005-2025-ci illəri əhatə edir və bu müddət ərzində həmin gəlirlərdən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirir. Bu strategiya aşağıda göstərilən mənbələrə uyğun olaraq neftin və qazın satışından Azərbaycan Respublikasının Dövlət Neft Fondunda və dövlət büdcəsində toplanan gəlirlərin idarə edilməsini nəzərdə tutur.

**"Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 aprel 2017-ci il tarixli Fərmanı:**
Fərmana əsasən, beynəlxalq şəffaflıq və hesabatlılıq prinsiplərinə Azərbaycanın sadiqliyi vurğulanaraq, təbii ehtiyatlardan əldə olunan maddi sərvətlərin ölkə vətəndaşların rifahı üçün idarə edilməsinin davam etdirilməsi üçün Komissiya yaradılmışdır.

## ◆ AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 02 noyabr 2004-cü il tarixli 167 nömrəli qərarı ilə təsdiq edilmiş "İstismar olunan ixrac neft boru kəmərlərinin "Mühafizə Zonası"nın müəyyənləşdirilməsi Qaydaları":**
Bu Qaydalar Azərbaycan Respublikasının ərazisində Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz boru kəmərləri istisna olmaqla, istismar olunan

neft ixrac boru kəmərlərinin qorunması, onların təhlükəsiz və etibarlı istismarı üçün normal şəraitin yaradılması və baş verə biləcək hadisələrin qarşısının alınması məqsədilə hazırlanmışdır.

**E-QANUN PORTALI** [10]

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının bütün hüquqi və normativ aktlarının əldə edilməsini təmin etmək məqsədilə hüquqi sistemə dair internet portalını yaratmışdır. Mövcud portal hasilat sənayesinə dair bütün qanunvericilik məlumatlarını özündə əks etdirir. Portala daxil edilmiş bütün hüquqi və normativ aktlar mütəmadi olaraq yenilənir. E-qanun portalı lazımi qanunvericilik məlumatlarının əldə edilməsi məqsədilə ictimaiyyət üçün açıqdır.

## 2.2.2. FİSKAL REJİM

Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını Vergi Məcəlləsi müəyyən edir.

Hasilatın pay bölgüsü sazişləri (HPBS), habelə əsas boru kəməri sazişləri Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir. Bu sazişlər yataqlarda fəaliyyət göstərən əməliyyat şirkətlərinin, podratçı tərəflərin və bunların subpodratçılarının fəaliyyətlərini, mühasibatlıq və vergi rejimini tənzimləyir.

Vergi Məcəlləsi ilə hasilatın pay bölgüsü və əsas boru kəməri haqqında, digər bu qəbildən olan saziş və qanunlarla, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft–qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlar arasında vergilərə dair fərqli müddəalar müəyyən edildikdə, həmin saziş və qanunların müddəaları üstün götürülür.

İxrac olunan neftin və təbii qazın nəql edilməsi ilə bağlı fəaliyyətləri, münasibətləri və vergi rejimi qanun qüvvəsinə malik Əsas İxrac Boru Kəməri (Bakı–Tbilisi–Ceyhan), Qərb İxrac Boru Kəməri (Bakı-Supsa) və Cənubi Qafqaz Boru Kəməri (Bakı–Tbilisi–Ərzurum) sazişləri ilə tənzimlənir. Bu sazişlərlə fəaliyyət göstərən əməliyyat şirkətlərinin, ƏİBK iştirakçılarının və onların podratçılarının fəaliyyətləri, mühasibatlıq və vergi rejimi tənzimlənir.

[10] Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, "Normativ hüquqi aktların vahid internet elektron bazası", http://www.e-qanun.az/

**Azərbaycan Respublikası Vergi Məcəlləsi Azərbaycanda mövcud olan ümumi vergi sistemini təşkil edərək aşağıdakı vergi növlərini tənzimləyir:**

- Mənfəət vergisi;
- Əlavə dəyər vergisi (ƏDV);
- Əmlak vergisi;
- Gəlir vergisi;
- Mədən vergisi;
- Torpaq vergisi;
- Aksiz vergisi;
- Yol vergisi;
- Sadələşdirilmiş vergi.

Həmin vergi növləri üzrə faiz dərəcələrini, onların hesablanmasını, ödəniş müddətlərini və digər məlumatları Azərbaycan Respublikası Vergi Məcəlləsindən əldə edilməsi mümkündür. [11]

**Azərbaycan Respublikasında qanunla təsdiq olunmuş formada HPBS üzrə fəaliyyət göstərən müəssisə və şirkətlər üçün xüsusi vergi rejimi tətbiq edilir. SOCAR ilə bir sıra transmilli şirkətlər arasında HPBS–lər, habelə onların əsasında tərtib olunan və vergitutmanın müəyyən aspektlərini dəqiqləşdirən protokolları aşağıdakılar əhatə edir:**

- Mənfəət vergisi haqqında protokol;
- Əlavə dəyər vergisi haqqında protokol;
- Xarici subpodratçıların vergiyə cəlb edilməsi haqqında protokol;
- Əməkdaşlar və fiziki şəxslərin vergiyə cəlb edilməsi haqqında protokol; və
- İdxal və ixrac vergiləri haqqında protokol.

Əsas İxrac Boru Kəməri Bakı–Tbilisi–Ceyhan (BTC), Qərb İxrac Boru Kəməri (Bakı-Supsa), və Cənubi Qafqaz Boru Kəməri (CQBK) sazişləri əsasında işləyən müəssisələr üçün xüsusi vergi rejimləri tətbiq edilir.

### 2.2.3. DÖVLƏT BÜDCƏSİNİN STRUKTURU

**Dövlət büdcəsi -** müvafiq hakimiyyət orqanları vasitəsi ilə dövlətə məxsus funksiyaların yerinə yetirilməsini təmin etmək üçün lazım olan pul vəsaitinin qanunla müəyyən olunmuş qaydada yığılması və xərclənməsi formasıdır. Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitlərinin toplanması və səmərəli istifadəsinin təmin edilməsi, iqtisadi, sosial və digər strateji məsələlərin həll edilməsindən ibarətdir. [12]

[11] Azərbaycan Respublikası Vergilər Nazirliyi, "Vergi Məcəlləsi", http://www.taxes.gov.az/modul.php?name=qanun&cat=3
[12] "Dövlət büdcəsi haqqında Azərbaycan Respublikasnın Qanunu", № 358-IQ, http://e-qanun.az/framework/1126

Dövlət büdcəsi layihəsinin tərtibi prosesinə növbəti büdcə ilinə 11 ay qalmış başlanılır və büdcə layihəsinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edildiyi günədək olan dövrü əhatə edir.




TƏSVİR 2: AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BÜDCƏSİNİN STRUKTURU [13]

**İcmal büdcə** - dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin (büdcədənkənar əməliyyatlar da daxil olmaqla) və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirən maliyyə sənədidir. [14]

[13] Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, "Vətəndaşın büdcə bələdçisi" kitabı, http://maliyye.gov.az/sites/default/files/kitab.compressed.protected.pdf

[14] "Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu", № 452-IIQD, http://www.e-qanun.az/framework/2052




TƏSVİR 3: AZƏRBAYCAN RESPUBLİKASININ İCMAL BÜDCƏSİNİN STRUKTURU [15]

Naxçıvan Muxtar Respublikasının büdcəsi Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və digər qanunvericilik aktlarına əsasən yaradılmışdır.

Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini həyata keçirmək, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş bələdiyyə

[15] Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, http://www.maliyye.gov.az/sites/default/files/CB_2016%2004112015%20arial.pdf



səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir. Yerli büdcə bələdiyyələrinin maliyyə vəsaitinin formalaşması 7 dekabr 1999-cu il tarixli № 772-IQ saylı "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" qanunla tənzimlənir. [16]

**Yerli büdcənin gəlirləri aşağıda qeyd olunan vergilər vasitəsi ilə formalaşır:**

- fiziki şəxslərdən torpaq vergisi;
- fiziki şəxslərdən əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi;
- digər vergilər.

Yerli büdcə gəlirlərini formalaşdıran digər mənbələr haqqında məlumatı № 772-IQ saylı "Bələdiyyələrin maliyyə əsasları haqqında" qanundan əldə etmək mümkündür.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında neft, qaz və digər mineral ehtiyatların hasilatından əldə edilən gəlir bu yataqların yerləşdiyi ərazinin yerli idarəetmə qurumlarının büdcələrinə birbaşa daxil olmur.

[16] "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasinin Qanunu", http://e-qanun.az/framework/5231




TƏSVİR 4: HASİLAT SƏNAYESİ VƏ DÖVLƏT BÜDCƏSİ ƏLAQƏLƏRİ [17]

* Yerli və xarici şirkətlər dedikdə HPBS podratçısı olan və bütün digər şirkətlər nəzərdə tutulur.

[17] Təsvir 4 Moore Stephens Azərbaycan şirkəti tərəfindən hazırlanmışdlr.

## 2.2.4. MÜVAFİQ DÖVLƏT ORQANLARININ ROLU VƏ VƏZİFƏLƏRİ

**Azərbaycan Respublikasının dövlət orqanlarının rolu və vəzifələri aşağıda təsvir edilmişdir:**

### AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

Azərbaycan Respublikasında bütün icra hakimiyyəti səlahiyyətləri Azərbaycan Respublikasının Prezidentinə məxsusdur. İcra hakimiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarından ibarət olub, əsas funksiyası qanunların icrasının həyata keçirilməsidir. Bu sistem geniş hüquqlara malikdir və dövlət qulluqçularının mühüm çoxluğunu əhatə edir.

Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsi ilə tənzimlənir. [18]

### AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ

Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyətini həyata keçirən orqandır. Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri, qanunları, o cümlədən HPBS–ləri Azərbaycan Respublikasının Milli Məclisi təsdiq (ratifikasiya) edir.

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının Üçüncü bölməsinin V fəslində təsvir edilmiş Qanunvericilik hakimiyyəti maddələri vasitəsi ilə tənzimlənir. [19]

### AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrası məqsədilə yaradılan, birbaşa Prezidentə tabe olaraq, onun qarşısında cavabdeh olan yuxarı icra orqanıdır. Nazirlər Kabineti səlahiyyətlərinə dövlət büdcəsi layihəsinin hazırlanması və prezidentə təqdim edilməsinin, onun icrasının, maliyyə-kredit və pul siyasətlərinin, dövlət və sosial təminat proqramlarının həyata keçirilməsinin təmin edilməsi daxildir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyasının 119-cu maddəsi ilə tənzimlənir. [20]

### AZƏRBAYCAN RESPUBLİKASI EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Respublika-

[18] Azərbaycan Respublikasının Konstitusiyası, "Maddə 109", http://www.e-qanun.az/framework/897
[19] Azərbaycan Respublikasının Konstitusiyası, "Maddə 81-98", http://www.e-qanun.az/framework/897
[20] Azərbaycan Respublikasının Konstitusiyası, "Maddə 119", http://www.e-qanun.az/framework/897

sı ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 senyabr tarixli 583 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir. [21]

Qurumun əsas vəzifələrindən biri təbii sərvətlərin öyrənilməsi, onlardan istifadə edilməsi, bərpası və mühafizəsi, bu sahədə ekoloji təhlükəsizliyin təmin edilməsi və bioloji müxtəlifliyin qorunub saxlanılması üzrə dövlət siyasətini həyata keçirməkdən ibarətdir. Daha ətraflı məlumat hesabatın 3.1 “Mədən sənayesinin icmalı” adlı bəndində öz əksini tapmışdır.

## AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ

Azərbaycan Respublikası Energetika Nazirliyi yanacaq-energetika sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Bu sahə Energetika haqqında Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş fəaliyyətdən ibarətdir.

Energetika Nazirliyi öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir. [22]

Azərbaycan Respublikası Energetika Nazirliyinin Əsasnaməsinə görə karbohidrogen ehtiyatları hasilatının pay bölgüsü və ya digər şərtlərə uyğun işlənməsi barədə sazişlərin layihələrini hazırlayır, bu sazişlər üzrə danışıqlar aparır, onları müəyyən olunmuş qaydada imzalayır, bağlanmış sazişlərin həyata keçirilməsinə nəzarət edir.

## AZƏRBAYCAN RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ölkənin maliyyə siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Maliyyə Nazirliyi öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir. [23]

[21] “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər haqqında Əsasnamə”, http://eco.gov.az/az/6-haqqimizda
[22] “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”, http://www.minenergy.gov.az/db/EN_Esasname.pdf
[23] “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə”, http://www.maliyye.gov.az/node/8

## AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

Vergilər Nazirliyi Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən, bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Hasilatın Pay Bölgüsü Haqqında Sazişlərə əsasən fəaliyyət göstərən yerli subpodratçı təşkilatların vergi öhdəlikləri Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə tənzimlənir.

Vergilər Nazirliyi öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir. [24]

## AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYAT NAZİRLİYİ

Azərbaycan Respublikasının iqtisadi siyasətini, iqtisadi və sosial proqnozlarını işləyib hazırlayan, iqtisadiyyatın ayrı-ayrı sahələrinin, o cümlədən sənayenin inkişafı, ölkə iqtisadiyyatında struktur və innovasiya, investisiya fəaliyyəti, investisiyaların cəlb edilməsi, qoyulması və təşviqi, sahibkarlığın inkişafı, sahibkarlığa dövlət dəstəyi, rəqabətin qorunması, inkişafı və təşviqi, haqsız rəqabətin aradan qaldırılması, istehlakçıların hüquqlarının qorunması, dövlət vəsaitləri hesabına malların (işlərin və xidmətlərin) satın alınması, daxili ticarət, xarici iqtisadi və ticarət əlaqələri, regionların sosial-iqtisadi inkişafı və mənzil-kommunal təsərrüfatı sahələrində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ YANINDA DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu məcburi dövlət sosial sığortası, əhalinin əmək pensiyaları, sosial müavinətlər, təqaüdlər, kompensasiyalar və sosial yardımlarla təmin edilməsi, ahılların, əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasını, çətin həyat şəraitində olan şəxslərə sosial xidmət sahəsində tədbirləri həyata keçirən icra hakimiyyəti orqanıdır.

Dövlət Sosial Müdafiə Fondu öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir. [25]

[24] "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə", http://www.taxes.gov.az/modul.php?name=qanun&news=369
[25] Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu haqqında Əsasnamə http://president.az/articles/20454

### AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi statistika sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən və ölkədə sosial, iqtisadi, demoqrafik və ekoloji vəziyyət ilə bağlı rəsmi statistik məlumatları vahid metodologiya əsasında formalaşdıran mərkəzi icra hakimiyyəti orqanıdır. Bu sahə "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş fəaliyyətdən ibarətdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi hasilat sənayesi şirkətlərindən müəyyən edilmiş qaydada, həcmdə və müddətlərdə dolğun və etibarlı statistik məlumatları alır və onları ümumiləşdirərək icmal-statistik məlumatları ictimaiyyətə açıqlayır.

### AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ (SOCAR)

SOCAR Azərbaycan ərazisindəki neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, neftin, qazın və qaz kondensatının hasilatı, emalı və nəqli, neft və neft-kimya məhsullarının, qazın daxili və xarici bazarlarda satışı, habelə ölkə ərazisində sənayenin və əhalinin təbii qazla təchizatı ilə məşğul olur. Daha ətraflı məlumat hesabatın 2.6 "Hasilat sənayesində dövlətin iştirakı" adlı bəndində öz əksini tapmışdır.

SOCAR öz fəaliyyətini 18 sentyabr 2004-cü il tarixli 127 nömrəli Fərmana əsasən dəyişikliklərlə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanı ilə təsdiq edilmiş Nizamnaməsinə uyğun olaraq həyata keçirir. [26]

### AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT FONDU

Azərbaycan Respublikası Dövlət Neft Fondu ("ARDNF") Azərbaycan Respublikası vətəndaşlarının bu günkü və gələcək nəsillərinin mənafeyi naminə neft və qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişləri həyata keçirən və Fondun öz fəaliyyətindən əldə olunan valyuta və digər vəsaitin yığılmasını və səmərəli idarə olunmasını təmin edən dövlət təsisatıdır. ARDNF, büdcədənkənar fond kimi təsis edilmiş, Hökumət və ya Azərbaycan Respublikası Mərkəzi Bankından ayrıca idarəetmə strukturuna malik hüquqi şəxs qismində fəaliyyət göstərir. Daha ətraflı məlumat hesabatın 2.7.6 "Dövlət müəssisələrinə aid olan əməliyyatlar" adlı bəndində öz əksini tapmışdır.

[26] "SOCAR-ın Nizamnaməsi", http://socar.az/socar/az/company/regulations/socar-charter

ARDNF öz fəaliyyətini Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsinə uyğun olaraq həyata keçirir.[27]

**Aşağıdakı təsvirdə Azərbaycan Respublikasının dövlət qurumları ilə hasilat sənayesi şirkətləri arasındakı münasibətlərin strukturu göstərilmişdir.**




TƏSVİR 5A: HASİLAT SƏNAYESİ ŞİRKƏTLƏRİ İLƏ DÖVLƏT QURUMLARI ARASINDA ƏLAQƏ

[27] "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə", http://www.oilfund.az/uploads/esas.pdf

**Aşağıdakı cədvəldə dövlət qurumlarının rolu göstərilmişdir.**

| DÖVLƏT QURUMLARININ ROLU | | | | |
|---|---|---|---|---|
| İcazə və lisenziyaların verilməsi | Təbii sərvətlərin öyrənilməsi, onlardan istifadə edilməsi, bərpası və mühafizəsinin təmin edilməsi | Statistik məlumatları toplanması və ictimaiyyətə açıqlanması | Gəlirlərin toplanması | Kəşfiyyat, hasilat, ixrac proseslərinin tənzimlənməsi |
| AR Prezidenti<br>Milli Məclis<br>Nazirlər Kabineti<br>Energetika Nazirliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Dövlət Statistika Komitəsi | Maliyyə Nazirliyi<br>Vergilər Nazirliyi<br>ARDNF<br>DSMF | Nazirlər Kabineti<br>SOCAR<br>Energetika Nazirliyi |

TƏSVİR 5B: DÖVLƏT QURUMLARININ ROLU

### 2.2.5. HASİLAT SƏNAYESİ ÜZRƏ ƏSAS YENİLİKLƏR

**HSŞ hesabatının əhatə etdiyi ildə Azərbaycanın hasilat sənayesinə dair bir sıra yeniliklər tətbiq edilmişdir:**

**(24 may 2016-cı ildə SOCAR ilə BP arasında Xəzər dənizinin Azərbaycan sektorunda, Şimali Abşeron hövzəsində D230 blokunun geoloji-kəşfiyyatına dair Anlaşma Memorandumu imzalanmışdır.** [28]**)**

Şirkətlərin bu münasibətlə açıqladığı birgə press-relizdə deyilir: "Azərbaycanın dəniz ərazilərinin bütünlüklə tədqiq olunmasının təmin edilməsi üzrə hökumət planının bir hissəsi kimi bu memorandum BP-yə müstəsna hüquq verir ki, D230 blokunun geoloji-kəşfiyyatı və işlənməsi üzrə saziş bağlamaq üçün SOCAR-la danışıqlar aparsın."

**23 dekabr 2016-cı ildə SOCAR və BP-nin əməliyyatçısı olduğu ABƏŞ Azəri-Çıraq-Günəşli yatağının 2050-ci ilədək gələcək işlənməsinə dair razılaşmanın prinsipləri imzalanmışdır.** [29]

23 dekabr 2016-cı ildə SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və BP-nin əməliyyatçısı olduğu ABƏŞ (Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri-Çıraq-Günəşli (AÇG) yatağının gələcək işlənməsi üçün niyyət məktubu imzaladılar.

- Razılaşma bundan sonra da AÇG-yə iri-həcmli sərmayələrə yol açacaqdır;
- Hazırda AÇG-dən gündəlik hasilat təxminən 620 000 barel neft ekvivalenti səviyyəsindədir;
- Gələcək illərdə çoxsaylı iş yerləri yaradılacaqdır;
- AÇG tərəfdaşlığı üzrə işləri BP idarə edəcəkdir.

Bu razılaşma AÇG yatağının 2050-ci ilədək işlənməsini əhatə edəcəkdir və əsrin ortalarınadək əhəmiyyətli həcmdə ehtiyatların işlənməsi potensialını əlavə edəcəkdir. Hazırda AÇG-dən hasilat gündəlik təxminən 620000 barel neft ekvivalenti səviyyəsindədir.

ABƏŞ səhmdarları "BP", "Chevron", "İNPEX", "Statoil", "ExxonMobil", "TPAO", "İTOCHU" və "ONGC Videsh" şirkətləridir.

[28] BP rəsmi internet səhifəsi, Xəbərlər,Press Relizlər, http://www.bp.com/az_az/caspian/press/pressreleases/BP-SOCAR-sign-MOU.html
[29] BP rəsmi internet səhifəsi, Xəbərlər,Press Relizlər, http://www.bp.com/az_az/caspian/press/pressreleases/SOCAR-BP-sign-principles-of-agreement.html

### 2.2.6. HASİLAT SƏNAYESİ ÜZRƏ MÖVCUD İSLAHATLAR

**Azərbaycan Respublikasının Prezidenti "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərman imzalamışdır.** [30]
Təsdiq edilən strateji yol xəritələrindən biri də "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi" olmuşdur.

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycan dünya iqtisadiyyatında mövqeyini gücləndirəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır.

Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir. Layihələr açıq müzakirəyə verilmiş və yekun sənəd tərtib edilərkən maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyəti təsisatlarının və vətəndaşların çoxsaylı rəy və təklifləri nəzərə alınmışdır.

## 2.3. HASİLAT SƏNAYESİNDƏ LİSENZİYALARIN VERİLMƏSİ

Azərbaycan Respublikasında hasilatın pay bölgüsü sazişlərinin ("HPBS") əhatə etdiyi məsələləri tənzimləyən Azərbaycan Respublikasının karbohidrogen ehtiyatları haqqında qanun mövcud deyil və potensial investorun seçim meyarları qanunvericilikdə nəzərdə tutulmamışdır.

**Mövcud təcrübəyə əsasən karbohidrogen ehtiyatlarının işlənməsi layihələrində potensial investorun seçimi xüsusi olaraq səlahiyyətlər verilmiş dövlət orqanı və belə investor arasında birbaşa danışıqlar vasitəsilə keçirilir. Buna baxmayaraq, beynəlxalq təcrübədə geniş istifadə edilən digər formalar, o cümlədən tenderlərin keçirilməsi də istina edilmir. Azərbaycanda xarici partnyorlarla karbohidrogen ehtiyatlarının işlənməsi layihələri üçün HPBS forması seçilmişdir. HPBS praktikasının təməli 20 sentyabr 1994-cü il tarixində Azəri-Çıraq-Günəşli HPBS-nin imzalanması ilə qoyulmuşdur və hə-**

[30] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi http://www.president.az/articles/21953

**min tarixdən 31 dekabr 2016-cı il tarixinədək 35 HPBS imzalanmışdır. Mövcud HPBS təcrübəsi aşağıdakı prosedurlardan ibarətdir:**

- Karbohidrogenlərin işlənməsi üzrə sazişlərin hazırlanması haqqında danışıqlar birbaşa hökuməti təmsil edən və hökumətin adından karbohidrogen ehtiyatları üzrə sərəncam hüququna malik olan SOCAR və maraqlı investorlar arasında kommersiya maraqları və mövcud qanunvericilik əsas götürülməklə aparılır;
- Bu danışıqlardan sonra ilkin razılıq olaraq Niyyət Memorandumu (“NM”) imzalanır;
- SOCAR NM-i təklifi münasib olan və məqbul sayılan tərəflə (xarici neft şirkəti ilə) birlikdə icra edir;
- NM imzalandıqdan sonra SOCAR HPBS ilə bağlı müvafiq şərtləri və perspektivləri ilə əlaqədar tərəflərlə danışıqlara başlayır;
- Ölkə başçısına HPBS üzrə danışıqlar aparmaq və onu imzalamaq haqqında SOCAR–a səlahiyyətlərin verilməsi haqqında müraciət edilir və Prezidentin müvafiq sərəncamı əsasında NM qüvvəyə minir;
- NM əsasında sonrakı əməkdaşlıq çərçivəsində tərəflərin hüquq və vəzifələri razılaşdırılır;
- HPBS–nin əsas prinsipləri və kommersiya şərtləri haqqında saziş imzalanır;
- Əsas prinsipləri və kommersiya şərtləri haqqında saziş əsasında HPBS layihəsi razılaşdırılır;
- İmzalanmış HPBS ratifikasiya üçün Milli Məclisə təqdim edilir.

**Qüvvəyəminmə:**

Ratifikasiyadan sonra Azərbaycan Respublikasının Prezidenti HPBS-nin qüvvəyə minməsi ilə əlaqədar fərman imzalayır.

Hökuməti təmsil edən və hökumət adından karbohidrogen ehtiyatları üzrə sərəncam hüququna malik olan SOCAR-ın podratçı şirkətlərinə göndərilən rəsmi məktubuna əsasən HPBS-nin qüvvəyəminmə tarixi təyin olunur. Həmin məktub prezidentin fərmanına əsasən hazırlanır.

Qeyd olunan proses quruda fəaliyyət göstərən HPBS-lər üçün də mövcuddur. SOCAR-ın və podratçı tərəflərin nümayəndələrindən ibarət Birgə Komissiya yaradılır. Həmin komissiyanın rəhbərliyi altında mədən üzrə bütün aktivlərin SOCAR-ın balansından yaradılacaq əməliyyat şirkətinin balansına təhvil-təslim prosesi 1 aydan 1 ilə kimi davam edir. Yaradılmış Komissiya HPBS-nin qüvvəyəminmə tarixini təyin edir.

## 2.4. HASİLAT SƏNAYESİNDƏ LİSENZİYALARIN REYESTRİ

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” Fərmanı ilə “Lisenziyalaşdırma Qaydası” və “Lisenziya tələb olunan fəaliyyət növlərinin

(dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri" təsdiq edilmişdir."Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 2016-cı il 16 sentyabr tarixli 347 nömrəli qərarı ilə "Lisenziyaların və icazələrin vahid reyestrinin aparılması Qaydası"nı təsdiq etmişdir. Həmin Qaydaların 1.2-ci bəndinə əsasən lisenziyaların və icazələrin vahid reyestri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən aparılır və lisenziyaların və icazələrin reyestri açıq xarakter daşıyır. Belə ki, "Lisenziyaların və icazələrin vahid reyestrinin aparılması Qaydası"nın 2.2-ci bəndinə əsasən reyestrdə olan məlumatlar informasiya alınması məqsədi ilə dövlət hakimiyyəti orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslər üçün açıqdır.

Eyni zamanda, ölkə Prezidentinin 28 mart 2000-ci il tarixli 310 nömrəli fərmanına əsasən qiymətli daşların hasilatı, qızılın, neftin, neft məhsullarının və təbii qazın hasilatı və emalı, neft və neft məhsullarının tullantılarının emalı dövlət müəssisələri və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlər tərəfindən həyata keçirilir.

Azərbaycan Hökuməti bu cür fəaliyyətlərin icrası ilə məşğul olmaq, təcrübəli və beynəlxalq səviyyədə tanınmış podratçıların cəlb olunmasına dair bütün hüquqlara malikdir, HPBS–ləri təsdiq edən qanunlarda podratçı tərəflərə saziş çərçivəsində (neft-qaz hasilatı və kəşfiyyatı daxil olmaqla) fəaliyyət göstərmək üçün tələb olunan bütün icazələrin və lisenziyaların, eləcə də lisenziya ilə bağlı məlumatların verilməsi açıq şəkildə ifadə olunur.

Azərbaycan Respublikasında HPBS-ya qoşulmuş aktiv şirkətlərin reyestri tərtib edilmişdir və açıq mənbədə dərc edilərək ictimaiyyətə təqdim olunmuşdur. [31]

**Tərtib olunmuş reyestrdə müvafiq məlumatlar öz əksini tapmışdır:**

- Sazişlərin tərəfləri;
- Sazişlərə əsasən əhatə olunan sahələrin koordinatları;
- Sazişlərin imzalanma tarixi və qüvvədə olma müddəti;
- Sazişlərə əsasən hasil olunan məhsul.

[31] "MHŞT Azərbaycanın rəsmi internet səhifəsi", "Sənədlər", "HPBS reyestri", http://www.eiti.az/index.php/en/senedler-2/registration-of-licenses

## 2.5. MÜQAVİLƏLƏRİN AÇIQLANMASI

Hökumət və podratçı arasında imzalanan HPBS-lər Azərbaycanda neft, qaz və faydalı qazıntıların işlənməsini tənzimləyir və bu HPBS-ləri Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya olunduqdan sonra qüvvəyə minir. Bununla belə, Azərbaycan hökuməti və podratçılar bu HPBS-lər çərçivəsində kommersiya tərəfləri kimi çıxış edirlər. Azərbaycan hökuməti özünün və podratçıların bərabər hüquqlu kommersiya tərəfləri olmasını qəbul edir.

Bu sazişlər yataqlarda fəaliyyət göstərən əməliyyat şirkətlərinin, podratçı tərəflərin və onların subpodratçılarının fəaliyyətlərini, mühasibatlıq və vergi rejimini tənzimləyir.

HPBS-lərin açıqlanmasına dair Azərbaycan qanunvericiliyi heç bir tələb və ya məhdudiyyət qoymur. Lakin bu sazişlər tərəflərin qarşılıqlı razılığı ilə açıqlana bilər. Azərbaycan Respublikasının qanunlarına əsasən, məxfilik müddəasını pozaraq, kommersiya sirrini üçüncü tərəflərə açıqlayan tərəf öz tərəfdaşı qarşısında məsuliyyət daşıyır (2001-ci il 4 dekabr tarixli 224-IIQ nömrəli Azərbaycan Respublikasının Kommersiya Sirri haqqında Qanununun 7–ci Maddəsi).

**Azərbaycanda hasilat sənayesində şəffaflıq üzrə görülmüş tədbirlər çərçivəsində adları aşağıda göstərilmiş altı HPBS-nin mətni açıqlanmışdır:** [32]

- Şah Dəniz perspektiv sahəsi;
- Azəri Çıraq yataqları və Günəşli yatağının dərin sulu hissəsi;
- Şəfəq-Asiman dəniz bloku;
- Gədəbəy, Qoşa, Ordubad qrupu, Söyüdlü, Qızılbulaq və Vejnəli perspektiv qızıl filiz yataqları;
- Cənub-Qərbi Qobustanın 3 bloku;
- "Zığ" və "Hövsan" neft yataqlarının daxil olduğu blok.

## 2.6. BENEFİSİAR SAHİBLİK

Hesabatlılıq dövründə "benefisiar sahiblik" anlayışı Azərbaycanın hüquq sistemi ilə tanınmamış və ölkədə korporativ müəssisələrin benefisiar sahiblərinin ictimaiyyətə açıq olan reyestri mövcud olmamışdır. Hüquqi şəxslərin dövlət reyestrində korporativ müəssisələrin benefisiar sahibləri barədə deyil, onların səhmlərinin mülkiyyətçiləri ilə bağlı qeydiyyat məlumatları əks etdirilmişdir.

[32] MHŞT rəsmi internet səhifəsi- Sazişlər http://www.eiti.az/index.php/az/senedler/sazishler

Beləliklə, hesabatlılıq dövründə Azərbaycanda ictimaiyyət üçün açıq olan heç bir reyestr benefisiar sahiblik barədə məlumatları əks etdirmir və ona görə də həmin məlumatların dövlət mülkiyyətində olan müəssisələr tərəfindən təqdim edilməsi mümkün olmamışdır. Digər tərəfdən, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişikliklər edilməsi barədə 12 iyun 2012-ci il tarixli Qanuna əsasən hüquqi şəxslərin təsisçisi barədə məlumatlar kommersiya sirri hesab olunur. Həmin məlumatlar üçüncü şəxslər tərəfindən yalnız həmin müəssisələrin səhmdarlarının razılığı ilə əldə edilə bilər.

Hesabatlılıq dövründə Azərbaycanda benefisiar sahiblik anlayışının konsepsiyasının və həmin mülkiyyət barədə məlumatların verilməsi ilə bağlı hər hansı qanuni öhdəliyin olmamasını nəzərə alaraq, benefisiar sahiblik barədə məlumatların açıqlanması HSŞ prosesində iştirak edən şirkətlər üçün məcburi öhdəlik hesab olunmamışdır.

Azərbaycanın hasilat sənayesində benefisiar sahiblik məlumatlarının açıqlanması ilə bağlı bütün yeniliklərlə və görülmüş işlərlə daha ətraflı ARDNF-in rəsmi internet səhifəsində tanış olmaq mümkündür. [33]

## 2.7. HASİLAT SƏNAYESİNDƏ DÖVLƏTİN İŞTİRAKI

### 2.7.1. ÜMUMİ MƏLUMAT

Azərbaycanda neft və qaz hasilatı sənayesində dövlətin iştirakı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("SOCAR") vasitəsilə həyata keçirilir.

**SOCAR**

SOCAR Azərbaycan Respublikası Prezidentinin 13 sentyabr 1992–ci il tarixli 200 saylı Fərmanı ilə Azərbaycan Respublikası ərazisinə məxsus neftin istifadəsinə dair neft sənayesinin idarəetmə strukturunun təkmilləşdirilməsi, neft və enerji kompleksinin inkişafının təmin edilməsi məqsədilə vahid dövlət siyasətinə müvafiq olaraq "Azərineft" Dövlət Konserninin və "Azərneftkimya" İstehsalat Birliyinin bazasında yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2014-cü il tarixli 430 nömrəli fərmanına əsasən 24 yanvar 2003-cü il tarixli fərmanına edilmiş dəyişikliyə müvafiq şirkətin tam adı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, qısaca isə SOCAR kimi müəyyən edilmişdir.

[33] ARDNF-in rəsmi internet səhifəsi http://www.oilfund.az/az_AZ/about_found/beynelxalq-elaqeler/benefisiar_sahiblik.asp

SOCAR neft, qaz və neft–kimya sənayesinin müxtəlif sahələri üzrə həm Azərbaycan Respublikasının ərazisində, həm də beynəlxaq bazarda fəaliyyət göstərir. Ölkə ərazisində SOCAR neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, neft, qaz və qaz kondensatının hasilatı, emalı və nəqli, neft, qaz və neft–kimya məhsullarının daxili və xarici bazarlarda satışını həyata keçirir. 2016-cı ildə SOCAR-ın işçi qüvvəsi 50 735 (2015–ci ildə 52 104) nəfər təşkil etmişdir. [34] SOCAR ölkənin ən böyük şirkəti olaraq Azərbaycan Respublikasının iqtisadiyyatında mühüm yer tutur.

SOCAR-ın satınalmalar üzrə müvafiq prosedurları "Satınalmaların təşkili və idarə olunması üzrə normativ sənədlər toplusu" adlı Əsasnaməyə uyğun olaraq həyata keçirilir. Həmin Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 24 yanvar 2003-cü il tarixli 844 nömrəli fərmanına əsasən qüvvəyə minmişdir. [35] SOCAR ölkə ərazisində neft və qaz yataqlarının kəşfiyyatı və işlənməsi, neft və qazın hasilatı, emalı, neft–qaz və neft–kimya məhsullarının daxili və xarici bazarlarda satışı ilə məşğul olan neft şirkətidir.

**AzerGold QSC**

AzerGold dövlətə məxsus olan, qiymətli və əlvan metalların hasilatı, emalı və satışı ilə məşqul olan Qapalı Səhmdar Cəmiyyətidir və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli sərəncamına əsasən təsis edilmişdir.

Səhmləri dövlətə məxsus olan "AzerGold" QSC əlvan metal filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənməsini və idarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

### 2.7.2. DÖVLƏT MÜƏSSİSƏLƏRİNİN MÜVAFİQ DÖVLƏT QURUMLARI İLƏ MÜNASİBƏTİ

**Aşağıda SOCAR-ın dövlət qurumları ilə münasibətləri göstərilmişdir:**

SOCAR-ın fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və

[34] SOCAR, "Davamlı İnkişaf Haqqında Hesabat, 2016", "Şirkət haqqında", səh. 5 http://socar.az/socar/assets/documents/az/socar-annual-reports/davamli-inkisaf2016.pdf
[35] SOCAR, "SOCAR standartları", "Satınalmalar üzrə normativ sənədlər" http://www.socar.az/socar/az/company/socar-standards/socar-standards

sərəncamları, digər normativ-hüquqi aktlar, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, Azərbaycan Respublikasının qanunları ilə təsdiq edilmiş neft-qaz kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişlər və şirkətin Nizamnaməsi ilə tənzimlənir. [36]

SOCAR fəaliyyət istiqamətləri ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi qarşısında daim hesabatlarla çıxış edir.

SOCAR hər il növbəti ayın 15-dək əvvəlki ay ərzində hesablarına və kassalarına daxil olmuş pul vəsaitinin məbləği və onun istifadə istiqamətləri barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə bu nazirliklərin hazırladığı forma üzrə hesabat təqdim edir.

SOCAR Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli fərmanı ilə təsdiq edilmiş Nizamnaməsinin 6-ci bəndinə ("Şirkətdə uçot, hesabat və nəzarət") əsasən Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq mühasibat uçotu aparır, illik maliyyə hesabatlarını, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi hesabatlarını Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim edir. Şirkət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatlarını tərtib edərək Dövlət Statistika Komitəsinə təqdim edir.

SOCAR konsolidasiya edilmiş maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə hesabat dövrü başa çatdıqdan sonra növbəti il iyun ayının 30-dan gec olmayaraq internet səhifəsində yerləşdirir və hesabat dövrü ərzində SOCAR və ya onun törəmə müəssisələri dövlət zəmanəti ilə kredit aldıqda və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak etdikdə, həmçinin onlara büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrıldıqda Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə məlumat təqdim edir. [37]

Dövlət tərəfindən SOCAR-a maliyyə vəsaitlərinin ayrılması daha çox nizamnamə kapitalı və ya kredit ayırmaları vasitəsi ilə həyata keçirilir. Azərbaycan Respublikası Mərkəzi Bankı borcverən qismində çıxış edərək borcalan Azərbaycan bankları və təkrar borca-

[36] SOCAR, "Qanunvericilik", "SOCAR-ın Nizamnaməsi", http://socar.az/socar/az/company/regulations/socar-charter
[37] http://www.e-qanun.az/framework/28955

lan qismində SOCAR-a dövlət zəmanəti ilə kredit vəsaiti ayırır. Zamin kimi Azərbaycan Respublikası hökuməti adından çıxış edən Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikası Mərkəzi Bankı, SOCAR və Azərbaycan bankları arasında dövlət zəmanətinin verilməsi barədə saziş imzalanır.

SOCAR Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli Fərmanı ilə təsdiq edilmiş Nizamnaməsinin 6-cı bəndinə ("Şirkətdə uçot, hesabat və nəzarət") əsasən yuxarıda qeyd olunan dövlət qurumları tərəfindən tələb olunduğu halda, müvafiq hesabatlar və məlumatlar tərtib edərək təqdim olunmasını təmin edir. [38]

[38] E-qanun: "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi", http://www.e-qanun.az/framework/ 1899




TƏSVİR 6: SOCAR-IN DÖVLƏT QURUMLARI İLƏ MÜNASİBƏTİ [39]

[39] Təsvir 4 Moore Stephens Azərbaycan şirkəti tərəfindən hazırlanmışdlr.

**Aşağıda "AzerGold" QSC-nin dövlət qurumları ilə münasibətləri göstərilmişdir:**

"AzerGold" QSC-nin nizamnaməsinin və strukturunun təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "AzerGold" QSC-nin idarə heyətinin, müşahidə şurasının və təftiş komissiyasının və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi səlahiyyətlərinə malikdir.

"AzerGold" QSC-nin Müşahidə Şurası onun fəaliyyəti üzərində ümumi rəhbərliyi və nəzarəti həyata keçirən və icra səlahiyyətlərinə malik olmayan orqandır. Müşahidə Şurasının tərkibi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (2 nəfər), Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (1 nəfər) və Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin (1 nəfər) nümayəndələrindən ibarətdir.

Eyni zamanda müəssisənin illik hesabatlarının, mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiqi, mənfəət və zərərinin bölüşdürülməsi, işçilərinin say həddinin, əmək haqqı sisteminin müəyyən olunması və xərclər smetasının təsdiq edilməsi səlahiyyətləri də Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə verilmişdir.

"AzerGold" QSC-nin idarə heyəti onun kollegial icra orqanıdır və müvafiq məcəllə, sərəncam və nizamnamə ilə Ümumi Yığıncağa, Müşahidə Şurasına və təftiş komissiyasına verilmiş səlahiyyətlər istisna olmaqla, Cəmiyyətin idarə edilməsi ilə bağlı bütün məsələləri həll edir.

Müəssisənin idarə heyətinin sədrini və sədr müavinlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

"AzerGold" QSC-nin fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, digər normativ-hüquqi aktlar və şirkətin nizamnaməsi ilə tənzimlənir. [40]

[40] "AzerGold" QSC-nin nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, http://www.e-qanun.az/framework/32799

### 2.7.3. DÖVLƏT MÜƏSSİSƏLƏRİ İLƏ DÖVLƏT ARASINDA MALİYYƏ AXINLARI

**Aşağıda SOCAR-ın dövlət qurumları ilə münasibətləri göstərilmişdir:**

**NİZAMNAMƏ KAPİTALI** [41]

2016-cı il SOCAR-ın nizamnamə kapitalında 185 milyon manat məbləğində artım qeydə alınaraq 1 802 milyon manat təşkil etmişdir.

**ƏLAVƏ ÖDƏNİLMİŞ KAPİTAL** [42]

2016-cı il ərzində dövlət tərəfindən SOCAR-ın nizamnamə kapitalına edilən əlavə ödəniş məbləği 921 milyon manat olmuş və əlavə ödənilmiş kapital kimi daxil edilmişdir. 31 dekabr 2016-cı il tarixində bitən il üzrə əlavə ödənilmiş kapitalın məbləği 2 159 milyon manat təşkil etmişdir.

**DÖVLƏTƏ AYIRMALAR** [43]

Dövlətə ayırmalar dövlətin müvafiq qərarlarına uyğun olaraq dövlət büdcəsinə, ayrı–ayrı dövlət agentliklərinə və dövlətin həyata keçirdiyi layihələrə SOCAR tərəfindən pul şəklində qoyuluşları və ya maliyyələşdirməni əks etdirir. Bu cür ayırmalar kapitalın azalması kimi uçota alınır. Pul şəklində olmayan ayırmalar köçürülmüş aktivlərin balans dəyərində qeydə alınır. 2016-cı il ərzində SOCAR tərəfindən dövlətə edilən bu cür birbaşa köçürmələrin məbləği 73 milyon manat olmuşdur.

**BÖLÜŞDÜRÜLMƏMİŞ MƏNFƏƏT** [44]

31 dekabr 2016-cı il tarixində bitən il üzrə SOCAR-ın bölüşdürülməmiş mənfəət məbləğinin cəmi 6 265 milyon manat təşkil etmişdir. Daha ətraflı məlumatı SOCAR-ın “Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat”- ından əldə etmək olar

**Aşağıda “AzerGold” QSC-nin maliyyə məlumatları və dövlət büdcəsinə edilən ödənişlər göstərilmişdir:**

11 may 2016-cı il tarixində Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qərara əsasən “AzerGold” QSC-nin nizamnamə kapitalı 2 000 000 (iki milyon) manat təşkil etmişdir. Bu kapital onun səhmlərinin nominal dəyərindən təşkil olunur və nominal dəyəri 1 (bir) manat olan 2 000 000 (iki milyon) ədəd adi səhmlərdən ibarətdir.

[41] SOCAR, “Maliyyə Hesabatı, 2016- cı il”, “Qeyd 27, Nizamnamə kapitalı, əlavə ödənilmiş kapital və bölüşdürülməmiş mənfəət”,səhifə 67, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2016.pdf
[42] SOCAR, “Maliyyə Hesabatı, 2016- cı il”, “Qeyd 27, Nizamnamə kapitalı, əlavə ödənilmiş kapital və bölüşdürülməmiş mənfəət”,səhifə 67, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2016.pdf
[43] SOCAR, “Maliyyə hesabatı 2016- cı il”, “Qeyd 27, Nizamnamə kapitalı, əlavə ödənilmiş kapital və bölüşdürülməmiş mənfəət”, səh. 67, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2016.pdf
[44] SOCAR, “Maliyyə hesabatı 2016- cı il”, “Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat”, səh. 4, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2016.pdf

## 2.7.4. DÖVLƏT MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ GÖSTƏRİCİLƏRİ VƏ HASİLAT MƏLUMATLARI

Aşağıda SOCAR-ın maliyyə göstəriciləri və hasilat məlumatları göstərilmişdir:




QRAFİK 1A: SOCAR-IN 2014-2016-CI İLLƏR ÜZRƏ MALİYYƏ GÖSTƏRİCİLƏRİ (MLN MANAT) [45, 46]

[45] SOCAR, "Maliyyə Hesabatı, 2016-cı il", "Konsolidasiya Edilmiş Mənfəət və ya Zərər və Digər Məcmu Gəlir haqqında Hesabat", səh. 3, http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyy%C9%99%20hesabat%C4%B1%202016.pdf

[46] SOCAR, "Davamlı İnkişaf Haqqında Hesabat, 2016", "Şirkət haqqında", səh. 6, http://www.socar.az/socar/assets/documents/az/socar-annual-reports/davamli-inkisaf2016.pdf




QRAFİK 1B: SOCAR-IN 2014-2016-CI İLLƏR ÜZRƏ GƏLİRLƏRİ (MLN MANAT)




QRAFİK 2: SOCAR-IN 2014-2016-CI İLLƏR ÜZRƏ NEFT VƏ QAZ HASİLATI [47]

[47] SOCAR, "Davamlı İnkişaf Haqqında Hesabat, 2016", "Şirkət haqqında", səh. 9 və səh. 10, http://www.socar.az/socar/assets/documents/az/socar-annual-reports/davamli-inkisaf2016.pdf

Bakı-Tbilisi-Ceyhan ("BTC") boru kəməri tikintisi tam başa çatdırılanadək və SOCAR Treydinq şirkəti təsis edilməzdən əvvəl, SOCAR xam nefti Gürcüstan və Rusiya ərazisindən ixrac edirdi. BTC SOCAR-a Türkiyədə Ceyhan ərazisindən Aralıq dənizinə çıxışına və oradan da Azərbaycan neftinin Aralıq dənizi boyu ərazilərə, daha sonra Asiya və Amerikaya çatdırılması məqsədilə Çox Böyük Xam Daşıyıcıların (ÇBXD) yüklənməsinə imkan yaratmışdır.

SOCAR Treydinq şirkəti Azərbaycanın Azəri-Çıraq-Günəşli və digər neft yataqlarından hasil olunan neftin ixrac olunması üçün SOCAR-ın marketinq qolu olaraq 2007-ci ilin dekabr ayında təsis edilmişdir. Hal-hazırda Azərbaycanın təbii ehtiyatları əsasən üç – Gürcüstana Qərb İxrac Boru Kəməri (QİBK), Rusiyaya Bakı-Novorossiysk, Türkiyəyə isə Bakı-Tbilisi-Ceyhan ("BTC") boru kəmərləri vasitəsilə çatdırılır.

SOCAR Treydinq şirkəti 2008-ci ildən 1 milyard barelə yaxın həcmdə Azərbaycanın "Azəri-Light" markalı neftini uğurla dünya bazarına ixrac etmişdir. Ticarət şirkəti olaraq SOCAR Treydinq qiymət artımı və qlobal tələblərin dəyişkənliyinə uyğunlaşması sayəsində Azərbaycanın xammal satışının idarə edilməsini həyata keçirir. [48]

SOCAR Treydinq şirkəti dövlətin və SOCAR-ın payına düşən xam neft həcmlərinin və dövlətin payının Ceyhan limanından satışını, üçüncü tərəflərin neft və neft məhsullarının ticarətini həyata keçirir. Şirkət Afrika və Asiyada uzunmüddətli işgüzar münasibətlərin inkişafına dair səylər göstərir, həmçinin, dövlət müəssisəsi və Azərbaycanın xam neftinin əsas satıcısı kimi dünya limanlarına çıxışların qazanılması üçün zəruri prosesləri həyata keçirir.

[48] http://www.socartrading.com/marketing/marketing-export

## 2.7.5. DÖVLƏT MÜƏSSİSƏLƏRİNİN BİRGƏ, ASILI VƏ TÖRƏMƏ MÜƏSSİSƏLƏRİ

2016- cı il ərzində SOCAR-ın törəmə müəssisələrin fəaliyyət növü, təsis edildiyi ölkə və iştirak paylarına dair məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir:

**Cədvəl 1. Birgə müəssisələr** [49]

| BM və törəmə şirkətin adı | Fəaliyyəti | DM iştirak payı (%) | Hesabat dövründə iştirak payının dəyişməsi (%) | Gəlir (mln manat) | Aktivlər (mln manat) | Öhdəliklər (mln manat) |
|---|---|---|---|---|---|---|
| SOCAR KBR | Xidmət | 51% | Dəyişməyib | - | 1,0 | (1,0) |
| Azeri M.İ. Qazma Mayeləri | Kimyəvi məhsulların istehsalı | 51% | Dəyişməyib | 155,0 | 75,0 | (32,0) |
| Azərbaycan Riqs | Qazma qurğuların tikintisi | 10% | Dəyişməyib | - | 706,0 | (4,0) |
| SOCAR Fugro | Mühəndis-geoloji tədqiqat | 51% | Dəyişməyib | 14,0 | 16,0 | (14,0) |
| AZFEN | Tikinti | 60% | Dəyişməyib | 1019,0 | 368,0 | (205,0) |
| AzGerneft MMC | Karbohidrogenlərin kəşfi, işlənməsi və hasilatı | 40% | Dəyişməyib | 39,0 | 105,0 | (33,0) |
| Ekol Mühəndislik Xidmətləri | Təmizləmə xidməti | 50% | Dəyişməyib | 9,0 | 4,0 | (1,0) |
| Kaspian Şipyard Şirkəti | Gəmilərin təmiri | 20% | Dəyişməyib | 142,0 | 97,0 | (56,0) |

[49] SOCAR, "Maliyyə hesabatı, 2016- cı il", "Qeyd 17, Birgə müəssisələrə investisiyalar http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2016.pdf

| BM və törəmə şirkətin adı | Fəaliyyəti | DM iştirak payı (%) | Hesabat dövründə iştirak payının dəyişməsi (%) | Gəlir (mln manat) | Aktivlər (mln manat) | Öhdəliklər (mln manat) |
|---|---|---|---|---|---|---|
| "Oyl and Qaz ProServ" MMC | Təchizat xidmətləri | 30% | Dəyişməyib | 3,0 | 19,0 | (9,0) |
| Sarmatia | Layihələndirmə xidmətləri | 27% | Dəyişməyib | - | 2,0 | (1,0) |
| SOCAR AQŞ | Quyuların qazılması işləri | 51% | Dəyişməyib | 76,0 | 359,0 | (186,0) |
| SOCAR Aurora Terminalı | Neftin saxlanılma xidmətləri | 50% | Dəyişməyib | 19,0 | 173,0 | (95,0) |
| SOCAR Bağlan | Təchizat xidmətləri | 51% | Dəyişməyib | - | 15,0 | (19,0) |
| SOCAR Foster Viler Mühəndislik xidmətləri | Mühəndislik xidmətləri | 65% | Dəyişməyib | 6,0 | 3,0 | (2,0) |
| SOCAR CAPE | Tikinti | 51% | Dəyişməyib | 97,0 | 30,0 | (27,0) |
| SOCAR KPŞ | Tikinti | 50% | Dəyişməyib | 3,0 | 29,0 | (29,0) |
| SOCAR Construction | Tikinti | 97% | Dəyişməyib | - | 12,0 | (1,0) |
| SOCAR CNG | STQ adlandırılan yanacağın istehsalı və satışı | 51% | Dəyişməyib | - | 11,0 | (22,0) |
| SOCAR Ümid | Kəşfiyyat-axtarış işləri | 80% | Dəyişməyib | - | 489,0 | (43,0) |
| STYAŞ | Tikinti | 60% | Dəyişməyib | - | 4 802,0 | (807,0) |

**2016-cı ildə SOCAR-ın birgə müəssisələrinin benefisiar sahiblik səviyyəsində dəyişiklikləri:**

- 2016-cı il ərzində SOCAR Azərbaycan Rigs MMC və STYAŞ birgə müəssisələrin nizamnamə kapitalına, müvafiq olaraq, 17 milyon manat (2015-ci il: 36 milyon manat) və 198 milyon manat (2015-ci il: 607 milyon manat) məbləğində əlavə vəsaitlər, eləcə də digər birgə müəssisələrə 1 milyon manat (2015-ci il: 2 milyon manat) məbləğində vəsaitlər yatırılmışdır.
- 2016-cı ildə SOCAR Star emal zavodunun (STYAŞ-ın törəmə müəssisəsi) tikintisi ilə əlaqədar akkreditiv razılaşmalar imzalanmışdır. Qrupun cəmi 44 milyon manat (2015-ci il: 38 milyon manat) məbləğində ödədiyi komissiya haqları və faizlər STYAŞ-a əlavə investisiya kimi tanınmışdır.

**Cədvəl 2. Törəmə müəssisələr** [50]

| Adı | Fəaliyyəti | Təsis edildiyi ölkə | Kapitalda pay, % |
|---|---|---|---|
| SOCAR Turkey Enerji A.Ş. | Emal | Türkiyə | 86.99% |
| Azerbaijan (ACG) Ltd | Neft istehsalı | Kayman adaları | 100% |
| Azerbaijan (Shah Deniz) Ltd | Qaz istehsalı | Kayman adaları | 100% |
| Caspian Drilling Company (CDC) | Qazma əməliyyatları | Azərbaycan | 92.44% |
| SOCAR Energy Georgia LLC | Satış və paylama | Gürcüstan | 51% |
| SOCAR Overseas LLC | Satış və paylama | BƏƏ | 100% |
| SOCAR Trading Holding | Satış və paylama | Malta | 100% |
| Azerbaijan (BTC) Ltd | Satış və paylama | Kayman adaları | 100% |
| Cooperative Menkent U.A. | Satış və paylama | Niderland Krallığı | 99.9% |
| SOCAR Energy Holdings AG | Satış və paylama | İsveçrə | 100% |
| SOCAR Energy Ukraine | Satış və paylama | Ukrayna | 100% |
| Azerbaijan (SCP) Ltd | Satış və paylama | Kayman adaları | 100% |
| SOCAR Petroleum QSC | Satış və paylama | Azərbaycan | 100% |
| Bakı Gəmiqayırma Zavodu | Tikinti | Azərbaycan | 65% |
| Socar Polimer LLC | Kimya məhsulları | Azərbaycan | 71% |
| BOS Shelf LLC | Tikinti | Azərbaycan | 90% |

[50] SOCAR, "Maliyyə hesabatı, 2016- cı il", "Qeyd 1, Qrup və onun əməliyyatları", səhifə 6, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2016.pdf

2016- cı il ərzində SOCAR-ın birgə və asılı müəssisələrdə iştirak payları, hesabat dövründə iştirak payının dəyişməsi, gəlir, aktiv və borc öhdəliklərinə dair məlumatlar aşağıdakı cədvəllərdə göstərilmişdir:

### Cədvəl 3a. Asılı müəssisələr [51] ( SOCAR-ın əsas asılı müəssisələri)

| Asılı müəssisə və törəmə şirkətin adı | Fəaliyyəti | DM iştirak payı (%) | Hesabat dövründə iştirak payının dəyişməsi (%) | Gəlir (mln manat) | Aktivlər (mln manat) | Öhdəliklər (mln manat) |
|---|---|---|---|---|---|---|
| Cənubi Qafqaz Boru Kəməri ("SCPC") | Kəmərin tikintisi | 10% | Dəyişməyib | 565,0 | 7 779,0 | (844,0) |
| BTC Co | Kəmərin tikintisi | 25% | Dəyişməyib | 1 575,0 | 9 976,0 | (2 972,0) |
| Cənub Qaz Dəhlizi QSC ("CQD QSC") | Qaz təchizatı | 49% | Dəyişməyib | 178,0 | 14 568,0 | (9 353,0) |

[51] SOCAR, "Maliyyə hesabatı, 2016-cı il", "Qeyd 18, Asılı müəssisələrə investisiyalar", səhifə 56-60, http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyy%C9%99%20hesabat%C4%B1%202016.pdf

**Cədvəl 3b. Asılı müəssisələr (SOCAR-ın həm fərdi, həm məcmu şəkildə əhəmiyyətli olmayan digər asılı müəssisələri)**

| Asılı müəssisə və törəmə şirkətin adı | Fəaliyyəti | DM iştirak payı (%) | Hesabat dövründə iştirak payının dəyişməsi (%) | Gəlir (mln manat) | Aktivlər (mln manat) | Öhdəliklər (mln manat) |
|---|---|---|---|---|---|---|
| Ataşgah Sığorta Şirkəti QSC | Sığorta xidmətləri | 10% | Dəyişməyib | 40,0 | 42,0 | (27,0) |
| Azərbaycan Qaz Təchizatı Şirkəti | Satış və paylama | 28% | Dəyişməyib | 2 304,0 | 550,0 | (551,0) |
| AzLab | Analiz xidmətləri | 50% | Dəyişməyib | 2,0 | 5,0 | (4,0) |
| Caspian Geophysical | Analiz və sair geoloji işlər | 45% | Dəyişməyib | 67,0 | 40,0 | (2,0) |
| Caspian Pipe Coatings LLC | Boruların təmizlənmə, örtüklənmə və s. xidmətləri | 50% | Dəyişməyib | 34,0 | 33,0 | (4,0) |
| Cross Caspian Oil and Gas Logistics | Təchizat və logistika xidmətləri | 34% | Dəyişməyib | 8,0 | 3,0 | (2,0) |
| Cənubi Qafqaz boru kəməri Hold Co ("SCPC Hold Co.") | Kəmərin tikintisi | 10% | Dəyişməyib | - | 121,0 | (1,0) |
| Tankanlagen Mellingen AG ("TAMAG") | Satış və saxlanma | 33% | Dəyişməyib | - | 13,0 | (3,0) |
| Tanklager Taegerschen AG ("TLT") | Satış və saxlanma | 21% | Dəyişməyib | - | 2,0 | - |
| SOGEP AG | Satış və saxlanma | 34% | Dəyişməyib | - | 6,0 | (5,0) |
| UBAG AG | Satış və saxlanma | 24% | Dəyişməyib | - | 38,0 | (32,0) |
| SAPPRO SA | Satış və saxlanma | 13% | Dəyişməyib | - | 7,0 | (5,0) |
| SARACO SA | Satış və saxlanma | 20% | Dəyişməyib | - | 20,0 | (20,0) |
| Electrogas Malta | Satış və saxlanma | 33% | Dəyişməyib | 1,0 | 778,0 | (781,0) |

- 2016-cı il ərzində SOCAR SCPC və Cənub Qaz Dəhlizi QSC (CQD QSC) asılı müəssisələrinin səhmdar kapitalına, müvafiq olaraq, 104 milyon manat (2015-ci il: 107 milyon manat) və 693 milyon manat (2015-ci il: 665 milyon manat) məbləğində vəsaitlər yatırılmışdır.

## 2.7.6. DÖVLƏT MÜƏSSİSƏLƏRİNƏ AİD OLAN ƏMƏLİYYATLAR

Azərbaycanda neft və qaz hasilatı sənayesində dövlətin iştirakı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("SOCAR") vasitəsilə həyata keçirilir. SOCAR neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, neft, qaz və qaz kondensatının hasilatı, emalı və nəqli, neft, qaz və neft–kimya məhsullarının daxili və xarici bazarlarda satışını həyata keçirir.

SOCAR, HPBS çərçivəsində Azərbaycan Respublikasının adından çıxış edən şirkət olduğu üçün podratçı şirkətlərdən məhsul şəklində dövlətin payına düşən neft və qazı əldə edir. 2016-cı ildə SOCAR-ın Podratçı şirkətlərdən əldə etdiyi neft və qazın həcmi Cədvəl 17-də öz əksini tapmışdır.

Dövlətin payına düşən mənfəət neftinin və qazın satışından əldə edilən gəlirlər ARDNF-in büdcəsinə daxil olunur və həmin məlumat Cədvəl 24-də göstərilmişdir. 2016-cı ildə ARDNF-in dövlət büdcəsinə etdiyi transfert barədə məlumat Cədvəl 25-də qeyd olunmuşdur.

SOCAR-ın, fəaliyyəti zamanı yaranan vergi öhdəlikləri (mənfəət vergisi, ƏDV, əmlak, aksiz vergisi, gəlir vergisi, qiymət fərqi üzrə yığımlar və digər vergilər), sosial sığorta ödənişləri müvafiq qanunvericiliyə uyğun olaraq hesablanır və Dövlət Xəzinədarlığı Agentliyinə köçürülür.

SOCAR-a maliyyə vəsaitlərinin ayrılması nizamnamə kapitalı və ya kredit ayırmaları vasitəsi ilə həyata keçirilir. Azərbaycan Respublikası Mərkəzi Bankı Borcverən qismində çıxış edərək, borcalan Azərbaycan bankları və təkrar borcalan qismində SOCAR-a dövlət zəmanəti ilə kredit vəsaiti ayırır. Zamin kimi Azərbaycan Respublikası hökuməti adından çıxış edən Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikası Mərkəzi Bankı, SOCAR və Azərbaycan bankları arasında dövlət zəmanətinin verilməsi barədə saziş imzalanır.

Dövlətə ayırmalar dövlətin xüsusi qərarlarına uyğun olaraq dövlət büdcəsinə, ayrı–ayrı dövlət agentliklərinə və dövlətin həyata keçirdiyi layihələrə SOCAR tərəfindən pul şəklində qoyuluşları və ya maliyyələşdirməni əks etdirir. Bu cür ayırmalar kapitalın azalması kimi uçota alınır. Pul şəklində olmayan ayırmalar köçürülmüş aktivlərin balans dəyərində qeydə alınır. [52]

[52] SOCAR, "Maliyyə hesabatı 2016-ci il", "Qeyd 27, Nizamnamə kapitalı, əlavə ödənilmiş kapital və bölüşdürülməmiş mənfəət", səh. 69, http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyy%C9%99%20hesabat%C4%B1%202016.pdf

### 2.7.7. XARİCİ BAZARLARDA FƏALİYYƏTİN GENİŞLƏNDİRİLMƏSİ

**Cənub Qaz Dəhlizi layihəsi**

**Cənub Qaz Dəhlizi layihəsi Xəzər dənizinin qaz ehtiyatlarını Avropa bazarlarına çatdırmaqla Avropanın enerji təchizatının artırılmasını hədəfləyir. Cənub Qaz Dəhlizi aşağıdakı dörd layihədən ibarətdir:**

**1.** Şahdəniz qaz-kondensat yatağının istismarı ("SD1" layihəsi) və tammiqyaslı işlənilməsi ("SD2" layihəsi);
**2.** Mövcud Cənubi Qafqaz Boru Kəmərinin istismarı ("CQBK") və Azərbaycan və Gürcüstan ərazisi kəmər boyunca yeni paralel boru kəməri vasitəsilə genişləndirilməsi ("CQBKG");
**3.** Trans-Anadolu Boru Kəmərinin ("TANAP" layihəsi) inşası və gələcəkdə bu kəmər vasitəsilə Şahdəniz qazının Türkiyə ərazisi boyunca nəql etdirilməsi;
**4.** Trans-Adriatik Boru Kəmərinin ("TAP" layihəsi) inşası və gələcəkdə bu kəmər vasitəsilə Şahdəniz qazının Yunanıstan, Albaniya ərazilərindən, həmçinin Adriatik dənizindən İtaliyaya nəql etdirilməsi.

Bu layihələr (SD2, CQBKG, TANAP və TAP layihələri, birlikdə "Layihələr) birlikdə Cənub Qaz Dəhlizi kimi tanınır. Layihələrdə Dövlətə məxsus iştirak paylarının konsolidasiya edilməsi, idarə edilməsi və maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 fevral tarixli 287 saylı Sərəncamı ilə Cənub Qaz Dəhlizi Qapalı Səhmdar Cəmiyyəti ("CQD QSC") təsis edilmişdir. CQD QSC-nin səhmlərinin 51 faizi Dövlətə (İqtisadiyyat Nazirliyi) və 49 faizi SOCAR-a məxsusdur.

2016-cı ildə CQD QSC-nin dövlət mülkiyyətində olan hissəsinin maliyyələşdirilməsini təmin etmək məqsədi ilə ARDNF tərəfindən 797,4 milyon manat (495,2 milyon ABŞ dolları) məbləğində vəsait Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin hesabına köçürülmüş və bu maddə üzrə icra büdcədə nəzərdə tutulana nisbətən (2 355,3 milyon manat) 33,9% təşkil etmişdir.

Layihə üzrə ARDNF-nin büdcəsində nəzərdə tutulan vəsaitin tam icra olunmaması səbəbindən 2016-cı ilin mart ayında CQD QSC tərəfindən beynəlxalq maliyyə bazarlarında dövlət zəmanəti əsasında xarici valyutada denominasiya edilən beynəlxalq istiqrazların (avrobondlar) yerləşdirilməsindən diskont dəyərdə 991,1 milyon ABŞ dolları məbləğində vəsait cəlb edilmişdir. [53]

[53] "Azərbaycan Respublikası Dövlət Neft Fondu"nun İllik hesabatı – 2016, http://www.oilfund.az/uploads/Annual_Report_2016_AZ.pdf

**Şahdəniz layihəsi (SD1 və SD2)**

| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Bonuslar | - | - | - |
| Tranzit haqqı | 0,1 | 0,1 | - |
| Akrhesabı ödənişlər | - | - | - |
| Mənfəət vergisi | 11,4 | 11,4 | - |
| Digər vergilər | - | - | - |

| Məhsul | İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | 3,5 | 3,5 | - |
| Təbii qaz (mln m³) | - | - | - |
| Səmt qazı (mln m³) | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | 3,1 | 3,1 | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | 4 585,1 | 4 585,1 | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | 0,1 | 0,1 | - |
| | - | - | - | - | - |
| | - | - | 11,4 | 11,4 | - |
| | - | - | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | 3,5 | 3,5 | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |

## PETRONAS AZERBAİJAN SHAH DENİZ S.A.R.L

| Gəlir növü | (mln ABŞ dolları) | | |
|---|---|---|---|
| | İlkin hesabat forması | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Neft hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Qaz hasilatı üzrə pul vəsaitləri | 19,9 | 9,9 | 10,0 |
| Bonuslar | - | 0,01 | (0,01) |
| Tranzit haqqı | - | - | - |
| Akrhesabı ödənişlər | - | - | - |
| Mənfəət vergisi | - | - | - |
| Digər vergilər | - | - | - |

| Məhsul | İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | - | - | - |
| Təbii qaz (mln $m^3$) | - | - | - |
| Səmt qazı (mln $m^3$) | - | - | - |

## PETRO-HONG-KONG PİRSAAT OİL

| Gəlir növü | (mln ABŞ dolları) | | |
|---|---|---|---|
| | İlkin hesabat forması | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Neft hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Bonuslar | - | - | - |
| Tranzit haqqı | - | - | - |
| Akrhesabı ödənişlər | - | - | - |
| Mənfəət vergisi | - | - | - |
| Digər vergilər | - | - | - |

| Məhsul | İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | - | - | - |
| Təbii qaz (mln $m^3$) | - | - | - |
| Səmt qazı (mln $m^3$) | - | - | - |

| Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|
| Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| - | - | - | - | - |
| (10,0) | - | 9,9 | 9,9 | - |
| 0,01 | - | 0,01 | 0,01 | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |

| Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|
| Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |

| Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|
| Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |

| Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|
| Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |

## R.V.İNVESTMENT GROUP SERVİCES

| Gəlir növü | (mln ABŞ dolları) | | | |
|---|---|---|---|---|
| | İlkin hesabat forması | | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq | |
| Neft hasilatı üzrə pul vəsaitləri | - | - | - | |
| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - | |
| Bonuslar | - | - | - | |
| Tranzit haqqı | - | - | - | |
| Akrhesabı ödənişlər | - | - | - | |
| Mənfəət vergisi | - | - | - | |
| Digər vergilər | - | - | - | |

| Məhsul | İlkin hesabat forması | | | |
|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq | |
| Xam neft (milyon barel) | - | - | - | |
| Təbii qaz (mln m³) | - | - | - | |
| Səmt qazi (mln m³) | - | - | - | |
| Qızıl (min unsiya) | 7,8 | 7,8 | - | |
| Gümüş (min unsiya) | 1,4 | 1,4 | - | |
| Qızıl konsentratı (min unsiya) | 0,2 | 0,2 | - | |
| Gümüş konsentratı (min unsiya) | 0,4 | 0,4 | - | |
| Mis konsentratı (ton) | 16,3 | 16,3 | - | |

| Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|
| Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |

| Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|
| Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | 7,8 | 7,8 | - |
| - | - | 1,4 | 1,4 | - |
| - | - | 0,2 | 0,2 | - |
| - | - | 0,4 | 0,4 | - |
| - | - | 16,3 | 16,3 | - |

## SALYAN NEFT MMC

| Gəlir növü | (mln ABŞ dolları) İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Neft hasilatı üzrə pul vəsaitləri | 0,6 | 0,6 | - |
| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Bonuslar | - | - | - |
| Tranzit haqqı | - | - | - |
| Akrhesabı ödənişlər | - | - | - |
| Mənfəət vergisi | - | - | - |
| Digər vergilər | - | - | - |

| Məhsul | İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | - | - | - |
| Təbii qaz (min m³) | - | - | - |
| Səmt qazı (min m³) | 19 258,8 | 19 258,8 | - |

## SGC UPSTREAM MMC

| Gəlir növü | (mln ABŞ dolları) İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Neft hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Qaz hasilatı üzrə pul vəsaitləri | 13,2 | 4,3 | 8,9 |
| Bonuslar | - | - | - |
| Tranzit haqqı | - | - | - |
| Akrhesabı ödənişlər | - | - | - |
| Mənfəət vergisi | - | - | - |
| Sair vergilər | - | - | - |

| Məhsul | İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | - | - | - |
| Təbii qaz (min m³) | - | - | - |
| Səmt qazı (min m³) | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | 0,6 | 0,6 | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | 19 258,8 | 19 258,8 | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | (8,9) | - | 4,3 | 4,3 | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |

## SOCAR

| Gəlir növü | (mln AZN) | | | |
|---|---|---|---|---|
| | İlkin hesabat forması | | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq | |
| Neft hasilatı üzrə pul vəsaitləri | - | - | - | |
| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - | |
| Bonuslar | - | - | - | |
| Tranzit haqqı | - | - | - | |
| Akrhesabı ödənişlər | - | - | - | |
| Mənfəət vergisi | 4,8 | 4,8 | - | |
| Mədən vergisi | 108,7 | 108,7 | - | |
| ƏDV | 72,1 | 68,4 | 3,7 | |
| Əmlak vergisi | 71,9 | 73,8 | (1,9) | |
| Torpaq vergisi | 29,7 | 31,1 | (1,4) | |
| Qiymət fərqi üzrə yığımlar | 48,0 | 104,9 | (56,9) | |
| Digər vergilər | 68,4 | 70,0 | (1,6) | |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | 4,8 | 4,8 | - |
| | - | - | 108,7 | 108,7 | - |
| | (3,7) | - | 68,4 | 68,4 | - |
| | 1,9 | - | 73,8 | 73,8 | - |
| | 1,4 | - | 31,1 | 31,1 | - |
| | 56,9 | - | 104,9 | 104,9 | - |
| | 1,6 | - | 70,0 | 70,0 | - |

## STATOİL APSHERON A.S

| Gəlir növü | (mln ABŞ dolları) | | | |
|---|---|---|---|---|
| | İlkin hesabat forması | | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq | |
| Neft hasilatı üzrə pul vəsaitləri | - | - | - | |
| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - | |
| Bonuslar | - | - | - | |
| Tranzit haqqı | 0,4 | 0,4 | - | |
| Akrhesabı ödənişlər | - | - | - | |
| Mənfəət vergisi | 10,6 | 10,6 | - | |
| Digər vergilər | - | - | - | |

| Məhsul | İlkin hesabat forması | | | |
|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq | |
| Xam neft (milyon barel) | 10,9 | 10,9 | - | |
| Təbii qaz (min m³) | - | - | - | |
| Səmt qazı (min m³) | - | - | - | |

## ŞEVRON XƏZƏR LTD.

| Gəlir növü | (mln ABŞ dolları) | | | |
|---|---|---|---|---|
| | İlkin hesabat forması | | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq | |
| Neft hasilatı üzrə pul vəsaitləri | - | - | - | |
| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - | |
| Bonuslar | - | - | - | |
| Tranzit haqqı | 0,6 | 0,6 | - | |
| Akrhesabı ödənişlər | - | - | - | |
| Mənfəət vergisi | 23,8 | 23,8 | - | |
| Digər vergilər | - | - | - | |

| Məhsul | İlkin hesabat forması | | | |
|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq | |
| Xam neft (milyon barel) | 14,4 | 14,4 | - | |
| Təbii qaz (min m³) | - | - | - | |
| Səmt qazı (min m³) | - | - | - | |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | 0,4 | 0,4 | - |
| | - | - | - | - | - |
| | - | - | 10,6 | 10,6 | - |
| | - | - | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | 10,9 | 10,9 | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | 0,6 | 0,6 | - |
| | - | - | - | - | - |
| | - | - | 23,8 | 23,8 | - |
| | - | - | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | 14,4 | 14,4 | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |

## SHIRVAN INVESTMENTS LİMİTED

| Gəlir növü | (mln ABŞ dolları) | | |
|---|---|---|---|
| | İlkin hesabat forması | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Neft hasilatı üzrə pul vəsaitləri | 4,5 | 4,5 | - |
| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Bonuslar | - | - | - |
| Tranzit haqqı | - | - | - |
| Akrhesabı ödənişlər | - | - | - |
| Mənfəət vergisi | 0,2 | 0,2 | - |
| Digər vergilər | - | - | - |

| Məhsul | İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | - | - | - |
| Təbii qaz (min $m^3$) | - | - | - |
| Səmt qazı (min $m^3$) | 7 077,0 | 7 077,0 | - |

## TOTAL E & P ABŞERON B.V

| Gəlir növü | (mln ABŞ dolları) | | |
|---|---|---|---|
| | İlkin hesabat forması | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Neft hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Bonuslar | - | - | - |
| Tranzit haqqı | - | - | - |
| Akrhesabı ödənişlər | - | - | - |
| Mənfəət vergisi | - | - | - |
| Digər vergilər | - | - | - |

| Məhsul | İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | - | - | - |
| Təbii qaz (min $m^3$) | - | - | - |
| Səmt qazı (min $m^3$) | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | 4,5 | 4,5 | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | 0,2 | 0,2 | - |
| | - | - | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | 7 077,0 | 7 077,0 | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |

## TÜRKİYE PETROLLERİ ANONİM ORTAQLIĞI

| Gəlir növü | (mln ABŞ dolları) | | |
|---|---|---|---|
| | İlkin hesabat forması | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Neft hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Bonuslar | - | - | - |
| Tranzit haqqı | 0,3 | 0,3 | - |
| Akrhesabı ödənişlər | - | - | - |
| Mənfəət vergisi | 17,3 | 17,3 | - |
| Digər vergilər | - | - | - |

| Məhsul | İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | 8,6 | 8,6 | - |
| Təbii qaz (mln m³) | - | - | - |
| Səmt qazı (mln m³) | - | - | - |

## TÜRKİŞ PETROLEUM OVERSİZ KOMPANİ LTD

| Gəlir növü | (mln ABŞ dolları) | | |
|---|---|---|---|
| | İlkin hesabat forması | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Neft hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Qaz hasilatı üzrə pul vəsaitləri | 12,2 | 12,2 | - |
| Bonuslar | 0,01 | 0,01 | - |
| Tranzit haqqı | - | - | - |
| Akrhesabı ödənişlər | - | - | - |
| Mənfəət vergisi | - | - | - |
| Digər vergilər | - | - | - |

| Məhsul | İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | - | - | - |
| Təbii qaz (mln m³) | - | - | - |
| Səmt qazı (mln m³) | - | - | - |

| Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|
| Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | 0,3 | 0,3 | - |
| - | - | - | - | - |
| - | - | 17,3 | 17,3 | - |
| - | - | - | - | - |

| Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|
| Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| - | - | 8,6 | 8,6 | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |

| Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|
| Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| - | - | - | - | - |
| - | - | 12,2 | 12,2 | - |
| - | - | 0,01 | 0,01 | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |

| Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|
| Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| - | - | - | - | - |
| - | - | - | - | - |
| - | - | - | - | - |

## UGE-LANCER PTE.LTD

| Gəlir növü | (mln ABŞ dolları) | | |
|---|---|---|---|
| | İlkin hesabat forması | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Neft hasilatı üzrə pul vəsaitləri | 8,0 | 8,0 | - |
| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Bonuslar | - | - | - |
| Tranzit haqqı | - | - | - |
| Akrhesabı ödənişlər | - | - | - |
| Mənfəət vergisi | 1,5 | 1,5 | - |
| Digər vergilər | - | - | - |

| Məhsul | İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | - | - | - |
| Təbii qaz (min m³) | - | - | - |
| Səmt qazı (min m³) | 8 680,7 | 8 680,7 | - |

## ZENİTH ARAN OİL COMPANY LİMİTED

| Gəlir növü | (mln ABŞ dolları) | | |
|---|---|---|---|
| | İlkin hesabat forması | | |
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Neft hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Qaz hasilatı üzrə pul vəsaitləri | - | - | - |
| Bonuslar | - | - | - |
| Tranzit haqqı | - | - | - |
| Akrhesabı ödənişlər | - | - | - |
| Mənfəət vergisi | - | - | - |
| Digər vergilər | - | - | - |

| Məhsul | İlkin hesabat forması | | |
|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| Xam neft (milyon barel) | - | - | - |
| Təbii qaz (min m³) | - | - | - |
| Səmt qazı (min m³) | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | 8,0 | 8,0 | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | 1,5 | 1,5 | - |
| | - | - | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | 8 680,7 | 8 680,7 | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |

| | Düzəlişlər | | Yekun məbləğ | | |
|---|---|---|---|---|---|
| | Hasilat sənayesi şirkətləri | Dövlət | Hasilat sənayesi şirkətləri | Dövlət | Fərq |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |
| | - | - | - | - | - |

# ƏLAVƏ 4.
# HESABATIN TƏRTİBİ ZAMANI İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi

Azərbaycan Respublikası Dövlət Neft Fondu

Azərbaycan Respublikası Vergilər Nazirliyi

Azərbaycan Respublikasının Energetika Nazirliyi

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

Azərbaycan Respublikasının Mərkəzi Bankı

Azərbaycan Respublikası Hesablama Palatası

Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi

Azərbaycan Respublikasının Milli Məclisi

Azərbaycan Respublikası Nazirlər Kabineti

Azərbaycan Respublikası Maliyyə Nazirliyi

Azərbaycan Resbuklikası Əmək və Əhalinin sosial müdafiəsi nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

Azərbaycan Respublikası Tarif (Qiymət) Şurası

SOCAR Trading

Organization of the Petroleum Exporting Countries “OPEC”

British Petroleum

Natural Gas World

World Gold Council

Total Global Homepage

AzerGold QSC

Trend Xəbər Agentliyi

http://www.stat.gov.az

http://www.socar.az

http://www.eco.gov.az

http://www.oilfund.az

http://www.taxes.gov.az

http://www.minenergy.gov.az

http://www.customs.gov.az

http://www.cbar.az

http://www.sai.gov.az/

http://www.president.az/

http://www.meclis.gov.az/

http://www.cabmin.gov.az/

http://www.maliyye.gov.az

http://www.sspf.gov.az

http://www.e-qanun.az

http://www.tariffcouncil.gov.azn

http://www.socartrading.com

http://www.opec.org

http://www.bp.com

http://www.naturalgaseurope.com

http://www.gold.org

http://www.total.com

http://www.azergold.az

http://www.az.trend.az

# AÇIQ HÖKUMƏTİN TƏŞVİQİNƏ DAİR HÖKUMƏT-VƏTƏNDAŞ CƏMİYYƏTİ DİALOQU PLATFORMASININ AZƏRBAYCAN RESPUBLİKASI HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ 2016-CI İL ÜZRƏ İLLİK HESABATINA RƏYİ

**BAKI 2017**

Azərbaycan Respublikası Hasilat Sənayesində Şəffaflıq 2016-cı il üzrə İLLİK HESABAT-a Rəy Açıq Hökumətin Təşviqinə Dair Hökumət -Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının 28 dekabr 2017-ci ildə keçirilən iclasında təsdiq olunub.

©Açıq Hökumətin Təşviqinə Dair Hökumət -Vətəndaş Cəmiyyəti Dialoqu Platforması
Azərbaycan, Bakı, AZ 1001, M.Əfəndiyev 7/24
E-mail: office@ogp.org.az
Tel: (+99412) 4925726
www.ogp.org.az

## İÇİNDƏKİLƏR:

ÖN SÖZ

1. 2016 - İllik Hesabatın "İCMAL" bölməsi

2. Hesabatın "HÜQUQİ VƏ FİSKAL REJİM" bölməsi

3. Hesabatın "HASİLAT SƏNAYESİNƏ BAXIŞ" bölməsi

4. Hesabatın "HSŞ HESABATINDA ƏHATƏ OLUNAN VERGİ VƏ GƏLİRLƏR" bölməsi

5. Hesabatın "HASİLAT SƏNAYESİ GƏLİRLƏRİNİN VƏ XƏRCLƏRİNİN BÖLGÜSÜ" bölməsi

6. Hesabatın "AZƏRBAYCAN İQTİSADİYYATINA HASİLAT SƏNAYESİNİN TÖHFƏSİ" bölməsi

7. Hesabatın "ÜZLƏŞDİRMƏ" bölməsi

8. Hesabatın "XÜSUSİ YOXLAMA PROSEDURLARI" bölməsi

9. Hesabatın "TÖVSİYƏLƏR VƏ NƏTİCƏLƏR" bölməsi

10. AHT Platformasının yekun rəyi və tövsiyələri

11. AHT Platforması haqqında

## ÖN SÖZ

Bu Rəy Açıq Hökumətin Təşviqinə Dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının Strateji Fəaliyyət Planına uyğun olaraq «Konstitusiya» Araşdırmalar Fondunun həyata keçiridiyi "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planının monitorinqi" layihəsi çərçivəsində hazırlanmışdır. Rəyin ünvanlandığı Hasilat Sənayesində Şəffaflıq üzrə 2016-cı il İllik Hesabatı Moore Stephens Azerbaijan şirkəti tərəfindən tərtib edilib.

**Məlum olduğu kimi, öncəki 2003-2016 illərində, Azərbaycan beynəlxalq Hasilat Sənayesində Şəffalıq Təşəbbüsünün iştirakçısı olmuşdur və bu Təşəbbüsdə iştirakı tənzimləyən beynəlxalq Standarta uyğun öz hesabatlıq fəaliyyətini həyata keçirirdi. 2017-ci ilin aprelində Azərbaycan bu Təşəbbüsü tərk etmiş, lakin hasilat sənayesində şəffaflıq və hesabatlılığı davam etdirmək niyyətini Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanı [1] ilə bəyan etmişdir. Fərmanda qeyd edildiyi kimi, Azərbaycan Respublikasında hasilat sənayesində şəffaflıq və hesabatlılıq standartlarının tətbiqi aşağıda göstərilmiş beynəlxalq prinsiplər əsasında davam etdirilsin:**

**1.** Təbii ehtiyatlardan əldə olunan gəlirlərin vətəndaşların rifahı və ölkənin milli maraqları naminə idarə olunması suveren dövlətlərin səlahiyyətlərinə aiddir;
**2.** Təbii ehtiyatlardan əldə olunan gəlirlərdən qənaətli istifadə yoxsulluğun azaldılmasına və davamlı iqtisadi inkişafa təkanverən mühüm vasitədir;
**3.** Dövlət orqanlarının fəaliyyətində, özəl sektorda və ictimai münasibətlərdə şəffaflıq və hesabatlılıq standartları təşviq edilməlidir;
**4.** Dövlət hasilat sənayesindən əldə olunan gəlirlərin idarə olunması ilə bağlı vətəndaşlar qarşısında hesabat verməlidir;
**5.** Şəffaflığın artırılmasına müvafiq müqavilə və qanunlara əməl etməklə nail olunmalıdır;
**6.** Hasilat sənayesində fəaliyyət göstərən dövlət və özəl şirkətlər tərəfindən şəffaflığın, o cümlədən dövlətin maliyyə idarəetməsinin və hesabatlılığın gücləndirilməsi təmin olunmalıdır;
**7.** Ölkənin maliyyə şəffaflıq standartları hasilat sənayesində fəaliyyət göstərən bütün şirkətlərə şamil edilməlidir;
**8.** Bu sahədə şəffaflığın tətbiqində dövlət orqanları, hasilat sənayesində fəaliyyət göstərən şirkətlər, beynəlxalq təşkilatlar, maliyyə qurumları, investorlar və qeyri-hökumət təşkilatları da daxil olmaqla, bütün maraqlı tərəflərin iştirakı təmin edilməlidir.

[1] http://www.president.az/articles/23288

Hasilat sənayesində şəffaflığın və hesabatlılığın təmin edilməsi məqsədilə yuxarıda qeyd edilən Fərmanla Azərbaycan Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya (bundan sonra – KOMİSSİYA) yaradılmışdır.

**Hasilat sənayesində şəffaflığın və hesabatlılığın təmin edilməsi ilə bağlı 2017-ci ilin aşağıdakı mühüm hadisələri qeyd edilə bilər:**

**1.** 18.05.2017 tarixdə Komissiyanın Qarşılıqlı Əməkdaşlıq iclası;
**2.** HSŞ proseslərində iştirak etmək niyyətində olan QHT-lərin akkreditasiyası;
**3.** Auditor tərəfindən hazırlanan HSŞ İllik Hesabatının ilkin variantının təhlili üçün İşçi Qrupun yaradılması (4 nəfər QHT nümayəndəsi: İnqilab Əhmədov, Azər Mehtiyev, İlham Şaban, Sabit Bağırov);
**4.** HSŞ İllik Hesabatının ilkin variantını İşçi Qrupun iclaslarında nəzərdən keçirilməsi və tövsiyələrin verilməsi;
**5.** HSŞ İllik Hesabatının Hökumət Komissiyasının 8 dekabr 2017-ci il iclasında təsdiq edilməsi (Şirkətlər Qrupu və QHT-lər Qrupunun iştirakı ilə);
**6**. Hökumət Komissiyasının 8 dekabr 2017-ci il iclasında HSŞ 2018-ci il üzrə Fəaliyyət Planının müzakirəsi;
**7.** Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının böyük məbləğ ayıraraq (200 min AZN) HSŞ ilə əlaqədar xüsusi Qrant müsabiqəsinin elan edilməsi.

Baxmayaraq ki, Azərbaycan Beynəlxal Təşəbbüsü tərk etmiş, Komissiyanın qərarına əsasən İllik Hesabatın hazırlanmasında maksimum dərəcədə 2016-cı Beynəlaxlq Standartın tələblərinə riayət edilməli idi. Qərarın yerinə yetirilməsi səviyyəsinin qiymətləndirilməsi bu Rəyin əsas məqsədi olmuşdur. Qiymətləndirmə zamanı 2016-cı il Beynəlxalq MHŞT Standartından istifadə edilib.

**İllik Hesabatın AHT Platforması ekspertləri tərəfindən təhlili aşağıdakı Rəyə əsas vermişdir:**

“2016-cı il üzrə İllik Hesabat Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanında qoyulan tələblərə cavab verir. İllik Hesabat MHŞT Standartının da əsas tələblərinə cavab verir. Bununla yanaşı, İllik Hesabatların gələcək illərdə dərinləşməsi imkanları var və bu istiqamətdə müvafiq addımlar atılmalıdır”.

Bu Rəyin əsaslandırılması aşağıdakı paraqraflarda təfərrüatı ilə təqdim edilir.

## 1. 2016 - İLLİK HESABATIN "İCMAL" BÖLMƏSİ

**Hesabatın bu birinci bölməsi aşağıdakı altbölmələrdən ibarətdir:**

- Giriş;
- İşin məzmunu;
- Məlumatların məxfiliyi;
- Yanaşma və metodologiya;
- Mühasibatlıq siyasəti;
- Vətəndaş cəmiyyətinin iştirakı.

Azərbaycanın 2015-cı il üzrə MHŞT Hesabatı ilə müqaisədə bu bölmədə əlavə bir altbölmə var: "Vətəndaş cəmiyyətinin iştirakı". Bu altbölmənin əlavə edilməsi onunla izah olunur ki, Azərbaycanın MHŞT-ni tərk etməsi nəticəsində Çoxtərəfli Qrupun fəaliyyətinə xitam verilmişdir. Bu Qrup 2009-cu ildə yaradılmışdır və 2017-ci ilin mart ayı daxil fəaliyyətdə olmuşdur. Çoxtərəfli Qrupun yaradılması prinsipcə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanına zidd olmazdı və ehtimal oluna bilər ki, gələcəkdə belə bir qrup yaradılsın. Çoxtərəfli Qrupun olmaması şəraitində Vətəndaş Cəmiyyəti təmsilçilərinin 2016-cı il üzrə Hesabatda iştirakına aydınlıq gətirmək tələb olunurdu. Bu altbölmədə qeyd edilənlər AHT Platforması tərəfindən təsdiq edilə bilər.

Gələcəkdə Çoxtərəfli Qrup yaradılarsa Beynəlxalq 2016-cı il MHŞT Standartının 1-ci tələbini yerinə yetirmək mümkün ola bilər.

Birinci bölmənin digər alt bölmələrinə də hər hansı irad yoxdur.

## 2. HESABATIN "HÜQUQİ VƏ FİSKAL REJİM" BÖLMƏSİ

**Bu bölmə yeddi altbölmədən ibarətdir: 1) Hasilat sənayesinin icmalı; 2) Hüquqi və fiskal rejim; 3) Hasilat sənayesində lisenziyaların verilməsi; 4) Hasilat sənayesində lisenziyaların reyestri; 5) Müqavilələrin açıqlanması; 6) Benefisiar sahiblik; 7) Hasilat sənayesində dövlətin iştirakı. Qeyd edək ki, bütün bu sahələr üzrə İllik Hesabatlarda məlumatların təqdim edilməsi MHŞT 2016-cı il Standartının ya tələbidir və ya tövsiyəsidir (Müqavilələrin açıqlanması və Benefisiar sahiblik). Ümumiyyətlə, fikrimizcə bu bölməni gələcək hesabatlarda iki bölməyə ayırmaq məqsədə uyğun olar:**

1) "Hüquqi əsaslar və müqavilələrin bağlanması". Bu bölməyə 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı və 7-ci altbölmələri daxil etmək olar;
2) "Kəşfiyyat və hasilat". Bu bölməyə yuxarıda qeyd edilən birinci altbölməni daxil etmək mümkündür.

Bu cür struktur dəyişiklikləri İllik Hesabatın MHŞT Standartının 2-ci və 3-cü tələblərini əhatə etmiş olardı.

**Bölmənin "Hasilat sənayesinin icmalı" altbölməsi** qısa şəkildə neft və qaz sənayesindəki prosesləri izah edir. Eyni zamanda bu bölmədə Azərbaycanın qiymətli metalların yataqları barədə qısa məlumat verilir. Struktur baxımından bu altbölmədəki neft, qaz və qiymətli metallara dair məlumatların fərqli məsələləri əhatə etməsi nəzərə çarpandır. Yəni, neft və qaz sənayesinə dair proseslər barədə məlumat verilir, qiymətli metallara dair isə yataqlar barədə məlumat əks etdirilir. Gələcək Hesabatlarda bu fərqliliyin aradan qaldırılması məntiqə uyğun olardı. Onu da qeyd edək, hasilat sənayesi barədə daha ətraflı məlumat Hesabatın 3-cü bölməsində verilir və bu 2-ci bölmədə çox səti məlumatının verilməsi suallar doğurur.

**"Hüquqi və fiskal rejim" altbölməsində:** 1) Hüquqi rejim; 2) Fiskal rejim; 3) Dövlət Büdcəsinin strukturu; 4) Müvafiq dövlət orqanlarının rolu və vəzifələri; 5) Hasilat sənayesi üzrə əsas yeniliklər; 6) Hasilat sənayesi üzrə mövcud islahatlar barədə məlumatlar əks etdirilir.

"Hüquqi rejim" adlı hissədə təfərrüatlı şəkildə qanunvericilik aktları barədə müvafiq məlumatları əks etdirir. Sual doğuran bir məsələ var ki, bu da qiymətli metallar sahəsində mövcud Fərman və Nazirlər Kabinetinin Qərarları qeyd edilmir.

Bu altbölmədə Fiskal rejimə dair məlumatlar fikrimizcə hasilat sənayesində tətbiq edilən vergi rejimini kifayət qədər dolğun əks etdirir. Bununla yanaşı, Hesabatda müxtəlif vergi növləri üzrə vergi dərəcələrin göstərilməsi Hesabatın daha əhatəli olmasına xidmət edər.

Altbölmənin Dövlət Büdcəsinin strukturuna dair məlumatlar Azərbaycan Respublikasının Dövlət Büdcəsinin, İcmal Büdcəsi komponentləri və Hasilat sənayesinin Dövlət büdcəsi əlaqələri kifayət qədər əhatəli şəkildə əks etdirilir.

Müvafiq dövlət orqanlarının rolu və vəzifələri də Hesabatda kifayət qədər dolğun əks etdirilib. Hesabatın baxımlığı nöqteyi nəzərdən xüsusi olaraq iki diaqramı qeyd olunmalıdır: 1) Təsvir 5a -da təqdim edilən hasilat sənayesi şirkətlərin dövlət qurumları arasında əlaqəni göstərən diaqram; 2) Təsvir 5b-də təqdim edilən dövlət qurumların icra etdiyi rollar.

Bu altbölmənin əks etdirdiyi daha bir sahə "Hasilat sənayesi üzrə əsas yeniliklər"dir. Burada 2016-cı ildə baş verən hadisələr haqqında məlumatlar verilir: 1) Mayın 24-də SOCAR və BP arasında Xəzər dənizinin Azərbaycan sektorunda Şimali Abşeron hövzəsindəki D230 blokunda potensial perspektiv strukturlarda birgə geoloji-kəşfiyyat işlərinin aparılmasına dair Anlaşma Memorandumunun imzalanması; 2) 23 dekabr 2016-cı ildə SOCAR və BP-nin əməliyyatçısı olduğu ABƏŞ (Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri-Çıraq-Günəşli (AÇG) yatağının gələcək işlənməsi üçün niyyət məktubunun imzalanması.

Nəhayət, bu altbölmənin sonunda hasilat sənayesi üzrə 2016-cı ildə həyata keçirilən islahatlar barədə məlumatlar əks etdirilir. Burada Azərbaycan Respublikasının Prezidenti "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərman qeyd edilir. Təsdiq edilən strateji yol xəritələrinin biri də "Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi" olmuşdur. Lakin bu sənəd hələ açıqlanmadığı səbəbindən onun barədə daha ətraflı məlumatın Hesabatda əks etdirilməsi mümkün olmamışdır.

**"Hasilat sənayesində lisenziyaların verilməsi"** altbölməsində öncəki illər üzrə Hesabatlarda olduğu kimi Hasilatın Pay Bölgüsü Sazişinin imzalanması təcrübəsi qeyd edilir. Təəssüflər olsun ki, bu təcrübə hələ ki hər hansı normativ sənəd (Qanun, Prezidentin Fərmanı və ya Nazirlər Kabinetinin Qərarı) qüvvəsinə salınmayıb.

**"Hasilat sənayesində lisenziyaların reyestri" altbölməsində** göstərilir ki, müvafiq normativ sənədlərə əsasən Lisenziyaların və icazələrin Vahid Reyestri İqtisadiyyat Nazirliyi tərəfindən aparılır və bu reyestr açıqdır. Lakin, yenə də mövcud təcrübəyə əsasən neftin və təbii qazın hasilatı üzrə HPBS-lər həmin vahid reyestrdə deyil, ayrıca reyestr kimi HSŞ vebsəhifəsində açıqlanır və burada: 1) Sazişlərin tərəfləri; 2) Sazişlərə əsasən əhatə olunan sahələrin koordinatları; 3) Sazişlərin imzalanma tarixi və qü-

vvədə olma müddəti; 4) Sazişlərə əsasən hasil olunan məhsul əks etdirilir.

**“Müqavilələrin açıqlanması” altbölməsində** HPBS-lərini Milli Məclisdə təsdiq olunması qeyd edilir, lakin açıq olub-olmaması bildirilmir. Halbuku bəzi müqavilələr açıqdır (müvafiq veb-səhifələrdə yerləşdirilib). Prinsipcə bütün müqavilələrin açıqlanmasına müvəffəq olmaq mümkündür, çünki onlar qanun statusundadırlar və bütün digər qanunlar kimi Azərbaycan vətəndaşları üçün açıq olmalıdır. Onu da bir daha qeyd edək ki, Müqavilələrin açıqlanması MHŞT 2016-cı il Standartına əsasən tövsiyə ediləndir.

**“Benefisiar sahiblik” altbölməsi.** Öncə qeyd edək ki, benefisiar sahibliyə dair məlumatların açıqlanması MHŞT 2016-cı il Standartına tövsiyə edilir. Lakin 2020-ci ilin əvvəlindən MHŞT iştirakçısı olan ölkələr üçün bu tələb xarakteri daşıyacaq.

Hazırki Hesabatın bu altbölməsində Azərbaycanda benefisiar sahibliyin açıqlanması ilə əlaqədar vəziyyət açıqlanır, bildirilir ki, qanunvericilik buna imkan vermir. AHT Platforması bu sahəyə diqqətini artıraraq gələcəkdə qanunvericiliyin dəyişməsi istiqamətində səylərini artırmalıdır.

**“Hasilat sənayesində dövlətin iştirakı” altbölməsində:** 1) Ümumi məlumatlar; 2) Dövlət müəssisələrinin müvafiq dövlət qurumları ilə münasibəti; 3) Dövlət müəssisələri ilə dövlət arasında maliyyə axınları; 4) Dövlət müəssisələrinin maliyyə göstəriciləri və hasilat məlumatları; 5) Dövlət müəssisələrinin birgə, asılı və törəmə müəssisələri; 6) Dövlət müəssisələrinə aid olan əməliyyatlar; 7) Xarici bazarlarda fəaliyyətin genişləndirilməsi; 8) Dövlət müəssisələri tərəfindən əldə olunan kreditlər və zəmanətlər əks etdirilir.

Altbölmənin “Ümumi məlumatlar” hissəsində SOCAR və AzerGold QSC haqqında qısa məlumatlar verilir. Daha sonra hər iki müəssisənin dövlət qurumları ilə münasibətləri açıqlanır. Hesabatın məqsədləri üçün açıqlanan məlumatlar kifayətedicidir.

Altbölmənin “Dövlət müəssisələri ilə dövlət arasında maliyyə axınları” hissəsində SOCAR və AzerGold QSC şirkətlərinin Nizamnamə Kapitalına ödənişlər, SOCAR-ın dövlət büdcəsinə, ayrı-ayrı dövlət agentliklərinə və dövlətin həyata keçirdiyi layihələrə köçürmələr və bölüşdürülməmiş mənfəətə dair məlumatlar əks etdirilir. Sual doğuran məqamlardan birini qeyd edək: 31 dekabr 2016-cı ildə SOCAR öz Nizamnamə Kapitalına böyük miqdarda (2159 milyon manat) vəsait keçirib, izahı isə göstərilmir.

Altbölmənin “Dövlət müəssisələrinin maliyyə göstəriciləri və hasilat məlumatları” hissəsində SOCAR-ın 2014, 2015 və 2016-cı illər üzrə Gəlirlər, Ümumi mənfəət, Büdcə ödənişləri,

Nizamnamə kapitalı, neftin və qazın hasilatı və SOCAR-ın ixracı və satış şirkəti olan SOCAR Treydinq haqqında bəzi məlumatlar əks etdirilir. Bəzi məlumatlar müəyyən suallar doğurur ki, onlara cavablar Hesabatı zənginləşdirərdi. Məsələn, 2016-cı ildə SOCAR-ın gəlirləri və mənfəətinin artmasına baxmayaraq büdcəyə ödənişlər xeyli azalmışdır. Başqa sual Nizamnamə kapitalına aiddir. 2016-cı il üzrə Hesabatın hazırki altbölməsinin cari və öncəki hissələrində sual doğuran rəqəmlər göstərilir (2016-cı il üzrə Nizamnamə kapitalı 1802 mln. manat və digər tərəfdən altbölmənin öncəki hissəsində göstərilir ki, 31 dekabrda Nizamnamə kapitalına 2159 mln manat ödənilmişdir). Bunun da izahının verilməsi məqsədə uyğun olardı.

AzerGold QSC haqqında bu hissədə heç bir məlumat verilmir və səbəbi qeyd edilmir.

Altbölmənin "Dövlət müəssisələrinin birgə, asılı və törəmə müəssisələri" hissəsində 2016-cı il ərzində SOCAR-ın törəmə müəssisələri üzrə fəaliyyət növü iştirak payları və bəzi digər məlumatlar əks etdirilir. Cədvəllərdə payların qalan hissələrinin sahibləri də göstərilsə idi məqsədə uyğun olardı.

AzerGold QSC haqqında bu hissədə heç bir məlumat verilmir və səbəbi qeyd edilmir.

Altbölmənin "Dövlət müəssisələrinə aid olan əməliyyatlar" hissəsində SOCAR əməliyyatları barədə qısa təsviri məlumatlar verilir. Rəqəmlərə gəldikdə isə burada Hesabatın digər hissələrindəki cədvəllərə istinad edilir.

AzerGold QSC haqqında bu hissədə heç bir məlumat verilmir və səbəbi qeyd edilmir.

Altbölmənin "Xarici bazarlarda fəaliyyətin genişləndirilməsi" hissəsində Cənub Qaz Dəhlizi, Şahdəniz (SD1 və SD2), Cənubi Qafqaz Boru Kəməri (CQBK), TANAP və TAP layihələri barədə qısa məlumatlar öz əksini tapıb. Hesabatın məqsədləri üçün açıqlanan məlumatlar kifayətedicidir.

Altbölmənin "Dövlət müəssisələri tərəfindən əldə olunan kreditlər və zəmanətlər" hissəsində SOCAR-ın 2016-cı ildə aldığı kreditlər və buraxdığı istiqrazlar barədə məlumatlar əks etdirilir. Yaxşı olardı ki, kreditlərin məqsədləri və şərləri də göstərilsin.

## 3. HESABATIN "HASILAT SƏNAYESİNƏ BAXIŞ" BÖLMƏSİ

Bu bölmə üç altbölmədən ibarətdir: 1) Mədən sənayesinin icmalı; 2) İstehsalı həcmi; 3) İxracatda hasilat sənayesinin payı. Qeyd edək ki, bütün bu sahələr üzrə İllik Hesabatlarda məlumatların təqdim edilməsi MHŞT 2016-cı il Standartının 3-cü tələbidir.

**"Mədən sənayesinin icmalı" altbölməsində** 2016-cı ilə dair: 1) Xəzər dənizinin Azərbaycana aid olan hissəsində və quruda yerləşən neft və qaz yataqlarının xəritəsi, bu yataqların işlədilməsində iştirak edən şirkətlərin adları, müvafiq layihələrdəki payı və payın dəyişib-dəyişməməsi qeyd edilir; 2) qızıl və gümüş yataqlarının xəritəsi və bu yataqlarda işləyən şirkətlərin adları və müvafiq layihədəki payları əks etdirilir. R.V.Investment Group Services xarici şirkət və Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında imzalanmış HPBS-i barədə və "AzerGold" şirkətinin yaradılmasına dair bəzi məlumatlar açıqlanır; 3) neft və qaz yataqlarında mühüm kəşfiyyat işləri qeyd edilir.

**"İstehsalın həcmi" altbölməsində** 2016-cı ildə xarici və yerli hasilat sənayesi şirkətləri tərəfindən Bakıda və regionlarda (Siyazən, Neftçala, Salyan, İmişli, Şirvan) hasil olunan neftin (kondensat daxil olmaqla) və qazın istehsalatın həcmi və məbləği öz əksini tapmışdır. Qızılın, gümüşün, mis və konsentrantların istehsal həcmi və məbləği də bu altbölmədə əks etdirilir.

**"İxracatda hasilat sənayesinin payı" altbölməsində** 9a və 9b cədvəllərindəki fərqlərin səbəbi aydındır (Gömrük rəsmləşdirməsi məsələsi), lakin fərqin böyük olması anlaşılmazdır (xam neftin həcmi üzrə 40%, təbii qazın həcmi üzrə isə 16%) və izahata ehtiyac var.

## 4. HESABATIN "HSŞ HESABATINDA ƏHATƏ OLUNMUŞ VERGİ VƏ GƏLİRLƏR" BÖLMƏSİ

Bu bölmə on altbölmədən ibarətdir: 1) Əhəmiyyətli sayılan ödənişlər; 2) Dövlətə edilən ayırmalar, ödənişlər və onların təsviri; 3) Üzləşmə prosesinin nəticələri; 4) Hasilat sənayesinin şirkətləri; 5) Hasilatda dövlət payının satışı və digər natura şəklində gəlirlər; 6) İnfrastruktur təchizi və barter razılaşmaları; 7) Nəqletmə gəlirləri; 8) Sub-milli köçürmələr; 9) Fərdi hesabatlılıq; 10) Məlumatların etibarlılığı, tamlığı və əminlik prosedurları. Qeyd edək ki, bütün bu sahələr üzrə İllik Hesabatlarda məlumatların təqdim edilməsi MHŞT 2016-cı il Standartının 4-cü tələbidir.

**"Əhəmiyyətli sayılan ödənişlər" altbölməsində** öncəki illərdə Çoxtərəfli Qrupda keçirilmiş müzakirə və təhlillərin nəticəsində təsdiq edilmiş gəlir mənbələri bu Hesabatda da əhəmiyyətli sayılmışdır.

**"Dövlətə edilən ayırmalar, ödənişlər və onların təsviri" altbölməsində** də öncəki illərdə Çoxtərəfli Qrupda keçirilmiş müzakirə və təhlillərin nəticəsində təsdiq edilmiş dövlətə edilən ayırmalar və ödənişlər növü bu Hesabatda da əhəmiyyətli sayılmışdır.

**"Üzləşmə prosesinin nəticələri" altbölməsində** dövlətin və şirkətlərin ilkin hesabatlarında müşahidə edilən fərqlər təqdim edilir və səbəbləri izah edilir. Fərqlərə dair ətraflı izahatlar Hesabatın 7.6 altbölməsində əks etdirilib.

Bu altbölmədə Hasilat sənayesində fəaliyyət göstərən bütün şirkətlərin 2016-cı ildə dövlətə nağd pul vəsaitləri şəklində etdiyi bütün gəlir növləri (Neft hasilatı, Qaz hasilatı, Bonuslar, Tranzit haqqları, Akrhesabı ödənişlər, Mənfəət vergisi, Mədən vergisi, ƏDV, Əmlak vergisi, Torpaq vergisi, Qiymət fərqi, sair vergilər) üzrə ödənişlər qeyd edilir. Eyni zamanda, bu altbölmədə Hasilat sənayesində fəaliyyət göstərən bütün şirkətlərin dövlətə natura şəklində etdiyi bütün gəlir növləri (Xam neft, Təbii qaz, Səmt qazı, Qızıl, Gümüş, Qızıl konsentratı, Gümüş konsentratı, Mis konsentratı) üzrə ödənişlər qeyd edilir.

**"Hasilat sənayesinin şirkətləri" altbölməsində** 2016-cı ildə hasilat sənayesində fəaliyyət göstərən xarici və yerli şirkətlər barədə məlumatlar (adı, Hesabatın təqdim edilməsinə məsul şəxs, VÖEN, şirkətin podratçı olduğu HPBS) təqdim edilir.

**"Hasilatda dövlət payının satışı və digər natura şəklində gəlirlər" altbölməsində** dövlət payının kimə, hansı miqdarda satıldığı və nəticədə nəqədər vəsait əldə olunduğu məbləqlər göstərilir.

**"İnfrastruktur təchizi və barter razılaşmaları" altbölməsində** bildirilir ki, bu növ əməliyyatlar 2016-cı ildə olmayıb.

**"Nəqletmə gəlirləri" altbölməsində** 4 boru kəməri (Bakı-Tbilisi-Ceyhan, Cənubi Qafqaz Boru Kəməri, Qərb İxrac Boru Kəməri, Bakı-Novorossiysk Neft Kəməri) haqqında texniki məlumatlar (boru kəmərinin başlanqıc və son nöqtələri, uzunluğu, operatoru, ötürmə gücü, 2016-cı ildə ixrac həcmi, daşınan maddə) təqdim edilir. Eyni zamanda bu altbölmədə ölkənin tranzitdən əldə etdiyi gəlirləri də əks etdirilir: 1) ARDNF-ə daxil olan gəlirlər; 2) Nəqliyyat sektorunun kəmərlərdən əldə etdiyi gəlirlər və çəkdiyi xərclər.

Bu altbölmədə boru kəmərləri üzrə tariflərin göstərilməsinə ehtiyac duyulur.

**"Sub-milli köçürmələr" altbölməsində** qeyd edilir ki, bu növ köçürmələr Azərbaycanda edilmir.

**"Fərdi hesabatlılıq" altbölməsində** qeyd edilir ki, şirkətlərin fərdi hesabatları Hesabatın 3-cü Əlavəsində əks etdirilir.

**"Məlumatların etibarlılığı, tamlığı və əminlik prosedurları" altbölməsində** dövlətin və şirkətlərin HSŞ çərçivəsində təqdim etdikləri hesabatların etibarlığının təmin edilməsi üsullarında bəhs edilir. Bunlar öncəki il Hesabatında da qeyd edilmişdir. Bu altbölməyə gələcək Hesabatlarda bəzi əlavə məlumatların daxil edilməsi məqsədə uyğun olardı: 1) şirkətlərin keçdikləri beynəlxalq audit barədə məlumatlar (tarix, auditorun adı, auditor rəyinin açıqlandığı mənbə); 2) dövlət qurumlarının Hesablama Palatası tərəfindən auditin nəticələri və açıqlanan rəyin mənbəyi.



## 5. HESABATIN "HASILAT SƏNAYESI GƏLIRLƏRININ VƏ XƏRCLƏRININ BÖLGÜSÜ" BÖLMƏSİ

Bu bölmə iki altbölmədən ibarətdir: 1) Dövlət Büdcəsi və ARDNF-in gəlir və xərclər bölgüsü; 2) Gəlirlərin idarə edilməsi və xərclər. Bu altbölmələrdəki 2014, 2015 və 2016-cı illərə dair məlumatlar rəsmi qurumların məlumatlarına əsaslanır. Məlumatların əhatəliyi Hesabatın məqsədlərinə uyğun və kifayətedicidir. Qeyd edək ki, bütün bu sahələr üzrə İllik Hesabatlarda məlumatların təqdim edilməsi MHŞT 2016-cı il Standartının 5-ci tələbidir.



## 6. HESABATIN "AZƏRBAYCAN İQTISADIYYATINA HASILAT SƏNAYESININ TÖHFƏSI" BÖLMƏSİ

Bu bölmə yeddi altbölmədən ibarətdir: 1) Sosial xərclər; 2) Kvazifiskal xərclər; 3) ÜDM-nin istehsal və sahə strukturları; 4) Hasilat sənayesindən əldə edilən dövlət gəlirləri; 5) Hasilat sənayesində məşğulluq; 6) Ümumi hasilatın həcmi və cəmləşdiyi rayonlar (ərazilər); 7) Digər məlumatlar. Qeyd edək ki, bütün bu sahələr üzrə İllik Hesabatlarda məlumatların təqdim edilməsi MHŞT 2016-cı il Standartının 6-cı tələbidir.

"Sosial xərclər" altbölməsinə əsasən, SOCAR-ın 2016 ildə sosial xarakterli xərcləri 146 milyon manat həcmində olmuşdur. Bildirilir ki, SOCAR-ın sosial fəaliyyəti 5 istiqamətdə həyata keçirilir: 1) Xeyriyyə və sponsor yardımı; 2) İşçilərin sosial rifahına dəstək; 3) Cəmiyyət ilə əlaqələrin qurulması; 4) Torpaq sahələrinin istifadəsi və məcburi köçkünlər; 5) İdmana, təhsilə və mədəniyyətə dəstək. Lakin, təəssüf ki, bu xərclər istiqamətləri arasında 146 milyon vəsaitin necə paylaşdığı göstərilmir. Açıqlanan yalnız 8078,8 min manat həcmində xeyriyyə, sosial və sponsorluq yardımlarıdır. Bilinmir ki, bu xərclər SOCAR-ın mənfəətindən mi ayrılır. O da aydın olmur ki, SOCAR-ın sosial xərcləri hansı dövlət qurumu tərəfindən təsdiqlənir. Növbəti 2017-ci il üzrə HSŞ İllik Hesabatına bu məlumatların əlavə edilməsi məqsədəuyğun olardı.

Altbölmədə BP-nin də sosial layihələrə 2016-cı ildə ayırdığı 1.51 milyon manat qeyd edilir. Digər hasilat sənayesi şirkələrinin sosial layihələrə xərcləri Hesabatda əks etdirilmir.

"Kvazifiskal xərclər" altbölməsində kvazifiskal xərclərin mahiyyəti və SOCAR-ın bu sahədə fəaliyyəti barədə bəzi məlumatlar verilir. Fikrimizcə bu altbölmədə daha detallı məlumatlar açıqlanmalıdır və SOCAR-ın müvafiq xərclərinin hansı normativ sənədlərə əsaslandığı göstərilməlidir.

"ÜDM-nin istehsal və sahə strukturları", "Hasilat sənayesindən əldə edilən dövlət gəlirləri", "Hasilat sənayesində məşğulluq" və "Ümumi hasilatın həcmi və cəmləşdiyi rayonlar (ərazilər)"altbölmələrində təqdim edilən məlumatlar dövlət və şirkətlərin rəsmi açıqlamalarına əsaslanır. Bu altbölmələrdəki məlumatlar Hesabatın məqsədləri baxımından kifayətedici sayıla bilər.

"Digər məlumatlar" altbölməsində 2016-cı ildə, neft və qaz və qeyri-neft sektorunda əsas kapitala investisiyalar barədə məlumatlar əks etdirilir. İnvestisiyaların yerli və xarici mənbələr arasında paylaşması da altbölmədə əksini tapmışdır. Fikrimizcə bu altbölmədəki məlumatların genişləndirilməsi Hesabatı zənginləşdirərdi.

## 7. HESABATIN "ÜZLƏŞDIRMƏ" BÖLMƏSİ

Bu bölmə yeddi altbölmədən ibarətdir: 1) Gəlir növləri üzrə üzləşmə prosesi (xarici şirkətlər); 2) Hasilat sənayesi şrkətləri üzrə üzləşmə (xarici şirkətlər); 3) Hasilat sənayesi şrkətləri üzrə üzləşmə prosesi (yerli şirkətlər üzrə); 4) Gəlir növləri üzrə üzləşmə prosesi (yerli şirkətlər); 5) Hasilatın pay bölgüsü sazişləri üzrə dövlətə köçürülən gəlirlər; 6) Düzəlişlər. Bu bölmədə üzləşdirmə prosesinin nəticələri əks etdirilir. Üzləşdirmə prosesində hasilat sənayesi şirkətləri tərəfindən ödənilmiş və dövlət orqanları tərəfindən alınmış məbləğlər və həcmlər Auditor tərəfindən müqaisə edilərək fərqlər müəyyənləşdirilir və onların səbəbləri təhlil edildikdən sonra müvafiq korrektələr edilir. Bu bölmədə təqdim edilən cədvəllərdə, beləliklə, həm ilkin məlumatlar (şirkətlər və dövlət tərəfindən auditora təqdim edilmiş), həm fərqlər (varsa), həm də yekun rəqəmlər əks etdirilir.

Təqdim edilən cədvəllərdən aydın olur ki, bəzi xarici şirkətlər (Azərbaycan (AÇG) Limited, Azərbaycan (Şah Dəniz) Limited, Azərbaycan (Şah Dəniz) Limited, Lukoyl Oversiz Shah Deniz, Petronas Azerbaijan Shah Deniz S.A.R.L, SGC Upstream MMC) pul ödənişlərinə dair öz ilkin məlumatlarında (auditora təqdim edilən) səhvlərə yol veriblər. Dövlət qurumlarının auditora təqdim etdikləri hesabatlarda (pul şəklində gəlirlərə dair) səhvə yol verilməmişdir.

Natura şəklində təhvil verilən xam neft həcmlərinə dair xarici şirkətlərin ilkin hesabatlarında səhvlərə yol verilməyib. Natura şəklində təhvil verilən təbii qazın həcminə dair də xarici şirkətlərin ilkin hesabatlarında səhvlərə yol verilməyib. Natura şəklində təhvil verilən səmt qazın həcminə dair isə xarici şirkətlərin ilkin hesabatlarında səhvlərə yol verilib. Səhv ilkin məlumatlar təqdim edən bu xarici şirkətlər olmuşlar: Abşeron İnvestment Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Karasu Development Company.

Natura şəklində dövlətə təhvil verilən qızıl, gümüş, qızıl konsentratı, gümüş konsentratı və mis üzrə R.V.Investment Group Services xarici şirkətin və dövlətin auditora təqdim etdikləri hesabatlarda hər hansı fərq müəyyənləşdirilməmişdir.

Bölmədə yerli hasilat sənayesi şirkətləri və dövlət qurumları tərəfindən təqdim olunan ödənişlərin məbləğləri barədə də məlumat əks etdirilir. Müvafiq cədvəldən bəlli olur ki, ilkin hesabatında AzGerneft səhvə yol verib.

Gəlir növləri üzrə (Mənfəət vergisi, Royalti, ƏDV, Əmlak vergisi, Torpaq vergisi, Qiymət fərqi üzrə yığımlar, sair vergilər) ilkin hesabatlarında yerli şirkətlər bəzi səhvlərə yol vermişlər.

Cari bölmənin "Hasilatın pay bölgüsü sazişləri üzrə dövlətə köçürülən gəlirlər" altbölməsində neft, qaz, qiymətli metallar yataqlı üzrə şirkətlər tərəfindən dövlətə edilən ödəşlər əks etdirilir.

Cari bölmənin "Düzəlişlər" altbölməsində üzləşdirmə prosesində aşkarlanmış fərqlərin izahı və düzəlişləri qeyd edilir.

Bu bölmədəki məlumatlar Hesabatın məqsədləri baxımından kifayətedici sayıla bilər.

## 8. HESABATIN "XÜSUSİ YOXLAMA PROSEDURLARI" BÖLMƏSİ

**Hesabatda qeyd edildiyi kimi, xüsusi yoxlama prosedurları üzləşmə prosesində iştirak edən şirkətlərin hesabatları barədə əminlik əldə etmək məqsədilə həyata keçirilmişdir. Təsadüfi seçim yolu ilə 5 şirkət (Lukoyl Oversiz Shah Deniz, Shirvan Investments Limited, Türkiye Petrolleri Anonim Ortaqlığı, Türkiş Petroleum Oversiz Kompani Ltd və Novatis Oyl F.Z.E.) müəyyənləşdirilmiş və bu şirkərin aşağıda göstərilən müvafiq sənədləri nəzərdən keçirmişdir:**

- Mənfəət Vergisi Bəyannamələri;
- Ödəniş tapşırıqları;
- Köçürmələrə dair lazımi olan qurumlara məktublar;
- Üzləşmə aktları;
- Təhvil verilən qazın aktları.

Bu sənədlərin yoxlanılması zamanı şirkətlər tərəfindən dövlətə ödənilməli olan məbləğlər təsdiq olunmuşdur.

Bu bölmədəki məlumatlar Hesabatın məqsədləri baxımından kifayətedici sayıla bilər.

## 9. HESABATIN "TÖVSİYƏLƏR VƏ NƏTİCƏLƏR" BÖLMƏSİ

Bu bölmədə auditor qeyd edir ki, 2016–cı il üzrə hesabatın hazırlanması keçən illərin təcrübəsinə əsaslanaraq tərtib edilmişdir. Şirkətlərin hesabatları doldurarkən eyni səhvlərə yol verdikləri müşahidə edilmişdir. Səhvlər əsasən, məlumatların hesabata daxil edilməməsi, kassa metodu əvəzinə hesablama metodundan istifadə edilməsi və aid olmayan həcmlərin daxil edilməsi olmuşdur.

Bu bölmədə Auditor şirkətlər tərəfindən hesabatların təqdim etmə müddətini pozduqlarını qeyd edir. Sosial xərclərin yalnız iki şirkət tərəfindən açıqlanmasını qeyd edərək auditor tövsiyə edir ki, HSŞ Komissiyası müvafiq addımlar atsın.

Auditor onu da tövsiyə edir ki, şirkətlər və dövlət qurumlarının hesabatları kənar auditor tərəfindən təsdiq edilsin.

## 10. AHT PLATFORMASININ YEKUN RƏYİ VƏ TÖVSİYƏLƏRİ

**İllik Hesabatın AHT Platforması ekspertləri tərəfindən təhlili aşağıdakı Rəyə əsas vermişdir:**

"2016-cı il üzrə İllik Hesabat Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1315 nömrəli Fərmanında qoyulan tələblərə cavab verir. İllik Hesabat MHŞT Standartının da əsas tələblərinə cavab verir. Bununla yanaşı, İllik Hesabatların gələcək illərdə dərinləşməsi imkanları var və bu istiqamətdə müvafiq addımlar atılmalıdır".

**Azərbaycan HSŞ İllik Hesabatlarının gələcəkdə təkmilləşdirilməsinə dair tövsiyələr:**

**1.** HSŞ Hökumət Komissiyası, Şirkətlər Qrupu və Vətəndaş Cəmiyyəti Təmsilçiləri Qrupu arasında HSŞ tətbiqinə dair Anlaşma Memorandumu imzalanması məsələsi nəzərdən keçirilməli və məqsədə uyğun görünərsə bu Memorandumun 2018-ci ilin birinci yarısında imzalanması istiqamətində müvafiq addımlar atılmalıdır;
**2.** HSŞ tətbiqi üzrə Azərbaycan Standartı hazırlanmalıdır. Bu Standart MHŞT 2016-cı il Standartına maksimum yaxın olmalıdır;
**3.** Hasilat Sənayesində icazələrin verilməsi (HPBS-lərin hazırlanması və imzalanması) praktikası müvafiq normativ sənədlə (Qanun, Prezidentin Fərmanı və ya Nazirlər Kabinetinin Qərarı) təmin edilməlidir;

**4.** HS üzrə bütün HPBS-lərin tam şəkildə açıqlanması təmin edilməlidir;
**5.** HSŞ və benefisiar sahiblik: digər ölkələrin təcrübəsinin təhlili və təcrübələrdən Azərbaycanda istifadəyə dair təkliflərin hazırlanması təmin edilməlidir;
**6.** HSŞ hesabatlılığının elektron hökumət sisteminə inteqrasiyası yollarının araşdırılması və təkliflərin hazırlanması təmin edilməlidir;
**7.** "Qızıl qayda" üzrə digər ölkələrin təcrübələrinin təhlili və Azərbaycan üçün təkliflərin hazırlanması istiqamətində addımlar atılmalıdır.

## 11. PLATFORMA HAQQINDA

09 sentyabr 2016-cı il tarixdə "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq Azərbaycanda Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması təsis olunub. "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev Platformanın koordinatoru seçilib.

Platformanın yaradılması zamanı OGP prinsipləri və tövsiyyələri əsas götürülüb.

### AÇIQ HÖKUMƏT PLATFORMASINDA TƏMSİL OLUNAN QHT-LƏR:

**1.** "Konstitusiya" Araşdırmalar Fondu
**2.** Sahibkarlıq və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu
**3.** Şəffaflıq Azərbaycan İB
**4.** Korrupsiyaya Qarşı Mübarizə Fondu
**5.** "Hüquq və İnkişaf" İB
**6.** "Demokratiyanı Öyrənmə" İB
**7.** Neftçilərin Hüquqlarını Müdafiəsi İB
**8.** "Mülki Cəmiyyətə Doğru" İB
**9.** "Güzəran" Sosial Araşdırmalar İB
**10.** "Jurnalist Ekspert Mərkəzi"
**11.** "İnternyus Azərbaycan" İB
**12.** Avrasiya Əməkdaşlıq Fondu
**13.** "Media və Mülki Cəmiyyət" İB
**14.** "Qadınlar Arasında Həmrəylik" İB
**15.** "Ümid" Sosial İnkişafa Dəstək İB

**16.** "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İB
**17.** Regional İnsan Hüquqları və Media Mərkəzi İB
**18.** İnformasiya, Təhlil və Planlaşdırma İB
**19.** D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüququnun Müdafiə Cəmiyyəti
**20.** İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İB
**21.** Beynəlxalq İnsan Haqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsi
**22.** İqtisadi və Sosial İnkişaf Mərkəzi İB
**23.** Humanitar Tədqiqatlar İB
**24.** Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu
**25.** Beynəlxalq Avrasiya Mətbuat Fondu
**26.** Rasional İnkişaf Uğrunda Qadınlar Cəmiyyəti
**27.** Demokratik Seçki Mərkəzi İB
**28.** Hərbi mövzuda ixtisaslaşmış jurnalistlər İB
**29.** "İslahatçı gənclər" İB
**30.** "Vətəndaş cəmiyyəti uğrunda" İB
**31.** "Hüquqi Düşüncə" İB
**32.** "Multimedia" İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzi
**33.** Gənclər üçün Təhsil Mərkəzi İB
**34.** "Gənc Vətəndaş" Maarifləndirmə İB
**35.** "Bələdiyyələrin İnkişafına Yardım" İB
**36.** Azərbaycan Əlil Təşkilatları İttifaqı
**37.** "Təmiz Dünya" Qadınlara Yardım İB
**38.** Demokratik İslahatçı Gənclər İB

Açıq Hökumət Platforması Azərbaycanda "Açıq hökumət" təşəbbüslərinin tətbiqi ilə bağlı vətəndaş cəmiyyəti ilə məsləhətləşmə (konsultasiya) mexanizmi kimi çıxış edir.

Platformanın İdarə olunması qaydaları kollegial idarəetmə prinsipləri, üzvlərin hüquqbərabərliyi, şəffaflıq,hesabatlılıq, səlahiyyətlədnirmə və cavabdehlik prinsipləri əsas götürülməklə onun Əsasnaməsi ilə müəyyənləşib. [2]

2 http://ogp.org.az/az/wp-content/uploads/2017/03/Platformanin_Esasnamesi_Son_variant-2.pdf

# AZƏRBAYCAN RESPUBLİKASININ HASİLAT SƏNAYESİNDƏ ŞƏFFAFLIQ ÜZRƏ 2016-CI İL HESABATINA VƏTƏNDAŞ CƏMİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN RƏYİ

## QISA TARİX

Azərbaycan hökuməti 2017-ci ilin martında Mədən Hasilatında Şəffaflıq Təşşəbüsünü tərk etdikdən sonra Hasilat Sənayesində Şəffaflıq üzrə ilk hesabatını açıqlayıb. Hesabat 2016-cı ili əhatə edir. Beləliklə, dünyada ilk dəfə olaraq MHŞT üzvü olmayan ölkə ictimaiyyət üçün ümümən bu təşəbbüsün formatına və tələblərinə uyğun hesabatını hazırlayaraq təqdim edib.

Xatırladaq ki, MHŞT-ni tərk etdikdən sonra 5 aprel 2017-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya yaradılmış və Komissiyanın sədrliyi Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) icraçı direktoruna (MHŞT dövründə hökumət komissiyasının və Çoxtərəfli Qrupun sədri) həvalə edilmişdi. Komissiyaya həmçinin 6 aidiyyəti hökumət qurumunun nazir müavinləri səviyyəsində məsul şəxsləri daxil edilmişdi (http://az.president.az/articles/23288 ).

Fərmanda Azərbaycan Respublikasında hasilat sənayesində şəffaflıq və hesabatlılıq standartlarının tətbiqinin beynəlxalq prinsiplər əsasında davam etdirilməsi xüsusi olaraq vurğulanmış, həmçinin digər maraq qrupları ilə yanaşı qeyri-hökumət təşkilatlarının hesabatlılıq prosesinə cəlb edilməsi vacib şərt kimi qeyd edilmişdi.

Fərmanın məzmunu və yaradılmış Komissiyanın ardıcıl işləri, habelə hesabatın zamanında ortalığa çıxarılması, onun hazırlanması prosesində vətəndaş cəmiyəti nümayndələrinin iştirakı (bu məqsədlə dəvət edilmiş və ARDNF-da qeydiyyatdan keçmiş QHT üzvlərinin sayı 43 təşkilat və fərddən ibarət olub) onu nümayiş etdirir ki, hökumət hasilat sənayesində şəffaflıq və hesabatlılıq prosesini davam etdirməkdə maraqlıdır. Həm də bu prosesdə şirkətlər və QHT nümayəndələri ilə birgə çalışmaqda davam edir.

MHŞT-ni tərk etdikdən sonra yerli və beynəlxalq ictimaiyyətin gözləntilərindən biri belə idi ki, hökumət ümumiyyətlə şəffaflıq və hesabtlılıq işinə xitam verib bu istiqamətdə fəaliyyətini dayandıracaq. Amma belə gözləntilərin əksinə olaraq hökumət məlum hesabatlılıq və şəffaflıq prosesini müstəqil şəkildə davam etdirmək qərarını verdi ki, bu da, heç şübhəsiz, təqdirəlayiq sayılmalıdır. Eyni zamanda hesabatın hazırlanması prosesində, habelə onun ilkin variantının təkmilləşdirilməsi istiqamətində QHT nümayəndələri və ekspertlərlə səmərəli əməkdaşlıq pozitiv qiymətləndirilməlidir.

Beləliklə, yeni Şəffaflıq hesabatının hazırlanması zamanı hökumətin məsul qurumunun (ARDNF) MHŞT dövründə olduğu kimi qalması, hesabatı hazırlayan auditor şirkətinin (müstəqil auditorun) dəyişməməsi (artıq

10 ildən çoxdur ki, MHŞT hesabatını "Moore Stephens Azerbaijan" şirkəti hazırlayır) və, nəhayət, hesabatın təkmilləşdirilməsi üçün yaradılan üçtərəfli İşçi Qrupuna QHT nümayəndələrinin də cəlb edilməsi formal olaraq hesabatın həm formasında, həm də məzmununda, habelə bütövlükdə ölkənin hasilat sənayesində şəffaflıq və hesabatlılıq işində prinsipial olaraq çox şeyin dəyişmədiyi təəssüratını yaradır.

Bununla yanaşı, xüsusi olaraq qeyd edilməlidir ki, hazırkı durum MHŞT statusundan fəqlidir. Əgər MHŞT 3 maraqlı tərəfin (hökumət, şirkət və vətəndaş cəmiyyəti) çoxtərəfli qrup kimi birgə qərar qəbuletmə prinsipinə əsaslanırdısa, hazırda şəffaflıq və hesabtlılığa məsul yalnız hökumətdir. Hökumət Komissiyasının digər maraq tərəflərini, o cümlədən QHT nümayəndələrini prosesə cəlb etməsi nə qədər təqdirəlayiq olsa da, vətəndaş cəmiyyəti hazırda yalnız müşahidəçi statusuna malikdir.

Rəyin müəllifləri bir daha şahidi oldular ki, hesabatın təkmilləşdirməsi yönümündə onların irad və təkliflərinin nəzərə alınmasına baxmayaraq, MHŞT təcrübəsi ilə müqayisədə institusional fərqlilik və hətta ziddiyət mövcuddur. Belə ki, Vətəndaş cəmiyyətinin (VC) qərar qəbul etmədə şəffaflığı və etibarlılığı təmin etmək missiyası kimi vacib statusu hazırkı formata uyğun gəlmir.

Hökumətin vətəndaş cəmiyyəti ilə sıx əməkdaşlığı davam etdirmək niyyəti və MHŞT Standartına uyğun hesabatlılıq əzmi ümid yaradır ki, Azərbaycan yenə də bu beynəlxalq təşəbbüsün üzvlüyünə qayıda bilər. Təbii ki, VC təsisatları üçün bu arzuolunandır və onlar bu istiqamətdə səylərini davam etdirməlidir.

## MHŞT HESABATLARINDAN FƏRQLİLİK

Yuxarıda qeyd edildiyi kimi, hesabatın məzmunu MHŞT hesabatlarından demək olar ki, heç nə ilə fərqlənmir. Amma forma və struktur baxımından MHŞT hesabatından fərqli olaraq hazırkı hesabat Azərbaycan Hasilat Sənayesinin MHŞT Standartının tələblərinə uyğunluğunu özündə ehtiva etmir. Baxmayaraq ki, ardıcıllıq və məzmun prinsip etibarı ilə qorunub saxlanmışdır. Onu da qeyd etmək lazımdır ki, hesabatın ilkin variantının Komissiyada müzakirəsi, habelə isçi qrupu yaradılmaqla hesabatın təkmilləşdirilməsi VC nümayəndələrinin aktiv iştirakı ilə keçmişdir. VC nümayəndələri irad və təkliflərini bildirmiş, bəzilərinin hesabatda əksini tapmağına nail olmuş, amma bir qisminin ayrı-ayrı səbəblər üzündən reallaşmasına nail ola bilməmişlər.

Öncəki təcrübədə olduğu kimi, biz, bir qrup müstəqil VC nümayəndəsi, hesabatın təkmilləşdirilməsi istiqamətində irad və təkliflərimizi bu rəydə qeyd etməyi zəruri saydıq və ümid

edirik ki, növbəti hesabatda bu rəy və iradlar nəzər alınacaq.

Hesabatda "Vətəndaş Cəmiyyətinin İştirakı" bölümü əksini tapmışdır ki, bu da, yuxarıda qeyd edildiyi kimi, hazırda Azərbaycanın MHŞT formatından kənar hesabatlılığı, ÇTQ-nin mövcud olmaması və bu səbəbdən VC-nin prosesdə iştirakını tənzimləyən müddəaya ehtiyacın olması zərurətindən irəli gəlir. Fikrimizcə, növbəti hesabatda bu bölüm daha da təkmilləşdirilməli və VC-nin hesabatlılıq prosesində iştirakının daha dəqiq səlahiyyətləri əksini tapmalıdır.

MHŞT hesabatından fərqli olaraq hazırkı hesabatda "Hasilat Sənayesi şirkətlərinin dövlət qurumları ilə rolu" təsviri əlavə edilib ki, bu da kənar oxucu üçün faydalı məlumat sayıla bilər.

Başqa tərəfdən MHŞT-nin son hesabatlarında yaxşı ənənəyə çevrilən "Tövsiyyələrin icrası cədvəli" məlum səbəbdən (ÇTQ-nin mövcud olmaması, hesabatlılığın Komissiya formatına keçidi) hazırkı hesabatda yoxdur. Növbəti hesabatda hazırkı rəydən irəli gələn irad və təkliflər, onların icrası ilə bağlı vəziyyətin əksini tapması yaxşı olardı.

## HÜQUQİ VƏ FİSKAL REJİM

**Hesabatdakı "Hüquqi rejim" altbölməsi demək olar ki, 2015-ci il MHŞT Hesabatında olduğu kimi təkrar verilib. Yalnız "Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 5 aprel 2017-ci il tarixli Fərmanı əlavə edilib. Halbuki əvvəlki illər üzrə MHŞT Hesabatına MSŞA QHT Koalisiyanın rəylərində dəfələrlə vurğulanmışdı ki, hesabatda təqdim olunan normativ aktlar ölkənin hasilat sənayesindəki prosesləri tənzimləyən hüquqi sənədlərin tam siyahısı deyil və həmin siyahının tamamlanmasına ehtiyac var. Məsələn:**

- **Yerin təkindən istifadənin dövlət tənzimlənməsi barədə Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2003-cü il tarixli 975 saylı Fərmanı** – Bu Fərmanla "Yer təkinin istifadəyə verilməsi üzrə müsabiqə və hərracların keçirilməsi qaydaları və şərtləri haqqında Əsasnamə" təsdiq edilib. Bu Əsasnamə "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmışdır və yer təkinin istifadəyə verilməsi üzrə müsabiqə və hərracların keçirilməsi qaydalarını və şərtlərini müəyyən edir;

- **Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri Layihəsində dövlətə məxsus payların idarə edilməsinin təkmilləşdirilməsi tədbirləri barədə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 22 iyul tarixli Fərmanı** – bu Fərman BTC Əsas İxrac Boru Kəməri ilə bağlı fiskal münasibətləri tənzimləyən normativ sənəddir.

## LİSENZİYALAR VƏ SAZİŞLƏR

Hesabatın "Hüquqi rejim" bölməsində qeyd edildiyi kimi (səh. 29), hazırda Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində yer təkinin öyrənilməsi (axtarış, kəşfiyyat), onun səmərəli istifadəsi, mühafizəsi və görülən işlərin təhlükəsizliyi ilə əlaqədar münasibətləri tənzimləyən əsas normativ-hüquqi sənədlərdən biri "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanunu (13 fevral 1998-ci il, № 439-IQ) hesab olunur. Bu Qanunun "Yer təkinin istifadəyə verilməsi" adlı 13-cü maddəsində təsbit olunub ki, "Yerin təki istifadəyə müsabiqə, hərrac və birbaşa danışıqlar əsasında verilir. Yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi istisna hallarda müvafiq icra hakimiyyəti orqanının qərarı əsasında həyata keçirilir". Qanunun qəbul edilməsindən 20 ilə yaxın bir zaman keçməsinə baxmayaraq, yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsini nəzərdə tutan müstəsna hallar hələ də qanunvericiliklə dəqiqləşdirilməyib.

Məlum olduğu kimi, Azərbaycanda xam neft, təbii qaz və əlvan metallar (qızıl) hasilatı üzrə yerin təkinin istifadəyə verilməsi əsasən birbaşa danışıqlar yolu və Hasilatın Pay Bölgüsü Sazişləri əsasında həyata keçirilir. Hesabatın "Hasilat sənayesində lisenziyaların verilməsi" bölməsində vurğulanır ki, Azərbaycan Respublikasında hasilatın pay bölgüsü sazişlərinin ("HPBS") əhatə etdiyi məsələləri tənzimləyən ayrıca xüsusi qanun mövcud deyil və potensial investorun seçim meyarları qanunvericilikdə nəzərdə tutulmamışdır (səh. 44).

2013-cü il üzrə ölkənin MHŞT Hesabatından başlayaraq bütün hesabatlarda bu müddəa təkrarlanır. Əslində bu hesabatların hədəflədiyi başlıca məsələ hasilat sənayesinin idarə edilməsində olan problemlərin (yaxud boşluqların) aşkara çıxarılması və bunların aradan qaldırılması istiqamətində islahatların aparılmasıdır. Amma artıq neçə ildir ki, ölkənin şəffaflıq hesabatında bu məsələ əks olunsa da, qeyd edilən problemin aradan qaldırılması və müvafiq hüquqi aktların (məsələn, HPBS haqqında qanunun və s.) hazırlanması ilə bağlı indiyədək hökumətin heç bir təşəbbüsü ortada yoxdur.

HPBS-nin hazırlanması, imzalanması, qüvvəyə minməsi və icrası üzrə bütün hüquqi prosedurları əhatə edən ayrıca qanunverici aktın olmaması təcrübədə bütün belə sazişlərə münasibətdə vahid yanaşmanın olmamasına, ayrı-ayrı sazişlərə münasibətdə xeyli fərqli yanaşmaların tətbiqinə gətirib çıxarır. Belə ki, tanınmış iri beynəlxalq hasilat şirkətləri ilə hansısa yataqların kəşfiyyatı və işlənilməsi üzrə danışıqlara başlanan kimi ictimaiyyət bu barədə məlumatlandırılsa da, nisbətən kiçik və tanınmamış şirkətlərlə bağ-

lanan HPBS haqqında məlumatlar ən yaxşı halda belə sazişlərin imzalanması zamanı, bəzi hallarda isə hətta bunların Milli Məclisdə ratifikasiyası zamanı açıqlanır. Həm də bu zaman açıqlanan informasiya çox məhdud həcmdə olur: sazişdə iştirak edən şirkətlər və onların bu sazişlərə cəlb edilməsinin əsaslandırılması barədə məlumatlar ictimaiyyətə təqdim olunmur.

HPBS haqqında qanunun olmaması həm də belə sazişlərə yenidən baxılması yaxud müddətinin uzadılması halları ilə bağlı məsələlərin tənzimlənməsində də qeyri-müəyyənliklərə gətirib çıxarır. Rəy verdiyimiz bu Hesabatın "Hasilat sənayesi ilə üzrə əsas yeniliklər" altbölməsində (səh. 43) qeyd olunub ki, "23 dekabr 2016-cı ildə SOCAR və BP-nin əməliyyatçısı olduğu ABƏŞ Azəri-Çıraq-Günəşli (AÇG) yatağının 2050-ci ilədək gələcək işlənməsinə dair razılaşmanın prinsiplərini imzalanmışdır". Bu Hesabat təsdiq ediləndə artıq bəlli olduğu kimi, haqqında söhbət gedən sazişin yenilənməsi və 2050-ci ilədək müddəti əhatə edən yeni saziş 2017-ci ilin 14 sentyabr tarixində artıq imzalanmışdı.

Məlumdur ki, Azərbaycanın ilk beynəlxalq neft sazişi olan və "Əsrin müqaviləsi" adı ilə tarixə düşən AÇG sazişi 1994-cü ilin sentyabrın 20-də imzalanmışdı və 5 il uzadılma mümkünlüyü nəzərə alınmaqla 25 il müddətinə nəzərdə tutulmuşdu. Sazişin müddətinin başa çatmasına hələ kifayət qədər (7 il) zaman qalmasına rəğmən mövcud sazişin şərtlərinə yenidən baxılması və 33 illik müddətə yeni sazişin imzalanmasının hansı hüquqi əsaslara söykənməsi qeyri-müəyyən olaraq qalır. Təbii ki, belə bir sual meydana çıxır: bu, yalnız AÇG Sazişinə tətbiq olunan istisna bir haldır, yoxsa başqa sazişlərə də şamil olunması mümkündür?

Yeri gəlmişkən qeyd edək ki, "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində ("Yerin təkindən istifadənin müddətləri") qeyd olunur ki, "Yerin təki geoloji öyrənilmə üçün - 5 ilədək müddətə, faydalı qazıntıların çıxarılması üçün - 25 ilədək müddətə, göstərilən istifadə növləri birləşdirildikdə isə 30 ilədək müddətə istifadəyə verilə bilər". Həmin maddədə həm də vurğulanır ki, "Yer təkinin istifadəçisi xüsusi razılıq və ya icazə şərtlərini yerinə yetirərsə, tərəflərin razılığı ilə yerin təkindən istifadənin müddəti uzadıla bilər". Lakin Qanunda belə sazişlərin uzadılma müddəti haqqında konkret hədd göstərilməyib.

Hələ əvvəlki hesabatlardan məlum olduğu kimi, ölkəmizdə fəaliyyətdə olan HPBS-nə qoşulmuş aktiv şirkətlərin reyestri tərtib edilmiş və açıq mənbədə dərc edilərək ictimaiyyətə təqdim olunmuşdur (www.eiti.az/index.php/en/senedler-2/registration-of-licenses ). Amma 2016-cı il üzrə Hesabatda nədənsə bu barədə məlumat verilməyib.

Təcrübədə ayrı-ayrı HPBS-nə fərqli yanaşmanı nümayiş etdirən başqa bir hal da imzalanmış və fəaliyyətdə olan sazişlərin açıqlanması ilə bağlıdır. Hesabatda qeyd edilir ki, Azərbaycanda hasilat sənayesində şəffaflıq üzrə görülmüş tədbirlər çərçivəsində 6 (altı) HPBS-nin mətni ictimaiyyətə açıqlanmışdır (səh. 47). Digərlərinin açıqlanmaması həmin sazişlərdə iştirak edən şirkətlərin sazişlərdə olan məxfilik və kommersiya sirri tələblərinə istinad edərək bundan imtina etməsi ilə əlaqələndirilir. Əslində ölkədə fəaliyyətdə olan HPBS-nin hamısı eyni təcrübəyə və oxşar müddəalara əsaslanırsa, onda belə sazişlərin bir qrup şirkətlər tərəfindən açıqlanması, digərləri tərəfindən isə kommersiya sirrinə istinad olunaraq indiyədək açıqlanmaması başa düşülən deyil. Məhz bu hal açıqlanmayan sazişlərə və bunların iştirakçısı olan şirkətlərə münasibətdə cəmiyyətdə etimadsızlıq yaradır, habelə onlarla bağlı ictimaiyyətdə əsaslı-əsassız şübhələrin yaranmasına gətirib çıxarır.

## MƏDƏN SƏNAYESİNİN İCMALI

Hesabatdakı "Neft və qaz sənayesi" alt bölümü eynilə 2015-ci ildəki MHŞT Hesabatında dərc edilmiş məlumatdır. Hətta "Neft və qaz yataqlarının xəritəsi" əvvəlki hesabatlarda olduğu kimi təkrarlanır. Halbuki 2016-cı ildə imzalanmış Hasilatın Pay Bölgüsü Sazişləri üzrə yataqları bu xəritə üzərində əks etdirərək, onu təkmilləşdirmək mümkün idi.

Bu bölümün əsas diqqət çəkən hissəsi ölkədə olan karbohidrogen yataqları, onların hansı hissəsinin dənizdə, hansının quruda yerləşməsi, neft və qaz yataqlarının hazırda istismarda olunanları və bunlar içərisində istehsal gücünə görə fərqlənənlərin qabardılması olardı. Təəssüf ki, hesabatın hazırlanması zamanı belə vacib amil diqqətdən kənarda qalıb. Baxmayaraq ki, SOCAR-ın 2016-cı il hesabatında sözügedən bu məsələlərin hamısı barədə dolğun informasiyalar verilib (http://www.socar.az/socar/assets/documents/az/socar-annual-reports/%C4%B0llik%20hesabat%202016.pdf).

İcmalda əvvəlki hesabatlardan fərqli cəhət ondan ibarətdir ki, hesabat dövrünə qədər Azərbaycanda neft və qaz hasilatı sahəsində imzalanan Hasilatın Pay Bölgüsü Sazişləri (HPBS)-nin sayı və onların nə qədərinin hazırda fəaliyyətdə olması, neçəsinin isə hüquqi qüvvəsini itirməsini haqda məlumatların verilməsidir.

Icmalda Azərbaycan Respublikasının neft və təbii qaz ehtiyatları ilə bağlı məlumatların yer almaması təəssüf hissi doğurur. Belə ki, əvvəlki hesabatlarda ehtiyatların dərc edilməsi mütəmadi xarakter daşıyırdı. Baxmayaraq ki, Azərbaycanın neft və qaz ehtiyatları ilə bağlı məlumatlar dünyanın enerji statistikası üzrə mötəbər sayılan "BP Statistical World Energy Review" hesabatlarında hər il yenilənir və bunlar ictimaiyyət üçün açıqdır (https://

www.bp.com/content/dam/bp/en/corporate/pdf/energy-economics/statistical-review-2017/bp-statistical-review-of-world-energy-2017-full-report.pdf).

2016-cı il üzrə Şəffaflıq Hesabatında əvvəlki hesabatlardan fərqli daha bir yenilik neft və qazın real ixrac həcmlərinin hesabatda əksini tapmasıdır. Belə ki, 2015-ci ilin heabatında, məsələn "2013-2015–ci illər ərzində ixrac olunan mallar" üzrə cədvəlində gömrük orqanlarında bəyan edilmiş həcmlər əsasında ixrac göstəriciləri açıqlanırdı. Ancaq neft və qazın ixrac həcmlərinin həm natura, həm də dəyər formasında ifadə olunan həmin göstəriciləri dövlətin nə real ixracını, nə də ixracdan gələn gəlirlərini əks etdirmirdi. İxracla bağlı məlumatların hesabatda bu şəkildə verilməsi əslində ictimaiyyət üçün statistik formadan başqa heç bir əhəmiyyət kəsb etmirdi, çünki onların əsasında hasil edilmiş neft və onun hansı hissəsinin ixraca yönəldilməsi və bundan ölkənin nə qədər gəlir əldə etməsi haqda reallığı əks etdirən bir mənzərə yaratmaq mümükün olmurdu.

Məhz buna görə də hazırkı Hesabatda yeni bir cədvəlin (12b) "2014-2016–ci illər ərzində gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmamış ixrac olunan malların həcmi" başlığı ilə verilməsi (əvvəlki hesabatlarla müqayisəli təhlillər aparmaq üçün), həmçinin əvvəlki illəri də əhatə edən yeni məlumatların daxil edilməsi müsbət hal kimi qiymətləndirilməlidir.

## QIZIL VƏ GÜMÜŞ HASİLATİ

Hesabatda "Qızıl və gümüş hasilatı" alt bölümü ölkədə qiymətli metalların kəşfi və hasilatının aparıldığı yataqlarla bağlı məlumatları əks etdirir. Burada yeganə dəyişiklik yataqların coğrafiyasını özündə əks etdirən xəritənin təsviridir. Belə ki, 3 yeni yataq – Dağkəsəmən, Kürəkçay və Göydağ (Naxçıvan Muxtar Respublikası) əlavə edilib.

Neft və qaz ehtiyatlarında olduğu kimi, hazırkı bölümdə də qızıl və gümüş ehtiyatları haqqında məlumata 2015-ci ildən fərqli olaraq rast gəlinmir. Audit şirkəti bunu Azərbaycan Respublikası dövlət sirri haqqında qanuna edilən dəyişikliklə izah edib. Qeyd etmək yerinə düşərdi ki, əksər dağ-mədən MHŞT ölkələri, qonşu Qazaxıstan da daxil olmaqla bu tip məlumatları dövlət sirri saymır və mütəmadi olaraq hesabatlarında dərc edirlər.

## NƏQLETMƏ GƏLİRLƏRİ

Azərbaycan zəngin karbohidratlar, onların istehsalı və dünya bazarında satışı ilə yanaşı həm də geniş çeşidli neft və qaz nəqletmə sisteminə malik ölkədir. BTC, Bakı-Supsa, Bakı - Novorossiysk neft kəmərləri və Cənub Qafqaz Boru Kəməri (Bakı-Tbilisi-Ərzurum)

ixrac qaz kəməri ilə yanaşı artıq tikilməkdə olan və yaxın zamanlarda istifadəyə veriləcək TANAP və perspektivdə TAP layihəsi ölkənin nəqletmə xəritəsini daha da mürəkkəbləşdirəcək. Ölkənin həm də tranzit mövqeyini (hazırda Mərkəzi Asiyanın 2 ölkəsi Qazaxıstan və Türkmənistanın xam neftinin dünya bazarına çıxışının bir hissəsi məhz Azərbaycan üzərindən keçir) nəzərə alsaq, hökumətin nəqletmə və əlahiddə tranzit gəlirlərinin hesabatda tam və aydın əks edilməsi çox böyük önəm daşıyır.

Bütün bunlara baxmayaraq hesabatda nəqletmə gəlirləri ilə bağlı məlumat ənənəvi olaraq dolğun deyil və qarışıq xarakter daşıyır.

İlk növbədə mövcud kəmərlərin statusu ilə bağlı məlumat kənar oxucu üçün aydın deyil və əlavə sual doğurur. Mövcud kəmərlərin hər biri fərqli statusa malikdir və onların sahibliyi, hansı müqaviləyə əsasən fəaliyyət göstərməsi əlavə izahat istəyir. Lakin əgər BTC, Bakı-Supsa və Bakı-Tbilisi-Ərzurum ilə bağlı məlumat müəyyən mənada bu suallara cavab verirsə, Bakı-Novorossiysk haqqında bunu demək olmur. Bu kəmərin SOCAR-ın balansında olması haqda hesabatda heç bir məlumat yoxdur.

Ümumiyyətlə, kəmərlərlə bağlı daha çox onların texniki xarakterli məlumatı üstünlük təşkil edir, amma gəlirliliklə bağlı vacib məlumat kölgədə qalır.

Boru kəmərlərinin ölkə xəzinəsinə gəlir axını fərqli kanallarla daxil olur. Belə ki, əgər Bakı-Supsa kəmərindən ARDNF-a tranzit haqları daxil olursa (hazırda yalnız bu kəmər ölkə xəzinəsinə tranzit haqqı gətirir), digərləri haqda bunu demək olmur.

Belə ki, fəaliyyətə başladığı dövrdən əsas ixrac boru kəməri BTC-nin ölkə xəzinəsinə cəlb edilən gəliri ARDNF-ın büdcəsində əks olunan dividend şəklində əksini tapırdı. 2012-ci ilə qədər Neft Fonduna ödənilən dividendin ümumi həcmi 597,1 mln. ABŞ dolları olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2011-ci ildə imzalanmış 1648 saylı Fərmanına uyğun olaraq, həmin dövrdən "BTC Co." şirkətindən daxil olan dividend artıq Neft Fonduna deyil, SOCAR-a ödənilmyə başlanılıb. Bu dəyişiklik, Fərmanda qeyd edildiyi kimi, "dövlətə məxsus payların idarə olunmasında operativliyin təmin edilməsi məqsədi ilə" edildi. Maraqlısı budur ki, elə həmin tarixdən bəri BTC-nin divdend olaraq Azərbaycana gətirdiyi gəlirlər haqda heç bir məlumat nə MHŞT hesabatında nə də digər mənbələrdə əksini tapmır.

## DÖVLƏT MÜƏSSİSƏLƏRİNİN MÜVAFİQ DÖVLƏT QURUMLARI İLƏ MÜNASİBƏTLƏRİ VƏ MALİYYƏ AXINLARI

Hesabatda ölkənin neft-qaz sənayesində fəaliyyət göstərən və Azərbaycan Respublikası-

nın ən böyük dövlət müəssisəsi olan SOCAR və onun ayrı-ayrı dövlət qurumları ilə münasibətləri haqqında verilən məlumatlar əsasən 2015-ci il üzrə hesabatda olan məlumatlardan ibarətdir.

Bu bölmənin materiallarında təkmilləşdirmənin və zəruri əlavələrin olmaması təəssüf doğurur. Burada SOCAR-ın hər il 3 hesabat (illik maliyyə hesabatı, illik fəaliyyət hesabatı və illik davamlı inkişaf hesabatı) açıqladığı qeyd edilməyib. HSŞ Hesabatında SOCAR-ın hər 3 hesabat haqqında icmal xarakterli məlumatın verilməsi və həmin hesabatların linklərinin yerləşdirilməsi məqsədəuyğun olardı.

2016-cı il üzrə HSŞ Hesabatında SOCAR-la dövlət qurumları arasında maliyyə axınları barəsində verilən məlumatlar (səh. 49 və 54) natamam xarakter daşıyır. Belə ki, orada Şirkətin nizamnamə kapitalı, əlavə ödənilmiş kapitalı, dövlətə ayırmalar və bölüşdürülməyən mənfəət haqqında SOCAR-ın 2016-cı il üzrə maliyyə hesabatına istinadən məlumatlar verilsə də, şirkətlə digər dövlət qurumları arasında olan maliyyə axınları haqqında məlumatlar verilməyib. Halbuki SOCAR-ın 2016-cı il üzrə Maliyyə Hesabatının 48-ci səhifəsində (7-ci qeyd) şirkətlə bir sıra dövlət qurumları (Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Azərbaycan Beynəlxalq Bankı, ARDNF, Azərbaycan İnvestisiya Fondu və s.) arasında olan maliyyə axınları barədə məlumatlar var. HSŞ Hesabatında bu məlumatlara istinadın verilməsi məqsədəuyğun idi.

Hesabatın 58-61-ci səhifələrində SOCAR-ın birgə, asılı və törəmə müəssisələri haqqında məlumat verilir. Lakin burada Şirkətin 2016-cı ildə təsis etdiyi "SOCAR Kapital" MMC haqqında məlumat yoxdur. Bu müəssisənin təsis edilməsi haqqında məlumat ölkə mətbuatında açıqlanmışdı (məsələn, https://www.azerfax.az/news_9758.html). Hesabatda habelə SOCAR-ın 2016-cı ildə ölkə daxilində satışa çıxardığı istiqrazlar barəsində də məlumat verilməyib.

## SOSİAL XƏRCLƏR

2016-cı il üzrə HSŞ Hesabatın "6.1. Sosial xərclər" altbölməsində (səh. 117) SOCAR-ın xeyriyyə, sosial və sponsorluq xərcləri ilə bağlı verilən məlumatlarda ziddiyyətlər vardır. Belə ki, məlumatın birinci hissəsində hesabat dövründə SOCAR-ın Azərbaycanda ümumilikdə 148 milyon manat həcmində sosial xərclərinin olması göstərilir, lakin heç bir mənbəyə istinad olunmur, lakin daha sonra xeyriyyə, sosial və sponsorluq məqsədləri üzrə yardımın əhatə dairəsinə görə SOCAR-ın 2016-cı il ərzində ödənişlərini əks etdirən 26 saylı cədvəlin məlumatlarında belə sosial xərclərin yalnız 8078.6 min manat olması göstərlib.

SOCAR-ın sosial xərclərinin 148 milyon manat olması haqqında məlumat Şirkətin 2016-

cı il üzrə maliyyə hesabatının 3-cü səhifəsində ("Konsolidasiya edilmiş mənfəət və ya zərər və sair ümumi gəlir haqqında hesabat"-da) və 35-ci səhifəsində ("segmentlər üzrə mənfəət və ya zərər haqqında məlumat"da) əks olunub (http://socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2016.pdf ). Amma Şirkətin hesabatlarında bu sosial xərclərin haraya və necə xərclənməsi haqqında detallı məlumatlar yoxdur.

Hesabatda SOCAR-dan savayı yalnız BP şirkətinin sosial xərcləri barədə ümumi məlumat verilib. Bu o deməkdir ki, ölkənin hasilat sənayesində fəaliyyət göstərən digər hasilat şirkətlərinin sosial xərcləri və korporativ sosial məsuliyyət sahəsində fəaliyyətləri ya yoxdur, ya da onların belə fəaliyyətləri barədə məlumatlar açıq mənbələrdə yerləşdirilmir. HSŞ üzrə Hökumət Komissiyası bununla bağlı şirkətlərə müvafiq müraciət etməsi məqsədəuyğun olardı.

## KVAZİ-FİSKAL FƏALİYYƏTLƏR

Hesabatın "6.2. Kvazi-fiskal xərclər" altbölməsində qeyd edilir ki. HSŞ Hökumət Komissiyası enerji sektorunda kvazi-fiskal xərclərin 2 növü (enerjidaşıyıcıları sahəsində kvazifiskal fəaliyyət və dövlət xərcləri sahəsində kvazi-fiskal fəaliyyət) üzrə məlumatları HSŞ hesabatına daxil edilməsinə qərar verib. Amma Hesabatda enerjidaşıyıcıları sahəsində kvazi-fiskal fəaliyyət haqqında məlumat yoxdur.

Dövlət xərcləmələri sahəsində kvazifiskal fəaliyyətlə bağlı SOCAR-ın maliyyə hesabatına istinadən verilən məlumat belə başlayır: "Dövlətin müvafiq qərarlarına uyğun olaraq...". Əslində SOCAR-ın aydınlıq gətirməli olduğu məsələ elə bundan ibarətdir ki, hesabatda qeyd edilən vəsaitlər məhz dövlətin hansı qərarları əsasında Şirkət tərəfindən maliyyələşdirilir və bunlar nə dərəcədə Şirkətin Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət məqsədlərinə və istiqamətlərinə uyğundur.

Enerjidaşıyıcıları sahəsində kvazifiskal fəaliyyətlə bağlı Hesabatda qeyd etmək yerinə düşərdi ki, SOCAR-ın 2016-cı il üzrə maliyyə hesabatının 68-ci səhifəsində (24-cü qeyd) 2016-cı ildə təbii qazın və məişət yanacağının satışından əmələ gəlmiş zərərin kompensasiya edilməsi üçün hökumət SOCAR-a 203 milyon manat dövlət qrantı verib http://socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2016.pdf ). Elə oradaca hələ 2016-cı ildəki oxşar fəaliyyətə görə Şirkətin 74 milyon manat alacağının olduğu gösətrilib.

SOCAR-ın kvazifiskal fəaliyyətlə bağlı daha bir məlumat Şirkətin Monteneqronun Kumbor ərazisindəki "Orijen Battalion" hərbi bazasında istirahət mərkəzinin yaradılması ("Porto-novi") layihəsində iştirak forması ilə bağlıdır. Məsələ ilə bağlı SOCAR prezidenti R. Abdullayev 2016-cı ilin aprelində mətbuata açıqla-

masında qeyd edib ki, SOCAR Monteneqroya sərmayə yatırmır: "Artıq neçə dəfədir biz deyirik ki, SOCAR Monteneqroya bir manat da vəsait qoymayıb. Sadəcə, SOCAR bir çox Azərbaycan şirkətləri üçün müxtəlif layihələrin icrasında vasitəçilik edir. Həmin tenderdə böyük şirkətlər iştirak edib, Azərbaycan şirkətləri SOCAR-ın brendi ilə bu tenderi udub və indi həmin işləri reallaşdırırlar. Biz, sadəcə, vasitəçilik etmişik. Bir müddətdən sonra bu prosesdən tam çəkiləcəyik və şirkətlər işlərini özləri görəcəklər" (http://report.az/energetika/rovneq-abdullayev-neftin-ucuzlasmasi-yeni-layihelerin-icrasina-mane-olur/). Buradan aydın görünür ki, Şirkət prezidenti etiraf edib ki, bu məsələdə SOCAR-ın brendindən birbaşa ona aid olmayan fəaliyyətdə istifadə olunub. Bu, Beynəlxalq Valyuta Fondunun müəyyənliyinə görə, hasilat sektorunda kvazi-fiskal fəaliyyət hesab olunur (http://www.imf.org/external/np/pp/2007/eng/051507g.pdf ).

## ÜZLƏŞMƏ PROSESİ VƏ ONUN NƏTİCƏLƏRİ

Hesabatın 4.4-cü altbölməsində 2016-cı il üzrə HSŞ hesabatlılığında iştirak edən xarici və yerli hasilat şirkətlərinin siyahısı və bəzi məlumatları təqdim edilib.

Əvvəlki illərdən fərqli olaraq bu ilki hesabatda "HPBS-də podratçısı olan yerli şirkətlər" yarımbaşlığı altında bir qrup şirkət qeyd edilib. Buraya aiddir: Əli-Bayramlı Neft MMC, Qobustan Neft MMC, Salyan Neft MMC və SGC Upstream MMC. Əvvəlki illərin hesabatlarında bu şirkətlərin də adları xarici hasilat sənayesi şirkətləri sırasında verilirdi. Amma hesabatda bununla bağlı heç bir izahat yoxdur ki, bu "status" dəyişikliyidir, yoxsa sadəcə dəqiqləşdirmədir? Bunlar tam müstəqil yerli şirkətlərdirsə, niyə indiyəcən hesabatlarda bu barədə heç bir məlumat olmayıb? Əgər bunlar SOCAR-ın tərkibində olan müəssisələrdirsə, Hesabatın 58-61-ci səhifələrində SOCAR-ın birgə, asılı və törəmə müəssisələri siyahısında bunların adları niyə yoxdur?

Qeyd etməliyik ki, indiyədək olan hesabatlarda Hesabatda yerli hasilat şirkətləri kimi SOCAR, AzGerneft MMC və AzerGold QSC göstərilirdi. Bu Hesabatda onlar "Digər yerli hasilat sənayesi şirkətləri" kimi təqdim edilib.

Hesabatın "4.5. Hasilatda dövlət payının satışı və digər natura şəklində gəlirlər" adlı altbölməsində (səh. 98) 2016-cı ildə SOCAR-a və Azərbaycan hökumətinin payına düşən xam neftin son alıcıları ilə bağlı cədvəl (alıcıların adı, satın aldıqları neftin həcmi və dəyəri) təqdim edilib. 2015-ci ilin Hesabatında xam neftlə yanaşı həm də təbii qazın il ərzində ixrac olunduğu ölkələrin adı və ixrac olunan təbii qazın miqdarı və dəyəri göstərilmişdi. Amma nədənsə builki Hesabatda təbii qazın ixracı ilə bağlı müvafiq məlumatlar verilməyib.

Hesabatın 4.3-cü altbölməsində üzləşmə (yəni şirkətlərin hökumətə həm natura, həm də dəyər ifadəsində ödənişləri haqqında məlumatlarla hökumətin şirkətlərdən aldıqları haqqında məlumatların tutuşdurulması) prosesinin nəticələri cədvəl formasında təqdim edilib (səh. 86). Cədvəl məlumatlarından məlum olur ki, bu məlumatların üzləşdirilməsi prosesində Müstəqil Auditor 10 fərq (məlumatların üst-üstə düşməməsi halını) aşkarlayıb ki, bunların da hamısı məhz şirkətlərin yol verdikləri "qüsurlar" olub.

Üzləşmə prosesində meydana çıxmış və məbləği ilə xüsusi diqqət cəlb edən fərqlərdən biri – şirkətlərin qaz satışından dəyər formasında hökumətə ödədikləri vəsaitin məbləğini 84.7 milyon ABŞ dolları çox göstərməsidir. Hesabatın üzləşmə prosesi haqqında daha detallı (həm şirkətlər, həm də ödəniş növləri üzrə fərdiləşdirilməklə) məlumatların və düzəlişlər barədə izahatların təqdim olunduğu 7-ci bölmənin materiallarından aydın olur ki, 6 xarici hasilat şirkəti (Azərbaycan (Şah Dəniz) Limited, BP Eksploreyşn (Azərbaycan) Limited, Lukoyl Oversiz Shah Deniz, SGC Upstream MMC və Petronas Azerbaijan Shah Deniz S.A.R.L) üzrə hesabat məlumatlarında "səhv"lərə yol verilib, amma sonradan düzəliş edilib. Amma orada verilmiş izahatdan belə məlum olur ki, əslində həmin şirkətlər onların ilkin hesabatda göstərdikləri vəsaiti ödəyiblər. Problem SOCAR-la onun asılı müəssisəsi (SOCAR-ın iştirak payı 28%) olan Azərbaycan Qaz Təchizatı Şirkəti arasında olan münasibətlərlə bağlı imiş. İzahatda deyilir: "SOCAR və Azərbaycan Qaz Təchizatı Şirkəti ("AQTŞ") təbii qaz üçün Apstrim Satınalma Sazişinin ("ASS"), "Şahdəniz üzrə optimallaşdırma layihəsi"-nin ("Debottlenecking SPA") və Qaz alqı-satqısı haqqında Sazişlərin ("Azeri SPA") tərəfdaşlarıdır. Debottlenecking SPA, Azeri SPA və ASS sazişlərinin müvafiq olaraq 13.3, 9.3 və 9.12-ci maddələrinə əsasən SOCAR tərəfindən AQTŞ-ə ödənilməmiş məbləğin AQTŞ tərəfindən ödənilməli olan məbləğ ilə əvəzləşdirilməsini həyata keçirə bilər. 2016-cı ildə Şahdəniz qazının satışı AQTŞ tərəfindən həyata keçirilmiş və bu satışdan əldə olunan gəlirlərin ümumi məbləği 198,6 milyon ABŞ dolları təşkil etmişdir. Həmin satışlardan 63,9 milyon ABŞ dolları Dövlət Neft Fonduna köçürülmüşdur. Yuxarıda qeyd olunan Sazişlər çərçivəsində 2016-cı ildə AQTŞ-nin Direktorlar Şurası 134,6 milyon ABŞ dolları məbləğində olan vəsaitin SOCAR-ın borcuna qarşı əvəz edilməsini qərara almışdırlar" (səh. 150). Göründüyü kimi, bu izahat məsələyə aydınlıq gətirmək əvəzinə bir sıra yeni suallar yaradır: 1) burada söhbət SOCAR-ın AQTŞ-yə hansı borcundan söhbət gedir və niyə Azərbaycan hökumətinə çatmalı qaz gəlirlərinin böyük bir hissəsi (134.6 milyon ABŞ dolları məbləğində) AQTŞ-yə çatmalıdır? 2) izahatda AQTŞ-nin qaz satışından SOFAZ-a 63,9 milyon ABŞ dolları köçürdüyü göstərilib, halbuki Hesa-

batın 86-cı səhifəsində üzləşmə prosesinin nəticələrini əks etdirən cədvəldə hökumətin 64.4 milyon dollar aldığı verilib. Bu fərq nə ilə bağlıdır?

Üzləşmə prosesində yaranan fərqlərlə bağlı daha bir narahatedici məqam SOCAR-ın yol verdiyi fərqlərin sayıdır: Şirkətin hesabat məlumatlarında demək olar bütün ödəniş növləri üzrə fərqlər yaranıb – cəmi 6 fərq. Bunlar əsasən texniki xarakterli olsa da, milli hasilat şirkətinin hesabat məlumatlarında davamlı olaraq bu qədər "səhv"lərə yol verməsi narahatlıq yaradan məqamdır.

## NƏTİCƏ

- MHŞT-ni tərk etdikdən sonra hökumətin şəffaflıq və hesabatlılıq sahəsində davamlı işi və ilk hesabatın vaxtında hazırlanması pozitiv qiymətləndirilməlidir və bu hökumətin şəffaflıq prinsiplərinə böyük önəm verdiyini göstərir.
- Hesabatın forma və strukturu, habelə əhatə dairəsi onu göstərdi ki, Komissiya ümumən MHŞT hesabatlarını statistik baxımdan yeniləyərək ənənəvi hesabat hazırlamağa üstünlük verdi. Halbuki, yeni şəraitdə daha geniş və məlumatlı hesabat hazırlamaq mümkün idi.
- Hökumətin hasilat sənayesində şəffaflıq və hesabatlılıq işində ən böyük çatışmazlığı – qanunverici və institusional bazanın kövrək olması - hazırkı hesabatda bir daha özünü biruzə verir. Mövcud hesabatlılıq tam deyil və müəyyən mənada qərar qəbul edənlərin iradəsindən asılıdır. Misal üçün, sazışların açıqlanması proseduru qanunverici bazaya söykənmədiyindən, bu sahədə qapalılıq getdikcə artır. Təsadüfi deyil ki, 2017-ci il Resursların İdarəedilməsi İndeksində (RGİ) Azərbaycan məhz bu sahədə geriləd.
- Hesabatın ən zəif yeri ənənəvi olaraq SOCAR-ın hesabatlılığındakı çatışmazlıqlardır. Şirkətə ünvanlanan sorğular əksər halda cavabsız qaldığından, hesabatı bu istiqamətdə təkmilləşdirmək mümkünsüz görünür.
- Hesabat ənənəvi olaraq oxucu üçün rahat və cəlbedici deyil. Bir tərəfdən ehtiyac olmayan və hətta bəzi hallarda hasilat sənayesinə aidiyyəti olmayan ağır və texniki məlumatların yer alması, digər tərəfdən tərtibatla bağlı çatışmazlıqlar hesabatı diqqətlə izləməyə və yetərli dərəcədə faydalanmağa imkan yaratmır.

## TÖVSİYƏLƏR:

- Növbəti ilin hesabatında hasilat sənayesinin fəaliyyətini tənzimləyən hüquqi-normativ sənədlərin siyahısının tamamlanması məqsədəuyğundur.
- Yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsini nəzərdə tutan istisna hallara qanunvericilik qaydasında aydınlıq gətirilməsinin təmin edilməlidir;
- Azərbaycanın indiyədək qazandığı təcrübədən istifadə edərək, habelə mütərəqqi

beynəlxalq təcrübədən faydalanmaqla, hasilatın pay bölgüsü sazişlərinin əhatə etdiyi məsələləri tənzimləyən xüsusi qanunun hazırlanması və qəbulu zəruridir. Həmin qanunda HPBS-ni tənzimləyən bütün məsələlərə aydınlıq gətirilməli və vahid yanaşma işlənilməlidir;

- HPBS-lərə cəlb edilən potensial investorun seçim meyarları, kəşfiyyata və istismara açıq elan edilən yataqların (ehtiyatların) müəyyənləşdirilməsi qaydaları, şirkətlərlə danışıqların gedişi barədə məlumatların və imzalanan sazişlərin ictimaiyyətə açıqlanması tələbləri, fəaliyyətdə olan sazişlərin müddətinin uzadılmasının qayda və prosedurları kimi məsələlərə qanunvericilik səviyyəsində dəqiqlik və aydınlıq gətirilməlidir;
- SOCAR-ın dövlət qurumları ilə münasibətlərini əks etdirən məlumatlar genişləndirilməli, bütün dövlət qurumları buraya daxil edilməli və təqdim olunan məlumatlar münasibətlərin xarakteri üzrə konkretləşdirilməlidir (Şirkət bu qurumlara nəyin hesabatını verir, maliyyə münasibətlərinin xarakteri nədir (ödənişlər, vergilər, cərimələr, dividendlər və s.), qeyri-maliyyə münasibətləri və s.);
- Hesabatda SOCAR-ın illik hesabatlarının (maliyyə, fəaliyyət və davamlı inkişaf sahələrində) hər birinin əhatə dairəsi və məzmunu haqqında icmal xarakterli məlumatın verilməsi və həmin hesabatların linklərinin Hesabatda təqdim edilməsi zəruridir;
- SOCAR-la ayrı-ayrı dövlət qurumları arasında maliyyə axınlarını əks etdirən məlumatların şirkətin illik maliyyə hesabatına istinadən cədvəl formasında bu Hesabatda yerləşdirilməsi zəruridir;
- "SOCAR Kapital" MMC və şirkətin ölkənin qiymətli kağızlar bazarına çıxardığı istiqrazlar barədə məlumatların Hesabata daxil edilməsi məqsədəuyğundur.
- HSŞ Hökumət Komissiyası SOCAR-ın sosial xərcləmələrinin məbləği və istiqamətləri ilə bağlı dəqiqləşdirmələrin təmin edilməsi üçün zəruri addımlar atsın;
- Növbəti ilin hesabatında ölkədə fəaliyyət göstərən bütün hasilat şirkətlərinin sosial xərcləmələri haqqında məlumatların təmin edilməsi üçün HSŞ Hökumət Komissiyası müvafiq şirkətlərin rəhbərliyinə müraciət etsin.
- HSŞ Hökumət Komissiyasının Maliyyə Nazirliyinə və SOCAR-a Şirkətin fiskal risklərinin müəyyənləşdirilməsi və kvazifiskal fəaliyyətlərinin dəqiqləşdirilməsi istiqamətində araşdırmaların aparılması ilə bağlı müraciət etməsi məqsədəuyğun olardı;
- Əvvəllər xarici hasilat sənayesi şirkətlərinin sırasında verilən Əli-Bayramlı Neft MMC, Qobustan Neft MMC, Salyan Neft MMC və SGC Upstream MMC-nin bu Hesabatda "HPBS-də podratçısı olan yerli şirkətlər" kimi təqdim edilməsinə aydınlıq gətirilməlidir (yəni burada status dəyişikliyi baş veribmi?);
- Əvvəlki illərin hesabatlarında olduğu kimi, növbəti hesabatlarda da il ərzində ölkədən ixrac olunan təbii qazın ölkələr üzrə ixrac

həcmi və dəyəri haqqında məlumatlar ictimaiyyətə təqdim edilsin;

- Üzləşmə prosesində şirkətlərin qaz satışından dəyər formasında hökumətə ödədikləri vəsaitin məbləği ilə bağlı yaranmış 84.7 milyon ABŞ dolları həcmində fərqin düzəldilməsi ilə bağlı Müstəqil Auditorun Hesabatda verdiyi izahat məsələyə tam aydınlıq gətirmədiyindən HSŞ Komissiyası əlavə izahat tələb etməli və məsələnin daha aydın şəkildə ictimaiyyətə açıqlanmasına nail olmalıdır;
- SOCAR-ın hesabat məlumatlarında hər il çox sayda "səhv"lərə yol verməsinin aradan qaldırması üçün zəruri addımlar atılsın;
- Növbəti hesabatın tərtibatı və dizaynı ilə bağlı təkmilləşmə işi aparılmalıdır.

**Müəlliflər:**
Azər Mehtiyev, İnqilab Əhmədov, İlham Şaban

**29 dekabr 2017-ci il**

